Xalqın qəzeti!

# Xalq qəzeti

№ 168 (30862) 13 avqust 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# İlham Əliyevin liderliyi ilə qlobal sabitlik və rifah təşəbbüsü



**Cənubi Qafqazın tarix boyu üzləşdiyi münaqişələr və geosiyasi gərginliklər region ölkələri arasında ticarət əlaqələrinin zəifləməsinə və iqtisadi inkişaf tempinin ləngiməsinə səbəb olmuşdur. Xüsusilə, Azərbaycanın ərazilərinin uzun müddət Ermənistan tərəfindən işğal altında saxlanılması, yalnız region miqyasında deyil, daha geniş coğrafiyada mövcud iqtisadi və logistik potensialın tam reallaşmasına ciddi maneələr yaratmışdır. Bu vəziyyət nəqliyyat marşrutlarının qapanmasına, investisiya axınlarının azalmasına və əməkdaşlıq imkanlarının məhdudlaşmasına gətirib çıxarmışdır.**

Lakin Prezident İlham Əliyevin uzaqgörən liderliyi ilə həyata keçirilən strateji təşəbbüslər mürəkkəb geosiyasi mənzərəni dəyişdirərək regionun dayanıqlı inkişafı üçün yeni imkanlar açmışdır. Bu təşəbbüslərin mühüm nümunələrindən biri Zəngəzur dəhlizi – "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" (TRIPP) layihəsidir. TRİPP uzunmüddətli sabitlik və iqtisadi tərəqqi baxımından strateji əhəmiyyət daşıyır, həm regional, həm də qlobal ticarət axınlarının genişlənməsinə xidmət edir. Layihənin malik olduğu faydalar gələcəkdə digər münaqişəli regionlarda da "infrastruktur → iqtisadi asılılıq → sülh → inkişaf" modelinin tətbiqinə yol aça və regional əməkdaşlığı gücləndirə bilər. Bu mənada TRIPP yolu Cənubi Qafqaz və qonşu bölgələr üçün yeni iqtisadi və geosiyasi perspektivlər formalaşdırır.

*(ardı 10-cu səhifədə)*

## Suverenliyin bərpası və hüququn aliliyi




səhifə ⇨ 12

## İmperiya təfəkkürü siyasi təklənməyə aparır



səhifə ⇨ 8

## Sülhün yolu Ermənistan konstitusiyasından keçir



**Azərbaycan, Ermənistan və ABŞ arasında Vaşinqtonda keçirilən üçtərəfli görüşdə sülh sazişinin paraflanması tarixi hadisə kimi qiymətləndirildi. Görüş regional və beynəlxalq ictimaiyyətin diqqətini bir daha bu məsələyə cəlb etdi və sülh prosesində mühüm addımın atıldığını göstərdi. Bəs nə üçün Vaşinqtondakı bu önəmli paraflanma və üçtərəfli razılaşmaya baxmayaraq, sülh prosesində ən mühüm addımlardan biri belə böyük çətinliklə atılır? Həqiqi maneələr nələrdir və gələcəkdə sülhə necə nail olmaq mümkündür?**

ardı səhifə ⇨ 7

# Düşmənçilik yetmədimi?

### *Yaxud Rusiyadakı anti-Azərbaycan ritorikasına sözardı*

**Həqiqətən, bəzi məsələləri anlamaq olmur. İndiki halda söhbət Rusiyanın müəyyən dairələrində formalaşmış anti-Azərbaycan ritorikasından gedir. Əlbəttə, bu ritorika onsuz da var idi və aylardır davam edir. Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin paraflanmasından, tərəflərin yekun barış yolunu açıqlamalarından, bütün problemlərin həlli prinsiplərinin müəyyənləşməsindən və bəyan olunmasından sonra isə ölkəmizi hədəfə alan reaksiyaların sayının ildırım sürətilə artdığını görür və heyrətlənirik.**

*(ardı 8-ci səhifədə)*



## AI–Ermənistan: İflas etmiş müşahidəçilik



səhifə ⇨ 9

# Rusiya həmişə Ermənistanı münaqişəyə yönəldib

### *Müstəqillik əldə etdikdən sonra üzləşdiyimiz problemlərin bir ucu Kremlə gedib çıxır*



**Azərbaycan 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini bərpa etdikdən sonra keçmiş SSRİ-nin bir çox müttəfiq respublikalarından fərqli olaraq, böyük problemlərlə üzləşdi. Əslində, bu problemlərin əsası elə SSRİ-nin mövcudluğunun son illərində qoyulmuşdu. Sözsüz ki, bura ilk növbədə 1987-ci ilin sonlarından etibarən Qarabağın dağlıq hissəsində ermənilərin başlatdığı separatçılıq hərəkatı daxildir. Eyni zamanda, 1990-cı ilin yanvarında Bakıya sovet ordusunun yeridilməsi, dinc, günahsız əhalinin qırğına verilməsi nüvəsində Rusiyanın dayandığı qırmızı imperiyanın azadlıq istəyən xalqa qarşı törətdiyi cinayət idi.**

*(ardı 7-ci səhifədə)*

## "Şahdəniz" yatağı – Xəzərin zəngin qaz xəzinəsi



səhifə ⇨ 11

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Ermənistan Respublikası ilə iki ölkə arasında möhkəm sülhə nail olunmasına yol açan Birgə Bəyannamənin imzalanması münasibətilə Sizi və dost Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu tarixi hadisəni alqışlayır, böhranların və münaqişələrin həllində yeganə vasitə olan sülh dialoqunun əhəmiyyətini vurğulayırıq.

Əminik ki, əldə olunan razılaşmalar mehriban qonşuluq münasibətlərinin inkişafına zəruri əsas yaradacaq, eyni zamanda, Qafqazda sabitliyin və təhlükəsizliyin əsaslarının möhkəmlənməsinə və konstruktiv regionlararası əməkdaşlığın genişlənməsinə kömək edəcəkdir.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və dost Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Ermənistan Respublikası ilə iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində mühüm addım olan Birgə Bəyannamənin imzalanması münasibətilə Sizə səmimi təbriklərimi çatdırıram. Bu tarixi nailiyyət cəsarət, müdriklik və region xalqları üçün sülh, sabitlik və əməkdaşlığın gələcəyinin formalaşdırılmasına sadiqlik nümayiş etdirir. Həmçinin beynəlxalq ictimaiyyətə vacib mesaj verir ki, dialoq və diplomatiya hətta ən mürəkkəb problemlərin həlli üçün ən güclü vasitə olaraq qalır.

Siz bu önəmli yolda irəliləyərkən əminliyimi bildirirəm ki, Birgə Bəyannamə etimadın qurulması, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi və Cənubi Qafqazda inkişaf və firavanlıq üçün yeni imkanların açılmasında əsas rol oynayacaqdır.

Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansı Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında münasibətlərdə yeni səhifənin açılması məsələsində dəstək və əməkdaşlığa sadiq qalır.

Zati-aliləri, ən səmimi təbriklərimi və göstərilən səylərin davamlı uğuru ilə bağlı ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Migel Anxel MORATİNOS,***
***BMT Baş katibinin müavini,***
***BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında bu yaxınlarda əldə olunmuş, münasibətlərin normallaşmasına və davamlı sülhün gələcəyinə aydın yol göstərən razılaşma münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Bu uğur həmin razılaşmanın əldə edilməsi üçün yorulmadan çalışan bütün insanların cəsarətini və uzaqgörənliyini əks etdirən tarixi bir mərhələdir.

Sülhün faydaları siyasi sahədən çox-çox kənara çıxır. Təkmilləşdirilmiş əlaqələr, daha geniş regional inteqrasiya, açıq və dayanıqlı ticarət yollarının təşviqi iqtisadi şaxələndirmə, davamlı artım və sosial inkişaf üçün həlledici ola bilər. BMT-nin Ticarət və İnkişaf Konfransı (UNCTAD) investisiyaların təşviqinə, istehsal potensialının artırılmasına və sülhün dividendlərinin bütün icmalar arasında geniş şəkildə bölüşdürülməsinə yardım etməyə hazırdır. Sərhədlərin delimitasiyası, təhlükəsizlik sahəsində əməkdaşlıq və davamlı sülh üçün möhkəm zəmin yaradan münasibətlərin normallaşdırılması daxil olmaqla, sazişin müddəalarının regionu dəyişdirə biləcək potensialını xüsusilə alqışlayıram.

UNCTAD-ın rəhbəri kimi mən bu sənədi təkcə diplomatik bir mərhələ kimi deyil, həm də davamlı inkişafa və regional əməkdaşlığa açılan qapı kimi görürəm. Gücləndirilmiş ticarət dəhlizləri, infrastrukturun inkişafı və iqtisadi əlaqə regionda tərəqqinin sürətləndirilməsi, investisiyaların artırılması və yaşayış şəraitinin yaxşılaşdırılması üçün həyati əhəmiyyət kəsb edir. Bu tarixi fürsətdən faydalanmaqda liderliyinizi və baxışınızı yüksək qiymətləndirirəm. UNCTAD bu fürsəti inklüziv və davamlı inkişaf nəticələrinə çevirməkdə Azərbaycanı və daha geniş regional tərəfdaşları dəstəkləməyə sadiq qalır. Bu istiqamətdə biz artıq Sevilyada keçirilən İnkişaf üçün Maliyyələşdirmə üzrə Dördüncü Beynəlxalq Konfransda çox mühüm nəticələr əldə etmiş Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə güclü və konstruktiv əməkdaşlığımızdan çox məmnunuq. Biz daha inklüziv, dayanıqlı və davamlı inkişafı təşviq etmək məqsədilə sentyabr ayında Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası çərçivəsində bu təşəbbüsləri gücləndirməyi səbirsizliklə gözləyirik.

Sülh, sabitlik və ümumi firavanlığa doğru davamlı tərəqqi üçün ən xoş arzularla.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Rebeka QRİNSPAN,***
***BMT-nin Ticarət və İnkişaf Konfransının Baş katibi***

*

**Zati-aliləri!**

Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəliyi adından Sizə Ermənistanın Baş naziri Nikol Paşinyan ilə Birgə Bəyannamənin uğurla imzalanması münasibətilə səmimi təbriklərimi çatdırıram. Bu mühüm razılaşma Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasında tarixi mərhələdir, eyni zamanda, Cənubi Qafqazda davamlı sülh və sabitliyin təmin olunmasını vəd edir.

Birləşmiş Millətlər Təşkilatı regionda sülhün, dialoqun və etimadın qurulmasına yönəldilmiş bütün səyləri qətiyyətlə dəstəkləyir. Biz həm Sizin, həm də Baş nazir Paşinyanın davamlı dialoqa sadiqliyinizi, eləcə də uzun müddətdir davam edən məsələlərin sülh yolu ilə həlli istiqamətində cəsarətinizi və liderliyinizi təqdir edirik.

Bu xoş fürsətdən istifadə edərək, Birləşmiş Millətlər Təşkilatının Azərbaycanla tərəfdaşlıq və əməkdaşlığının xüsusilə də BMT-nin 2026–2030-cu illəri əhatə edən Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinin həyata keçirilməsi vasitəsilə davam etdirilməsinə olan möhkəm sadiqliyini bir daha vurğulayıram. Hazırda Azərbaycan Hökuməti ilə sıx əməkdaşlıq şəraitində hazırlanmaqda olan Əməkdaşlığa dair Çərçivə Sənədi milli inkişaf prioritetləri və Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi ilə uyğun şəkildə davam edəcəkdir.

Bu sənəd Azərbaycanın inklüziv sosial-iqtisadi inkişafına, iqlimlə bağlı fəaliyyətinə və davamlı sülhə dəstək verən strateji əməkdaşlıq üçün platforma rolunu oynayacaqdır.

Bu tarixi nailiyyət münasibətilə Sizi bir daha təbrik edirəm. Birləşmiş Millətlər Təşkilatı Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və davamlı inkişafın dəstəklənməsi, xüsusilə davam edən təşəbbüslərdə qadınların və gənclərin əsas rol oynamalarının təmin olunması istiqamətində Azərbaycana dəstəyini davam etdirməyə hazır olduğunu bildirir.

**Hörmətlə,**

***Vladanka ANDREYEVA,***
***BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi***

# H.K.Hüseynovanın 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xidmətlərinə görə Hicran Kamran qızı Hüseynova 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2025-ci il**

# Albaniya Prezidenti Azərbaycan liderinin sülh məramını alqışlayır

Avqustun 12-də Albaniya Respublikasının Prezidenti Bayram Beqay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Bayram Beqay Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması, həmçinin ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin və digər sənədlərin imzalanması ilə bağlı dövlətimizin başçısını təbrik edib. O, bu prosesdə nümayiş etdirdiyi əzmə və liderliyə görə Azərbaycan Prezidentinin rolunu xüsusi vurğulayıb. Eyni zamanda, Bayram Beqay ABŞ Prezidentinin prosesə verdiyi dəstəyi yüksək qiymətləndirib.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib. Dövlətimizin başçısı regionda sülh gündəliyinin təşəbbüskarının və sülh müqaviləsinin mətninin müəllifinin də məhz Azərbaycan olduğunu vurğulayıb, Vaşinqtonda keçirilmiş görüş əsnasında qəbul edilmiş sənədlərin sülh gündəliyinin irəli aparılması baxımından önəminə toxunub. Prezident İlham Əliyev bu prosesə göstərdiyi dəstəyə görə ABŞ Prezidentinin rolunu qeyd edib.

Telefon söhbəti zamanı Azərbaycan ilə Albaniyanın beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı və qarşılıqlı dəstəyi yüksək qiymətləndirilib.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 31-11.4-cü bəndində “bu Siyahının 34.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər” sözləri “gənclər və idman naziri, onun müavini, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, sektor müdiri, baş məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2025-ci il**

# “Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 yanvar tarixli 2407 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 yanvar tarixli 2407 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 46 (Cild I) birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** İkinci–onuncu abzaslar müvafiq olaraq üçüncü–on birinci abzaslar hesab olunsun və aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

“Muxtar Babayev – Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi”.

**2.** Dördüncü abzas ləğv edilsin.

**3.** Altıncı abzasdan “Dağlıq Qarabağın Azərbaycanlı İcması İctimai Birliyinin sədri,” sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2025-ci il**

# Lənkəran rayonunun Hirkan–Daştatük–Biləsər avtomobil yolunun təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Yeddi min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Hirkan–Daştatük–Biləsər avtomobil yolunun dağılmış hissəsinin bərpası və istinad divarlarının tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2025-ci il**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Cənabınızı salamlamaqdan, səmimi arzu və xeyir-dualarımızı Sizə yetirməkdən şərəf duyuruq.

Zati-aliləri, “Konstitusiya və Suverenlik İli” elan etdiyiniz 2025-ci ildə - Böyük Qarabağ Zəfərinin 5-ci ildönümü ərəfəsində Azərbaycan xalqına yaşatdığınız misilsiz qürur və sevincə görə Azərbaycan din xadimlərinin və dindarlarının dərin minnətdarlığını Cənabınıza ifadə etməkdən böyük şərəf duyuruq. Sizin dünyanın lider ölkəsində yüksək səviyyədə qəbulunuz zamanı imzalanmış sənədlərin dəyər və mahiyyəti onun tarixi əhəmiyyətini müəyyən edir.

Müdrik dövlətçilik təfəkkürü və dəmir siyasi iradə ilə Azərbaycanın ərazi bütövlüyünü və əzəli torpaqları üzərində suverenliyini tam bərpa etmiş Zati-aliniz beynəlxalq müstəvidə Qələbəmizin manifestini dünyanın bir nömrəli siyasi ofisində bütün beynəlxalq ictimaiyyətə nümayiş etdirdi. Haqq-ədalət öz yerini tutdu, Azərbaycana qarşı qərəz nümunəsi olan 907-ci düzəlişin ABŞ Prezidenti Donald Tramp tərəfindən Sizin iştirakınızla nümayişkaranə şəkildə aradan qaldırılması Zati-alinizə olan ehtiram və etimadın təcəssümü, Sizin şəxsinizdə Azərbaycan dövlətinə edilən mühüm jest oldu. Azərbaycanla ABŞ arasında strateji əməkdaşlığın təməlinin qoyulması ölkəmizin dövlət müstəqilliyinin möhkəmlənməsi, siyasi, iqtisadi qüdrətinin artması yönündə həlledici amil olub, Zati-alinizin uğurlu dövlətçilik siyasətinin məntiqi nəticəsidir.

Möhtərəm cənab Prezident, Siz Azərbaycan xalqına dünyamiqyaslı daha bir Zəfər bəxş etdiniz, qlobal siyasi-diplomatik müstəvidə tarixi ədalətin bərpasına, suverenliyimizin ali məqamda təsdiqinə nail oldunuz. Uca Allah müqəddəs kitab olan “Qurani-Kərim”də buyurur: “Həqiqətən biz sənə açıq-aydın bir fəth (zəfər) bəxş etdik”. (Fəth surəsi, 1). Uca Allah hər zaman Zati-alinizi zirvədə qərar versin!

Zati-aliləri, biz - Azərbaycanda fəaliyyət göstərən dini konfessiya rəhbərləri hər zaman fəxr hissi duyuruq ki, Sizin beynəlxalq müstəvidə insan həmrəyliyinə xidmət edən davamlı əməli səyləriniz, yüksəksəviyyəli dövlət-din münasibətləri sayəsində Azərbaycan dinlərarası, məzhəblərarası harmoniya mühitində birgəyaşayış təcrübəsi ilə dünyada model kimi təqdir olunur. Sizin mənəvi irsə, dini abidələrə, bütün dinlərə məxsus məbədlərə müstəsna qayğı və diqqətiniz Zati-alinizin müdrik dövlətçilik təfəkkürünün bəhrələri olaraq dünya üçün örnəkdir. Azərbaycanın dövlət başçısı olaraq hər zaman bölgədə sülh, əmin-amanlıq, iqtisadi tərəqqi və əməkdaşlıq ideyalarına sadiqliyiniz, bu istiqamətdə dəyərli səyləriniz, mükəmməl siyasi xəttiniz öz bəhrəsini verir. Əmin ola bilərsiniz, Azərbaycanın din xadimləri, bütün dindarlar hər zaman Zati-alinizin yanındadırlar, Sizin müdrik daxili və xarici siyasətinizi dəstəkləyirlər və duaları həmişə Sizinlədir.

Zati-aliləri, Azərbaycan üçün daha bir misilsiz qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, Azərbaycan xalqı və dövləti naminə fədakar fəaliyyətinizə Uca Yaradandan uğurlar diləyirik. Milli-mənəvi və ümumbəşəri dəyərlərə ehtiramı ilə seçilən Öndərimizin, dünya müstəvisində ölkəmizə fəxarət yaşadan müzəffər Liderimizin səy və əməllərinə Ulu Rəbbimizdən rəvac diləyirik. Amin!

**Dərin hörmət və ehtiramla,**

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri,***

***ALEKSİY,***
***Rus Pravoslav Kilsəsinin***
***Bakı və Azərbaycan yepiskopu,***

***Yepiskop Vladimir FEKETE,***
***Roma Katolik Kilsəsinin***
***Azərbaycandakı Apostol***
***prefekturasının ordinarisi,***

***Milix YEVDAYEV,***
***Azərbaycandakı Dağ Yəhudiləri***
***İcmasının rəhbəri,***

***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa Yəhudiləri***
***İcmasının rəhbəri,***

***Robert MOBİLİ,***
***Alban-udi Xristian Dini***
***İcmasının sədri,***

***Zamir İSAYEV,***
***Sefarad yəhudiləri Bakı dini***
***icmasının rəhbəri***

## Azərbaycan Respublikası Prezidentinin "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" 2013-cü il 5 fevral tarixli 813 nömrəli, "Azərbaycan Respublikasında rəqəmsal inkişaf və nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli, "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" 2018-ci il 14 mart tarixli 1885 nömrəli, "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli, "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi"nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" 2024-cü il 28 sentyabr tarixli 199 nömrəli fərmanlarında və "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" 2014-cü il 13 fevral tarixli 268 nömrəli, "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022—2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2022-ci il 4 aprel tarixli 3199 nömrəli, "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 5 fevral tarixli 813 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 107 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) 1-ci və 4–6-cı hissələri ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287; 2025, № 3, maddələr 224, 227, № 6, maddə 552) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.0-cı bənd üzrə:

2.1.1. aşağıdakı məzmunda 3.0.3-3-cü və 3.0.72-1-ci yarımbəndlər əlavə edilsin:

"3.0.3-3. rəqəmsal inkişaf, habelə "elektron hökumət" və innovasiyalar üzrə beynəlxalq reytinqlərdə ölkənin mövqeyinin yaxşılaşdırılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə tədbirlər görmək;";

"3.0.72-1. Elektron Hökumət İnformasiya Sisteminin və onun altsistemlərinin ("Vahid Kommunal Xidmətlər" altsistemi istisna olmaqla), habelə həmin Sistemlə əlaqəli olan digər əsas və yardımçı dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılmasını və aparılmasını təmin etmək;";

2.1.2. 3.0.75-ci yarımbənddə "Elektron Hökumət İnformasiya Sistemi, elektron xidmətlərin göstərilməsini isə "elektron hökumət" portalı" sözləri ", habelə elektron xidmətlərin göstərilməsini Elektron Hökumət İnformasiya Sistemi" sözləri ilə əvəz edilsin;

2.1.3. 3.0.80-2-ci yarımbənddə "informasiya sistemləri və ehtiyatları, habelə elektron xidmətlərlə" sözləri "elektron xidmətlərlə, habelə dövlət informasiya ehtiyatları və sistemləri ilə" sözləri ilə əvəz edilsin;

2.1.4. aşağıdakı məzmunda 3.0.80-3-cü yarımbənd əlavə edilsin:

"3.0.80-3. dövlət qurumlarının və yerli özünüidarəetmə orqanlarının istifadə etməli olduqları texnoloji avadanlığa və proqram təminatına dair texniki tələbləri müəyyənləşdirmək;";

2.2. 4.0-cı bənd üzrə:

2.2.1. 4.0.17-1-ci yarımbəndə birinci halda "dövlət" sözündən əvvəl "normativ hüquqi aktlarda müəyyən edilmiş hallarda" sözləri əlavə edilsin;

2.2.2. 4.0.17-4-cü yarımbəndə birinci halda "informasiya" sözündən sonra "ehtiyatları və" sözləri əlavə edilsin.

**3.** "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 mart tarixli 1885 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 435 (Cild I) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 5.3-cü bənddə "Elektron hökumət" portalının" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin" sözləri ilə əvəz edilsin;

3.2. 5.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.4. dövlət orqanlarının informasiya ehtiyatları və sistemləri arasında informasiya mübadiləsini, habelə elektron xidmətlər göstərilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təşkil etsin;".

**4.** "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 9, maddə 1826 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 9, maddə 1004) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci, 3-cü hissələr və 4-1.2-ci bənd ləğv edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları" üzrə:

4.2.1. 1.2.14-1-ci yarımbənddə birinci halda "Vahid Giriş Sistemi" sözləri "Elektron Hökumət İnformasiya Sisteminin "Vahid Giriş" altsistemi" sözləri ilə, ikinci halda "Vahid Giriş Sistemi" sözləri "həmin altsistem" sözləri ilə əvəz edilsin;

4.2.2. 4-cü hissə üzrə:

4.2.2.1. 4.4-cü bəndin ikinci cümləsi çıxarılsın;

4.2.2.2. aşağıdakı məzmunda 4.4-1–4.4-5-ci bəndlər əlavə edilsin:

"4.4-1. Qurumlar elektron xidmətlərinin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyası üçün aşağıda qeyd edilən məlumatlarla EHİS-in internet informasiya ehtiyatı vasitəsilə Əlaqələndirici quruma müraciət edirlər:

4.4-1.1. qurumların EHİS-ə inteqrasiya ediləcək elektron xidmətləri, dövlət informasiya ehtiyatları və sistemləri haqqında məlumatlar (adı və texniki-texnoloji infrastrukturu);

4.4-1.2. qurumların EHİS-ə ötürəcəyi və (və ya) EHİS vasitəsilə qurumlara ötürüləcək məlumatların (sənədlərin) siyahısı;

4.4-1.3. qurumların texniki infrastruktura məsul şəxsləri haqqında məlumatlar (soyadı, adı, atasının adı, işlədiyi struktur vahidi, vəzifəsi, telefon nömrələri (mobil və stasionar), elektron poçt ünvanı).

4.4-2. Müraciətlərin, rəylərin, bildirişlərin və məlumatların (sənədlərin) göndərilməsi, eləcə də müraciətlərin icra vəziyyətinin izlənilməsi EHİS-də formalaşdırılan elektron kabinet vasitəsilə həyata keçirilir. Qurumların əməkdaşları elektron kabinetlərdən EHİS-in "Vahid Giriş" altsistemi vasitəsilə identikləşdirildikdən sonra istifadə edirlər. Göndərilən müraciətlər, rəylər, bildirişlər və məlumatlar (sənədlər) təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilir.

4.4-3. Əlaqələndirici qurum daxil olan müraciətlər əsasında ən geci 20 (iyirmi) iş günü müddətində inteqrasiya ilə bağlı texniki tələblərə cavab verən elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyasını təmin edir və bu barədə aidiyyəti qurumlara bildirişlər göndərir.

4.4-4. Elektron xidmətlər, dövlət informasiya ehtiyatları və sistemləri inteqrasiya ilə bağlı texniki tələblərə cavab vermədiyi halda Əlaqələndirici qurum aidiyyəti qurumlarla birgə həmin texniki tələblərə uyğunluğun təmin edilməsi üçün zəruri tədbirlər görür. Həmin tədbirlərin görülməsi müddəti bu Qaydaların 4.4-3-cü bəndində nəzərdə tutulan müddətə daxil deyildir.

4.4-5. İnteqrasiya ilə bağlı texniki tələblərə uyğunluq təmin edildikdən sonra Əlaqələndirici qurum elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyasını təmin edir və bu barədə aidiyyəti qurumlara bildirişlər göndərir.";

4.2.2.3. 4.5-ci bənd üzrə:

4.2.2.3.1. 4.5-ci bəndin birinci abzasında "ehtiyatlarının və sistemlərinin inteqrasiyası" sözləri "ehtiyatlarından və sistemlərindən informasiyanın əldə olunması" sözləri ilə əvəz edilsin;

4.2.2.3.2. 4.5.2-ci yarımbənddə "qoşulan" sözü "inteqrasiya edilən" sözləri ilə əvəz edilsin;

4.2.2.3.3. 4.5.3-cü yarımbəndin 5-ci abzasında "qoşulmadığı" sözü "inteqrasiya olunmadığı" sözləri ilə, "qoşulması" sözü "inteqrasiyası" sözü ilə əvəz edilsin;

4.2.2.3.4. 4.5.4-cü yarımbənd üzrə:

4.2.2.3.4.1. 1-ci abzasda "qoşulan" sözü "inteqrasiya edilən" sözləri ilə əvəz edilsin;

4.2.2.3.4.2. 2-ci abzasda "qoşulan" sözü "inteqrasiya edilən" sözləri ilə, "qoşulduqdan" sözü "inteqrasiya edildikdən" sözləri ilə əvəz edilsin;

4.2.2.3.5. 4.5.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.5.5. dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyası bu Qaydalara və Əlaqələndirici qurumun müəyyən etdiyi texniki tələblərə uyğun olaraq həyata keçirilir.";

4.2.3. aşağıdakı məzmunda 5.1-1–5.1-6-cı bəndlər əlavə edilsin:

"5.1-1. Elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsi və ya onlarda dəyişiklik edilməsi qurumların EHİS vasitəsilə sahibə ünvanladığı müraciət əsasında həyata keçirilir. Qurumlardan daxil olmuş müraciətlərə ən geci 20 (iyirmi) iş günü müddətində baxılır.

5.1-2. Elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsindən və ya onlarda dəyişiklik (məlumat mübadiləsinə və inteqrasiyaya təsir edən) edilməsindən imtina üçün əsas olmadıqda, Əlaqələndirici qurum tərəfindən aşağıdakı tədbirlərdən biri görülür:

5.1-2.1. elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsi məqsədəuyğun hesab edilir və bu barədə "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə müvafiq məlumatlar daxil edilir, EHİS vasitəsilə elektron xidmətlər göstərilməsi, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin EHİS-ə inteqrasiyası dayandırılır;

5.1-2.2. elektron xidmətlərdə, dövlət informasiya ehtiyatlarında və sistemlərində dəyişikliklər olunması məqsədəuyğun hesab edilir, elektron xidmətlərin, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin yenilənməsi (dəyişdirilməsi, təkmilləşdirilməsi) həyata keçirilir.

5.1-3. Elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsindən və ya onlarda dəyişiklik (məlumat mübadiləsinə və inteqrasiyaya təsir edən) edilməsindən imtina üçün əsas olduqda, onların arxivləşdirilməsinin və ya onlarda dəyişiklik edilməsinin məqsədəuyğun hesab olunmaması barədə rəylər 30 (otuz) iş günü müddətində Əlaqələndirici qurum tərəfindən hazırlanaraq elektron qaydada aidiyyəti qurumlara təqdim edilir.

5.1-4. Elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsindən və ya onlarda dəyişiklik (məlumat mübadiləsinə və inteqrasiyaya təsir edən) edilməsindən aşağıdakı hallarda imtina olunur:

5.1-4.1. elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsinin və ya onlarda dəyişiklik edilməsinin hüquqi əsasları və səbəbləri təqdim olunmadıqda;

5.1-4.2. elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin arxivləşdirilməsi və ya onlarda dəyişiklik edilməsi beynəlxalq standartlara, Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş texniki tələblərə və digər tələblərə uyğun olmadıqda;

5.1-4.3. elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi mümkün olduqda (elektron xidmət göstərilməsinin, habelə dövlət informasiya ehtiyatlarının və sistemlərinin aparılmasının texniki və maliyyə çətinlikləri, eləcə də istifadəçi sayının az olması səbəbindən arxivləşdirilməsi üçün müraciət edildiyi hallarda).

5.1-5. Arxivləşdirilməsi və ya dəyişiklik (məlumat mübadiləsinə və inteqrasiyaya təsir edən) edilməsi üçün müraciət olunan elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi ilə bağlı Əlaqələndirici qurum aidiyyəti qurumlara təkliflər verə bilər. Aidiyyəti qurumlar həmin təkliflər əsasında və Əlaqələndirici qurum tərəfindən müəyyən olunan müddətlər ərzində elektron xidmətlərin, dövlət informasiya ehtiyatlarının və sistemlərinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər görür.

5.1-6. Bu Qaydaların 5.1-1–5.1-3-cü və 5.1-5-ci bəndləri ilə müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi üçün qurumlardan dövlət informasiya ehtiyatlarının və sistemlərinin fəaliyyəti ilə bağlı əlavə texniki məlumatlar (sənədlər) alına bilər. Aidiyyəti qurumlar həmin məlumatları (sənədləri) Əlaqələndirici qurumun müraciəti daxil olduğu tarixdən 10 (on) iş günü müddətində Əlaqələndirici quruma təqdim edirlər.";

4.2.4. 7.1-ci bənd üzrə:

4.2.4.1. 7.1.5-ci yarımbəndə "dövlət" sözündən əvvəl "elektron xidmətlər, habelə" sözləri əlavə edilsin;

4.2.4.2. 7.1.6-cı yarımbəndə "dövlət" sözündən əvvəl "elektron xidmət təminatçısı," sözləri əlavə edilsin;

4.2.4.3. 7.1.8-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"7.1.8. elektron xidmətlərin, eləcə də inteqrasiya olunan dövlət informasiya ehtiyatının və sisteminin təhlükəsiz, dayanıqlı və fasiləsiz fəaliyyətini elektron xidmət təminatçısından, dövlət informasiya ehtiyatının və sisteminin sahibindən, operatorundan və iştirakçısından tələb etmək;".

**5.** Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 199 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 9, maddə 1004) ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi"nin 5.2-ci bəndinin ikinci cümləsində və 5.3-cü bəndində "Vahid Giriş Sistemi" sözləri "EHİS-in "Vahid Giriş" altsistemi" sözləri ilə əvəz edilsin.

**6.** "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 fevral tarixli 268 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 156 (Cild I); 2025, № 4 (I kitab), maddə 341) 2.10-cu bəndində "Elektron hökumət" portalı" sözləri "Elektron Hökumət İnformasiya Sistemi" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 339 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654) ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı" hissəsinin 2.6-cı bəndinin "Tədbirin adı" sütununda "Portalına" sözü "İnformasiya Sisteminə" sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3721 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 114 (Cild I); 2024, № 4, maddə 393) ilə təsdiq edilmiş "Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı"nın 6.1.6-cı yarımbəndinin 2.2-ci, 2.3-cü və 4.1-ci abzaslarında, "8. Dövlət Proqramına dair Tədbirlər Planı" hissəsinin 8.6.2-ci yarımbəndinin "Tədbirin adı" və "aralıq nəticələr" sütunlarında, 8.6.3-cü yarımbəndinin "Tədbirin adı", "ilkin nəticələr" və "aralıq nəticələr" sütunlarında ismin müvafiq hallarında "Elektron hökumət" portalı" sözləri ismin müvafiq hallarında "Elektron Hökumət İnformasiya Sistemi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2025-ci il**

---

## Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1139 (Cild I); 2025, № 3, maddə 227) ilə təsdiq edilmiş "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.1-ci bəndə "(o cümlədən nəzarət və tənzimləmə)," sözlərindən sonra "elektron hökumətin inkişafının təmin olunması, rəqəmsal hökumətə keçidin sürətləndirilməsi," sözləri əlavə edilsin.

**2.** 2.1.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.5. Nazirliklə birgə elektron xidmətlər, habelə dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatları və sistemləri barədə qiymətləndirmələr aparmaq;".

**3.** 3-cü hissə üzrə:

3.1. 3.1.5-ci yarımbənddə "sahəsində" sözü ", habelə "elektron hökumət" sahələrində" sözləri ilə əvəz olunsun və həmin yarımbəndə ikinci halda "texnologiyaların" sözündən sonra ", o cümlədən informasiya-kommunikasiya texnologiyalarının" sözləri əlavə edilsin;

3.2. 3.1.6-cı yarımbəndə "texnologiyaların" sözündən sonra ", o cümlədən informasiya-kommunikasiya texnologiyalarının" sözləri əlavə edilsin;

3.3. 3.1.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.1.7. dövlət orqanlarının (qurumlarının) rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə imkanlarının artırılması üçün tədbirlər görmək, habelə informasiya təhlükəsizliyinin (kritik informasiya infrastrukturu istisna olmaqla) təmini ilə bağlı tədbirlərin həyata keçirilməsində iştirak etmək;";

3.4. 3.1.8-ci yarımbəndə "inkişaf" sözündən sonra ", habelə "elektron hökumət" sözləri əlavə edilsin;

3.5. 3.1.9-cu yarımbəndə "etmək" sözündən sonra ", eləcə də yardımçı dövlət informasiya sistemlərinin siyahısının müəyyən olunması ilə bağlı Nazirliyə təkliflər vermək" sözləri əlavə edilsin;

3.6. 3.1.10-cu və 3.1.12-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"3.1.10. dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı aidiyyəti dövlət orqanından (qurumundan) sənədləri (texniki məlumatları) almaq;";

"3.1.12. dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi proseslərində Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi qaydaları"na uyğun olaraq iştirak etmək;";

3.7. 3.1.14-cü yarımbənddə "sistemlərinin və ehtiyatlarının" sözləri "ehtiyatlarının və sistemlərinin" sözləri ilə əvəz edilsin;

3.8. 3.1.16-cı yarımbəndə "ehtiyatlarında" sözündən sonra "və sistemlərində" sözləri əlavə olunsun və həmin yarımbənddə "keçilməsilə" sözü "keçilməsi ilə, eləcə də "kağızsız hökumət"ə keçid və dövlət orqanlarında (qurumlarında) kağızdan istifadənin minimallaşdırılması ilə" sözləri ilə əvəz edilsin;

3.9. aşağıdakı məzmunda 3.1.16-1–3.1.16-19-cu və 3.2.3-1–3.2.3-5-ci yarımbəndlər əlavə edilsin:

"3.1.16-1. "elektron hökumət"in inkişafı, o cümlədən "elektron hökumət" layihəsinin həyata keçirilməsi üçün zəruri tədbirlərin görülməsində iştirak etmək;

3.1.16-2. elektron xidmət təminatçısı, dövlət informasiya ehtiyatının və sisteminin sahibi və operatoru ilə birgə həmin informasiya ehtiyatından və sistemindən səmərəli və effektiv istifadə imkanlarının artırılması məqsədilə texniki və təkmilləşdirici tədbirlər görmək;

3.1.16-3. dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi, eləcə də elektron xidmətlər göstərilməsi ilə bağlı texniki tələblərə dair Nazirliyə təkliflər vermək;

3.1.16-4. "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nin və İnformasiya Mənbələrinin Reyestrinin aparılmasında iştirak etmək;

3.1.16-5. dövlət orqanlarının (qurumlarının) göstərdikləri xidmətlərin elektron formada təşkili və təkmilləşdirilməsi ilə bağlı tədbirlər görülməsində normativ hüquqi aktların tələblərinə uyğun olaraq iştirak etmək;

3.1.16-6. elektron xidmətlərlə, habelə dövlət informasiya ehtiyatları və sistemləri ilə bağlı dövlət orqanları (qurumları) tərəfindən təqdim olunan layihələrə onların texniki cəhətdən və səmərəlilik baxımından məqsədəuyğunluğu barədə rəy verilməsində iştirak etmək;

3.1.16-7. elektron xidmətlər, habelə dövlət informasiya ehtiyatı və sistemi onların yaradılmasına, həmçinin formalaşdırılmasına, genişləndirilməsinə, bölünməsinə və ya birləşdirilməsinə dair layihələrə uyğun olmadıqda, texniki normalara, standartlara və tələblərə cavab vermədikdə, onlarda zəruri dəyişiklik və təkmilləşdirmə aparılması üçün Nazirliyə təkliflər vermək, dövlət orqanlarına (qurumlarına) əməli və metodiki kömək göstərmək;

3.1.16-8. dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatları və sistemləri arasında informasiya mübadiləsinin, habelə elektron xidmətlərin göstərilməsinin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təşkilində iştirak etmək;

3.1.16-9. elektron xidmətlərin, eləcə də inteqrasiya olunan dövlət informasiya ehtiyatının və sisteminin təhlükəsiz, dayanıqlı və fasiləsiz fəaliyyətinin elektron xidmət təminatçısından, dövlət informasiya ehtiyatının və sisteminin sahibindən, operatorundan və iştirakçısından tələb edilməsi ilə bağlı Nazirliyə müraciət etmək;

3.1.16-10. inteqrasiya olunan dövlət informasiya ehtiyatının və sisteminin sahibi və ya operatoru tərəfindən normativ hüquqi aktların tələbləri pozulduqda və ya dövlət informasiya ehtiyatının və sisteminin fəaliyyətini ləngidəcək, dayandıracaq və ya onlara zərər vura biləcək davranışlara yol verildikdə, məlumat mübadiləsinin bu nöqsanlar aradan qaldırılanadək dayandırılması məqsədilə Nazirlik qarşısında məsələ qaldırmaq;

3.1.16-11. informasiyanın ilkin mənbələrinin müəyyənləşdirilməsini, həmin mənbələrdən əldə edilməsini və istifadəsini təşkil etmək;

3.1.16-12. elektron xidmətlərin təşviqi məqsədilə əhalinin maarifləndirilməsi istiqamətində tədbirlər görmək;

3.1.16-13. operatoru olaraq müəyyən edildiyi dövlət informasiya ehtiyatlarının və sistemlərinin idarə olunması, fəaliyyətinin təmin edilməsi və təkmilləşdirilməsi ilə əlaqədar zəruri tədbirləri həyata keçirmək;

3.1.16-14. ölkə üzrə rəqəmsal inkişafın arxitekturasının (informasiya proseslərinin həyata keçirilməsini təmin edən informasiya ehtiyatlarının və sistemlərinin, informasiya-kommunikasiya şəbəkəsinin, rəqəmsal tətbiq və platformaların əlaqələndirilmiş formada layihələndirilməsi və fəaliyyətinin təmini) qurulmasını təmin etmək və rəqəmsallaşmanın həmin arxitekturaya uyğun həyata keçirilməsinə nəzarət olunmasında iştirak etmək;

3.1.16-15. dövlət xidmətlərinin həyata keçirilməsinin keyfiyyət standartlarına dair Nazirliyə təkliflər vermək;

3.1.16-16. rəqəmsal inkişafla və elektron hökumətlə bağlı görülən işlərə və həyata keçirilən tədbirlərə (o cümlədən dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılmasına və təkmilləşdirilməsinə, eləcə də elektron xidmətlərin təşkilinə və təkmilləşdirilməsinə) dair ildə iki dəfə Nazirliyə hesabat vermək;

3.1.16-17. biliklərə əsaslanan iqtisadiyyatın, o cümlədən sosial-iqtisadi fəaliyyətin yeni formalarının (e-ticarət, telesəhiyyə, teleiş və sair) inkişafı ilə bağlı Nazirlik və digər aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə zəruri tədbirlər həyata keçirmək;

3.1.16-18. ölkə kodlu yüksək səviyyəli domen adlarının qeydiyyatını və onlardan istifadəni beynəlxalq normalara uyğun olaraq Nazirlik və digər aidiyyəti dövlət orqanlarının (qurumlarının) iştirakı ilə tənzimləmək;

3.1.16-19. dövlət orqanlarının (qurumlarının) elektron xidmətləri barədə vətəndaşlardan daxil olan irad və təklifləri təhlil edərək, aidiyyəti dövlət orqanlarına (qurumlarına) məlumat göndərmək;";

"3.2.3-1. normativ hüquqi aktlarda müəyyən edilmiş hallarda dövlət orqanlarının (qurumlarının) malik olduqları informasiya ehtiyatlarına və sistemlərinə çıxış əldə etmək, dövlət orqanları (qurumları) tərəfindən göstərilən xidmətlərin elektron formada təşkili ilə bağlı müvafiq proqram təminatını hazırlamaq məqsədilə həmin orqanların (qurumların) xidmət prosesini öyrənmək və müvafiq təkliflər vermək;

3.2.3-2. elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi ilə bağlı layihələrin təşəbbüsçüsü, icraçısı və ya sifarişçisi kimi çıxış etmək;

3.2.3-3. dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması zamanı onların təsdiq olunmuş layihələrə, texniki normalara, standartlara və tələblərə uyğun həyata keçirilməsinə nəzarət olunmasında və istismara qəbulunda Nazirliklə birlikdə iştirak etmək;

3.2.3-4. dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatları və sistemləri arasında informasiya mübadiləsinin həyata keçirilməsi məqsədilə yaradılmış infrastruktura qoşulmaları üçün dövlət orqanlarına (qurumlarına) təkliflər vermək;

3.2.3-5. elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi ilə bağlı dövlət orqanlarının (qurumlarının) təkliflərini toplamaq, onları təhlil etmək və rəy vermək;";

3.10. 3.2.4-cü yarımbənddə "fəaliyyət istiqamətlərinə uyğun olaraq dövlət informasiya sistemlərinin və ehtiyatlarının qiymətləndirilməsində və onların istismara qəbulunda" sözləri "dövlət orqanlarında (qurumlarında) elektron xidmətlərin təşkili və göstərilməsi, habelə dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarının və sistemlərinin təşkili və fəaliyyəti üzrə qiymətləndirilmələr aparılmasında" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2025-ci il**

## Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 1999-cu il 30 avqust tarixli 189 nömrəli, “Xidməti və mülki silah haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 21 fevral tarixli, 679 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” 2002-ci il 24 avqust tarixli 769 nömrəli, “Pasportlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə”nin təsdiq edilməsi haqqında” 2013-cü il 11 iyun tarixli 908 nömrəli, “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə”nin təsdiq edilməsi haqqında” 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli, “Açıq məkanda reklam fəaliyyəti ilə bağlı bir sıra məsələlərin tənzimlənməsi haqqında” 2017-ci il 19 dekabr tarixli 1743 nömrəli, “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin və “Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” 2019-cu il 11 iyun tarixli 728 nömrəli və “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin klasterləri haqqında Nümunəvi Əsasnamə”nin təsdiq edilməsi barədə” 2022-ci il 15 dekabr tarixli 1905 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 189 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 9, maddə 539 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 19-1-ci hissə əlavə edilsin:

“19-1. Bu Əsasnamənin 2-ci, 8-ci, 10-cu, 17-ci və 19-cu hissələrində qeyd edilən sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”;

1.2. həmin Əsasnaməyə 1, 2 və 3 nömrəli əlavələrə aşağıdakı məzmunda 1-1-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 1-1. Fərdi identifikasiya nömrəniz | |

**2.** Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 489 (Cild I); 2024, № 5 (I kitab), maddə 511; 2025, № 6, maddə 552) ilə təsdiq edilmiş “Xidməti və mülki silahın uçotu, saxlanılması, gəzdirilməsi, daşınması, göndərilməsi və təyinatı üzrə istifadə olunması Qaydaları”nın III hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.4-cü bəndin ikinci abzasına “anket göstəriciləri” sözlərindən sonra “və fərdi identifikasiya nömrəsi” sözləri, “atasının adı,” sözlərindən sonra “fərdi identifikasiya nömrəsi,” sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 3.4-1-ci bənd əlavə edilsin:

“3.4-1. Bu Qaydaların 3.4-cü bəndində qeyd edilən sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 11 iyun tarixli 908 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 636 (Cild I) ilə təsdiq edilmiş “Pasportlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 3.3-1-ci bənd əlavə edilsin:

“3.3-1. Bu Əsasnamənin 3.2-ci və 3.3-cü bəndlərində qeyd edilən sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”;

3.2. həmin Əsasnaməyə 1 və 2 nömrəli əlavələrə aşağıdakı məzmunda 1.1.1.3-1-ci abzas əlavə edilsin:

| | |
|---|---|
| 1.1.1.3-1. Fərdi identifikasiya nömrəsi | |

**4.** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 10, maddə 1148 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 iyul tarixli 453 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2-ci hissə üzrə:

4.1.1. 2.4-cü bəndin ikinci cümləsinə “edilir” sözündən sonra “və bu barədə məlumatlar real vaxt rejimində Elektron Hökumət İnformasiya Sisteminə ötürülür” sözləri əlavə edilsin;

4.1.2. 2.7-ci bəndin ikinci cümləsinə “tərəfindən” sözündən sonra “Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə” sözləri əlavə edilsin;

4.1.3. 2.8-ci bəndə “vasitəsilə” sözündən sonra “Elektron Hökumət İnformasiya Sistemi üzərindən” sözləri əlavə edilsin;

4.1.4. 2.11-ci bəndin birinci cümləsinə “saytında” sözündən sonra “, xidmətin reqlamentində” sözləri əlavə edilsin;

4.1.5. aşağıdakı məzmunda 2.23-1-ci bənd əlavə edilsin:

“2.23-1. Bu Əsasnamənin 2.2-ci və 2.23-cü bəndlərində qeyd edilən sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”;

4.2. 3.3-cü bəndin ikinci cümləsinə “dəyişdirilir” sözündən sonra “və bu barədə məlumatlar real vaxt rejimində Elektron Hökumət İnformasiya Sisteminə ötürülür” sözləri əlavə edilsin.

**5.** “Açıq məkanda reklam fəaliyyəti ilə bağlı bir sıra məsələlərin tənzimlənməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 dekabr tarixli 1743 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2311 (Cild I); 2024, № 6 (I kitab), maddə 661; 2025, № 6, maddə 540) aşağıdakı dəyişikliklər edilsin:

5.1. həmin Fərmanla təsdiq edilmiş “Açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsi və bu sahədə nəzarətin həyata keçirilməsi Qaydası”nın 2-ci hissəsi üzrə:

5.1.1. 2.2-ci bəndin birinci abzasından “(müvafiq qurum özü bu Qaydanın 2.2.1–2.2.3-cü yarımbəndlərində nəzərdə tutulmuş sənədlər barədə məlumatları “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun 18.3-cü maddəsində nəzərdə tutulmuş qaydada əldə edə bildikdə həmin sənədlərin ərizəyə əlavə edilməsi tələb olunmur)” sözləri çıxarılsın;

5.1.2. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“2.2-1. Bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”;

5.1.3. 2.3-cü bəndin ikinci cümləsinə “edildikdə” sözündən sonra “(bu Qaydanın 2.2-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində tikintisinə icazə tələb olunmayan reklam qurğularının quraşdırılması və sökülməsi Qaydası”nın 2-ci hissəsi üzrə:

5.2.1. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

“2.2-1. Bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulmuş sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”;

5.2.2. 2.3-cü bəndin ikinci cümləsinə “edildikdə” sözündən sonra “(bu Qaydanın 2.2-1-ci bəndinin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin.

**6.** “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin və “Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1020 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Fərmanla təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə”nin 9.1-ci bəndinin ikinci cümləsində “və atasının adı (şəxsiyyət vəsiqəsinin surəti əlavə olunmaqla)” sözləri “, atasının adı və fərdi identifikasiya nömrəsi (əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti əlavə olunmaqla)” sözləri ilə əvəz edilsin;

6.2. həmin Fərmanla təsdiq edilmiş “Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə”nin 8.1-ci bəndinin ikinci cümləsində “və atasının adı (şəxsiyyət vəsiqəsinin surəti əlavə olunmaqla)” sözləri “, atasının adı və fərdi identifikasiya nömrəsi (əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti əlavə olunmaqla)” sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 dekabr tarixli 1905 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1415 (Cild I); 2025, № 2, maddə 136) ilə təsdiq edilmiş “Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin klasterləri haqqında Nümunəvi Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

7.1. 4-cü hissə üzrə:

7.1.1. 4.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

“4.3. Bu Əsasnamənin 4.2-ci bəndində qeyd olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”;

7.1.2. 4.5-ci bəndin birinci cümləsinə “edildikdə” sözündən sonra “(bu Əsasnamənin 4.3-cü bəndinin tələbləri nəzərə alınmaqla)” sözləri əlavə edilsin;

7.2. aşağıdakı məzmunda 6.1-1-ci bənd əlavə edilsin:

“6.1-1. Bu Əsasnamənin 6.1-ci bəndində qeyd olunan sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsi mümkün olduqda, həmin sənədlər ərizəçidən tələb edilmir. Belə sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2025-ci il**

---

## Azərbaycan Respublikası Prezidentinin “Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında” 2015-ci il 23 fevral tarixli 477 nömrəli, “Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında” 2016-cı il 3 fevral tarixli 762 nömrəli, “Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında” 2016-cı il 22 iyun tarixli 940 nömrəli, “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında” 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli, “Sosial sığorta ehtiyatından istifadə Qaydası”nın və “Sığortaolunanlar üzrə xüsusi hesaba əlavə vəsaitlərin ödənilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” 2017-ci il 12 sentyabr tarixli 1597 nömrəli, “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında” 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli, “Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 10 dekabr tarixli 393 nömrəli, “Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları”nın təsdiq edilməsi haqqında” 2018-ci il 28 dekabr tarixli 448 nömrəli və “Dövlətə məxsus olan hüquqi şəxslərdə apellyasiya şuralarının yaradılması haqqında” 2019-cu il 6 may tarixli 681 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Ünvanlı dövlət sosial yardımı sisteminin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 23 fevral tarixli 477 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 139 (Cild I) 5-ci hissəsində “Elektron hökumət” portalına” sözləri “Elektron Hökumət İnformasiya Sisteminə” sözləri ilə əvəz edilsin.

**2.** “Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 226 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 iyul tarixli 429 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş “Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə”nin 4.6.10-cu yarımbəndində və 6.10-cu bəndində “Elektron hökumət” portalındakı” sözləri “Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilən” sözləri ilə əvəz edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş “Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə”nin 4.6.10-cu yarımbəndində və 6.10-cu bəndində “Elektron hökumət” portalındakı” sözləri “Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilən” sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 9, maddə 998; 2025, № 4 (I kitab), maddə 333; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 iyul tarixli 443 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası”nın 4.2-ci bəndində “Elektron hökumət” portalında olan” sözləri “Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilən” sözləri ilə əvəz edilsin.

**4.** “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1820 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddə 654; 2025, № 6, maddə 560) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 6.1-ci bənddə “Elektron hökumət” portalına” sözləri “Elektron Hökumət İnformasiya Sisteminə” sözləri ilə əvəz edilsin;

4.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası” üzrə:

4.2.1. 4.1-ci bəndin ikinci cümləsində “internet saytında, “Elektron hökumət” portalında və Fondun internet saytında” sözləri “Agentliyin və Fondun rəsmi internet saytlarında və Elektron Hökumət İnformasiya Sistemində” sözləri ilə əvəz edilsin;

4.2.2. 5.2-ci bənddə “Elektron hökumət” portalında olan” sözləri “Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilən” sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 1597 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 9, maddə 1644 (Cild I) ilə təsdiq edilmiş “Sığortaolunanlar üzrə xüsusi hesaba əlavə vəsaitlərin ödənilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndin birinci cümləsində “Elektron hökumət portalı” sözləri “Elektron Hökumət İnformasiya Sistemi” sözləri ilə əvəz edilsin;

5.2. 4-cü hissənin birinci cümləsində “Elektron hökumət” portalına” sözləri “Elektron Hökumət İnformasiya Sisteminə” sözləri ilə əvəz edilsin.

**6.** “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 29 noyabr tarixli 1691 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2030 (Cild I); 2024, № 2, maddə 159; 2025, № 2, maddə 113) aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Fərmanla təsdiq edilmiş “Sahibkarlar tərəfindən manatla alınan kreditlərə təminat verilməsi Qaydası”nın 5.2.1-ci yarımbəndində “Elektron hökumət” portalında olan” sözləri “Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilən” sözləri ilə əvəz edilsin;

6.2. həmin Fərmanla təsdiq edilmiş “Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunda kredit reytinqi sisteminin və digər risk menecmenti alətlərinin tətbiqi Qaydası”nın 9.1-ci bəndinin birinci abzasında “Elektron hökumət” portalında olan” sözləri “Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilən” sözləri ilə əvəz edilsin;

6.3. həmin Fərmanla təsdiq edilmiş “Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi Qaydası”nın 5.1-ci bəndinin birinci abzasında “Elektron hökumət” portalında olan” sözləri “Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilən” sözləri ilə əvəz edilsin.

**7.** “Övladlığagötürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2550 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) 4-cü hissəsində “Elektron Hökumət İnformasiya Sistemi, elektron xidmətlər göstərilməsinin isə “Elektron hökumət” portalı” sözləri “və elektron xidmətlər göstərilməsinin Elektron Hökumət İnformasiya Sistemi” sözləri ilə əvəz edilsin.

**8.** Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 448 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2605 (Cild I); 2024, № 6 (I kitab), maddə 654; 2025, № 1, maddə 21) ilə təsdiq edilmiş “Milli məkan məlumatlarının formalaşdırılması və inteqrasiyası Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 1-ci hissə üzrə:

8.1.1. 1.2.8-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“1.2.8. “Geoportal” – Elektron Hökumət İnformasiya Sisteminin (bundan sonra – EHİS) milli məkan məlumatlarının axtarılmasını, əldə edilməsini və xidmətlərin göstərilməsini təmin edən xidmət kanalı;”;

8.1.2. 1.5-ci bənddə “Elektron hökumət” portalının (bundan sonra – Portal) altsistemi olan Geoportalın” sözləri “Geoportal”ın” sözü ilə əvəz edilsin;

8.2. 3-cü hissə üzrə:

8.2.1. 3.1-ci bənddə “Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya və Portal” sözləri “EHİS” sözü ilə əvəz edilsin;

8.2.2. 3.4-cü bənddə “Elektron Hökumət İnformasiya Sisteminə” sözləri “EHİS-ə” sözü ilə əvəz edilsin;

8.2.3. 3.5-ci bəndin birinci və ikinci (hər iki halda) cümlələrində, 3.6-cı bənddə, 3.7-ci bəndin birinci və ikinci cümlələrində və 3.14-cü bənddə ismin müvafiq hallarında “Portal” sözü ismin müvafiq hallarında “EHİS” sözü ilə əvəz edilsin;

8.3. 4-cü hissə üzrə:

8.3.1. 4.1-ci bəndin birinci, ikinci cümlələrində və 4.2-ci bənddə ismin müvafiq hallarında “Elektron Hökumət informasiya sistemi” sözləri ismin müvafiq hallarında “EHİS” sözü ilə əvəz edilsin;

8.3.2. 4.3-cü bənddə, 4.4-cü bəndin ikinci cümləsində və 4.5-ci bəndin birinci cümləsində ismin müvafiq hallarında “Portal” sözü ismin müvafiq hallarında “EHİS” sözü ilə əvəz edilsin.

**9** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 6 may tarixli 681 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 833 (Cild I) ilə təsdiq edilmiş “Dövlətə məxsus olan hüquqi şəxsin Apellyasiya Şurası haqqında Nümunəvi Əsasnamə”nin 4.6.10-cu yarımbəndində və 6.10-cu bəndində “Elektron hökumət” portalındakı” sözləri “Elektron Hökumət İnformasiya Sisteminə inteqrasiya edilən” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2025-ci il**

# Elektron Hökumət İnformasiya Sisteminin fəaliyyətinin təmin edilməsi və mərkəzi, yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər büdcə təşkilatlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Elektron Hökumət İnformasiya Sistemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana və "Dövlət informasiya ehtiyatlarının və sistemlərinin Nümunəvi Əsasnaməsi"nin təsdiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 199 nömrəli Fərmanına uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Elektron Hökumət İnformasiya Sisteminin (bundan sonra – EHİS) və onun altsistemlərinin aparılması, saxlanılması və təkmilləşdirilməsi, habelə bu Fərmanın 3.2-ci və 5.2-ci bəndlərində nəzərdə tutulmuş işlərin həyata keçirilməsi ilə əlaqədar xərclərin cari ildə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait çərçivəsində maliyyələşdirilməsi, növbəti illərdə isə dövlət büdcəsi layihələrində müvafiq vəsaitin nəzərdə tutulması üçün tədbirlər görsün;

2.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra – Nazirlik):

3.1. EHİS-in fəaliyyətinin təmin edilməsi ilə bağlı:

3.1.1. EHİS-in aparılması, fəaliyyətinin təşkili və inkişafı üçün zəruri tədbirlər görsün;

3.1.2. EHİS-in Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na uyğun olaraq "Hökumət buludu"nda yerləşdirilməsi, aparılması və təkmilləşdirilməsi, habelə "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə və fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestrinə daxil edilməsi üçün tədbirlər görsün;

3.1.3. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə, bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" 2021-ci il 17 aprel tarixli 1315 nömrəli və "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli fərmanlarının tələblərindən irəli gələn tədbirlərin həyata keçirilməsini təmin etsin;

3.2. elektron xidmətlər göstərilməsinin təşkili və göstərilməsi ilə bağlı:

3.2.1. elektron xidmətlərin təşkili, göstərilməsi və təkmilləşdirilməsi məqsədilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin (o cümlədən Azərbaycan Respublikası Mərkəzi Bankının) və digər büdcə təşkilatlarının (bundan sonra – qurumlar), eləcə də elektron imza xidmətindən istifadə üçün müraciət edən digər hüquqi və fiziki şəxslərin elektron imza vasitələri ilə təmin olunması işini təşkil etsin;

3.2.2. qurumların elektron xidmətlər göstərməsində istifadə edilən dövlət informasiya ehtiyatları və sistemləri arasında informasiya mübadiləsinin EHİS vasitəsilə aparılmasının təmin edilməsi məqsədilə zəruri tədbirləri həyata keçirsin;

3.2.3. qurumların elektron xidmətlərindən EHİS vasitəsilə "bir pəncərə" prinsipi əsasında istifadəni təmin etsin;

3.2.4. qurumlar tərəfindən elektron xidmətlər göstərilməsinin nəticəsi olaraq verilən sənədlərin EHİS vasitəsilə identikləşdirilməsi mexanizmini, eləcə də həmin mexanizmin təhlükəsizliyini təmin etsin;

3.2.5. elektron xidmətlərin təşkili, göstərilməsi və təkmilləşdirilməsi üçün qurumlara metodiki dəstəyi təmin etsin;

3.2.6. dövlət qulluqçularının və hərbi qulluqçuların informasiya texnologiyalarından istifadə və kibertəhlükəsizlik sahəsində hazırlıq səviyyələrinin artırılması məqsədilə tədris kurslarının təşkili istiqamətində zəruri tədbirləri həyata keçirsin;

3.2.7. bu Fərmanın 3.2.1–3.2.6-cı yarımbəndlərində və 5.2-ci bəndində nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**4.** Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi Dövlət Xidmətlərinin Elektron Reyestrindən aşağıdakı məlumatların EHİS vasitəsilə "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə ötürülməsini və həmin məlumatların aktuallığını təmin etsin:

4.1. elektron xidmətin adı, həmin xidmətin göstərilməsi üçün tələb olunan sənədlərin dəqiq siyahısı, habelə elektron xidmətin göstərilməsindən imtina halları, ödənişli və ya ödənişsiz əsaslarla həyata keçirilməsi, ödənişin məbləği, hüquqi əsası və ödənilmə üsulları barədə məlumatların;

4.2. dövlət xidmətinin inzibati reqlamentində müəyyən edilən və xidmətin elektron formada göstərilməsi ilə bağlı olan digər məlumatların.

**5.** Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə və digər büdcə təşkilatlarına tapşırılsın və Azərbaycan Respublikasının Mərkəzi Bankına tövsiyə edilsin ki:

5.1. EHİS-in fəaliyyətinin təmin edilməsi ilə bağlı:

5.1.1. sahibi və (və ya) operatoru olduqları dövlət informasiya ehtiyatlarının və sistemlərinin istifadəçilərinin identikləşdirilməsi prosesinin sadələşdirilməsi (asanlaşdırılması) məqsədilə həmin informasiya ehtiyatlarında və sistemlərində "Vahid Giriş" altsistemini tətbiq etsinlər;

5.1.2. "Açıq məlumatlar" portalının fəaliyyətinin təmin edilməsi məqsədilə Nazirliklə birlikdə sahibi olduqları (formalaşdırdıqları) açıq məlumatların EHİS vasitəsilə "Açıq məlumatlar" portalına ötürülməsini, bu mümkün olmadığı halda daxil edilməsini və həmin məlumatların mütəmadi olaraq yenilənməsini təmin etsinlər.

5.2. elektron xidmətlər göstərilməsinin təşkili ilə bağlı aşağıdakı tədbirləri həyata keçirsinlər:

5.2.1. fəaliyyət istiqamətlərinə uyğun olaraq elektron xidmətlər göstərilməsi üçün rəsmi internet informasiya ehtiyatlarında xüsusi elektron xidmət bölməsinin yaradılmasını və həmin bölmədə EHİS-ə keçidin verilməsini;

5.2.2. elektron xidmətlərin "bir pəncərə" prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini;

5.2.3. elektron xidmət bölməsində "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə keçid verilməsini, eləcə də bu bölmədən maneəsiz və sərbəst istifadənin təmin edilməsini;

5.2.4. elektron xidmət bölməsinə müraciət edən şəxslər tərəfindən müvafiq sənədlərin (ərizə, blank və sair) elektron formasının interaktiv qaydada doldurulmasını, elektron informasiya ehtiyatlarına (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) daxil edilməyən sənədlərin skan edilmiş surətlərinin, elektron sənədlərin və məlumatların elektron formada qəbul edilməsini (bu Fərmanın 5.2.5-ci yarımbəndi nəzərə alınmaqla), bu barədə şəxsə təsdiq bildirişinin göndərilməsini və həmin sənədlərə normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada və müddətdə baxılmanın, eləcə də elektron xidmətlərin fasiləsiz göstərilməsinin təmin olunmasını;

5.2.5. dövlət xidmətləri, o cümlədən elektron xidmətlər göstərilməsini tənzimləyən normativ hüquqi aktlarla ərizəyə əlavə edilməli olan sənədlərin və məlumatların EHİS vasitəsilə müvafiq dövlət orqanından (qurumundan) əldə edilməsini, yalnız bu mümkün olmadığı hallarda onların təqdim edilməsinin müraciət edənin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunmasını və ya müraciət edən tərəfindən təmin olunmasını;

5.2.6. göstərilən elektron xidmətlərə görə normativ hüquqi aktlarda nəzərdə tutulmuş rüsumların və digər ödənişlərin real vaxt rejimində elektron formada ödənilməsinin (ödəniş xidməti təchizatçıları vasitəsilə) təmin edilməsini, eləcə də elektron xidmət bölməsi vasitəsilə aparılan əməliyyatların və fərdi məlumatların təhlükəsizliyini təmin etmək məqsədilə zəruri texniki təhlükəsizlik tədbirlərinin görülməsini;

5.2.7. elektron xidmətlər göstərilməsində istifadə olunan dövlət informasiya ehtiyatlarında və sistemlərində saxlanılan məlumatların tamlığının, aktuallığının, mötəbərliyinin və təhlükəsizliyinin təmin edilməsini;

5.2.8. elektron xidmətlər göstərilməsinin gedişatı barədə şəxsə EHİS-də yaradılan şəxsi kabinet, elektron poçt və ya telefon (mobil və stasionar) vasitəsilə məlumat almaq imkanının yaradılması üçün tədbirlər görülməsini və nəticənin ona təqdim olunmasını;

5.2.9. elektron xidmətlər göstərilməsinin nəticəsi olaraq elektron sənədin və ya identikləşdirməyə imkan verən rekvizitlərə malik digər sənədin verilməsini (elektron xidmət göstərilməsinin nəticəsi olaraq sənədlərin və məlumatların verildiyi hallarda);

5.2.10. bu Fərmanın 5.2.1–5.2.9-cu yarımbəndlərində nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məlumat verilməsini.

**6.** Bələdiyyələrə tövsiyə edilsin ki, bu Fərmanın 5.1.1-ci və 5.1.2-ci yarımbəndlərində nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsini təmin etsinlər.

**7.** "Dövlət orqanlarının və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 380 (Cild I) 2–5-ci hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2025-ci il**

---

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Elektron Hökumət İnformasiya Sistemi haqqında əsasnamə

### 1. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Elektron Hökumət İnformasiya Sisteminin (bundan sonra – EHİS) fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

1.2. EHİS bu Əsasnamənin 3.1-ci bəndində qeyd edilən altsistemləri vasitəsilə rəqəmsal texnologiyalardan, o cümlədən informasiya-kommunikasiya texnologiyalarından istifadə yolu ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və digər büdcə təşkilatlarının, həmçinin bələdiyyələrin (bundan sonra – qurumlar) fəaliyyətinin, onların bir-biri ilə və digər fiziki və hüquqi şəxslərlə əlaqələrinin operativliyini, səmərəliliyini və şəffaflığını, habelə elektron xidmətlərin "bir pəncərə prinsipi" əsasında göstərilməsini, səmərəli və operativ sənəd (məlumat) mübadiləsini və açıq informasiyaya çıxış imkanını, eləcə də elektron xidmətlərin, EHİS-də saxlanılan məlumatların sistemliliyini və əlçatanlığını təmin edir.

1.3. EHİS-in formalaşdırılmasının məqsədi rəqəmsal inkişaf və "elektron hökumət" sahələrində fəaliyyətin təşkilindən, dövlət idarəetməsinin optimallaşdırılmasından, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsindən, eləcə də müvafiq sahələr üzrə təhlil aparılmasından, proqnoz və hesabatlar hazırlanmasından və onlar əsasında müvafiq sahələr üzrə dövlət tənzimləməsinin, nəzarət və əlaqələndirmənin təmin edilməsindən ibarətdir.

1.4. EHİS-in və bu Əsasnamənin 3.1-ci bəndində qeyd edilən altsistemlərin sahibi funksiyalarını Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra – Nazirlik), operatoru funksiyalarını "Vahid Kommunal Xidmətlər" altsisteminə münasibətdə Azərbaycan Respublikasının Energetika Nazirliyi, EHİS və bu Əsasnamənin 3.1.2–3.1.8-ci yarımbəndlərində qeyd edilən digər altsistemlərə münasibətdə isə Nazirliyin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (bundan sonra birlikdə – operator) həyata keçirirlər.

1.5. EHİS-də yaradılan, qurumlardan əldə edilən, toplanılan informasiya və elektron sənədlər Azərbaycan Respublikasının mülkiyyətidir.

1.6. Fərdi məlumatların EHİS-də toplanılmasının və işlənilməsinin məqsədi bu Əsasnamənin 1.2-ci bəndində qeyd olunanları təmin etməkdir. Fərdi məlumatların EHİS-də toplanılması, işlənilməsi və mühafizəsi "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarına uyğun olaraq həyata keçirilir.

1.7. EHİS-in fəaliyyətinin təşkili, idarə olunması və təkmilləşdirilməsi ilə bağlı xərclər dövlət büdcəsi və qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.8. EHİS Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın (bundan sonra – Qaydalar) 2.1-ci bəndində qeyd edilən prinsiplər əsasında formalaşdırılır və fəaliyyət göstərir.

1.9. Bu Əsasnamə əldə edilməsi məhdudlaşdırılmış informasiyanı ehtiva edən informasiya ehtiyatlarına və sistemlərinə, habelə kritik informasiya infrastrukturu obyektlərinə həmin sahələri tənzimləyən normativ hüquqi aktlara uyğun olaraq tətbiq edilir.

1.10. Bu Əsasnamədə istifadə olunan anlayışlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda, Qaydalarda, həmçinin Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarında müəyyən edilmiş mənaları ifadə edir.

### 2. EHİS-in texniki-texnoloji infrastrukturu

2.1. EHİS-in texniki-texnoloji infrastrukturu aşağıdakı əsas komponentlərdən ibarətdir:

2.1.1. proqram-texniki vasitələr və proqram təminatı;

2.1.2. telekommunikasiya qurğuları və kanalları;

2.1.3. informasiya ehtiyatı və onu idarəetmə paneli;

2.1.4. ehtiyat nüsxələr;

2.1.5. istismaraqədərki formalaşma mühitləri.

2.2. Proqram-texniki vasitələr və proqram təminatı vətəndaş və biznes yönümlü həllər əsasında "Mobil Prioritetli Tərtibat" prinsipi ilə qurularaq, EHİS-in funksiyalarının həyata keçirilməsini, fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, habelə EHİS-dən istifadəni və məlumat mübadiləsini təmin edir.

2.3. EHİS fəaliyyətinin etibarlılığını və təhlükəsizliyini, operativ və keyfiyyətli xidmətlər göstərilməsini, habelə məlumat mübadiləsini təmin edən dayanıqlı, mühafizəli, yüksəkötürücülü fiber-optik əsas və digər ehtiyat telekommunikasiya qurğularına və kanallarına malikdir.

2.4. Qurulma topologiyasına uyğun olaraq EHİS-in telekommunikasiya qurğuları və kanalları iki səviyyədə təşkil edilir:

2.4.1. EHİS-in fəaliyyətinin təşkili üçün müvafiq qurumdaxili telekommunikasiya qurğuları və kanalları – Nazirliyin struktur bölmələri tərəfindən;

2.4.2. EHİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə qarşılıqlı fəaliyyətinin təşkili üçün istifadə edilən telekommunikasiya qurğuları və kanalları –Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (bundan sonra – XRİTDX) tərəfindən.

2.5. EHİS-də formalaşdırılan, EHİS-ə daxil edilən və ötürülən məlumatlar EHİS-in informasiya ehtiyatında saxlanılır.

2.6. İdarəetmə paneli EHİS-in informasiya ehtiyatının formalaşdırılmasını və idarə edilməsini, o cümlədən həmin informasiya ehtiyatından istifadəni təmin edir.

2.7. Fəaliyyətinin dayanıqlılığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə EHİS, o cümlədən EHİS-də toplanılan məlumatların ehtiyat nüsxələri "Hökumət buludu"nda saxlanılır.

2.8. EHİS-də aparılan dəyişikliklərin yoxlanılması istismaraqədərki formalaşma mühitlərində həyata keçirilir.

### 3. EHİS-in altsistemləri

3.1. EHİS aşağıdakı altsistemlərdən ibarətdir:

3.1.1. "Vahid Kommunal Xidmətlər" altsistemi;

3.1.2. "Rəqəmsal Razılıq" altsistemi;

3.1.3. "Rəqəmsal İcra Hakimiyyəti" altsistemi;

3.1.4. "Yerli icra hakimiyyəti orqanları başçılarının qeyri-normativ hüquqi aktlarının reyestri" altsistemi;

3.1.5. "Rəqəmsal Sənəd Dövriyyəsi" altsistemi;

3.1.6. "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri" altsistemi;

3.1.7. "Rəqəmsal Məlumat Mübadiləsi" altsistemi;

3.1.8. "Vahid Giriş" altsistemi.

3.2. "Vahid Kommunal Xidmətlər" altsistemi kommunal sahədə idarəetmənin təmin edilməsi üçün zəruri olan məlumatların toplanılmasını və emalını, monitorinq və analitik təhlillər aparılmasını, proqnozların hazırlanmasını və qeyd edilən sahədə mərkəzləşdirilmiş elektron xidmətlərin göstərilməsini təmin edir.

3.3. İstifadəçilər kommunal xidmətlərə dair hesablanmış borclardan "Vahid Kommunal Xidmətlər" altsistemində yaradılan elektron kabinetləri vasitəsilə müvafiq olaraq şikayət verə bilərlər. Şikayətlər aidiyyəti iştirakçıların informasiya sistemlərinə göndərilir və onlara qanunla müəyyən edilmiş qaydada baxılır. Şikayətlərə baxılmanın nəticəsi barədə qərarlar iştirakçıların rəhbərləri və ya onların həvalə etdiyi vəzifəli şəxslərin təkmil sertifikatlı gücləndirilmiş elektron imzaları ilə təsdiq edilərək elektron qaydada EHİS vasitəsilə "Vahid Kommunal Xidmətlər" altsisteminə göndərilir və altsistem tərəfindən istifadəçilərin elektron kabinetlərində yerləşdirilir (yerləşdirilmə vaxtı göstərilməklə).

3.4. "Rəqəmsal Razılıq" altsistemi aşağıdakıları təmin edir:

3.4.1. rəqəmsal texnologiyalardan istifadə etməklə xidmətlər göstərən sahibkarlıq subyektləri tərəfindən göstərdikləri xidmətlər çərçivəsində fərdi məlumatların sorğulanması zamanı şəxslərin onlara məxsus olan fərdi məlumatların toplanılmasına və işlənilməsinə razılıqlarının idarə edilməsini;

3.4.2. bu Əsasnamənin 4.3-cü bəndində nəzərdə tutulan məlumatların mərkəzləşdirilmiş qaydada və elektron formada bu Əsasnamənin 3.4.1-ci yarımbəndində qeyd edilən sahibkarlıq subyektlərinə ötürülməsini.

3.5. Bu Əsasnamənin 3.4.1-ci yarımbəndində qeyd edilən sahibkarlıq subyektləri bu Əsasnamənin 4.3-cü bəndində nəzərdə tutulan fərdi məlumatları, həmin məlumatların məxsus olduğu şəxslərin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada razılığını aldıqdan sonra EHİS vasitəsilə "Rəqəmsal Razılıq" altsisteminə göndərdikləri sorğu əsasında, eləcə də razılıqda qeyd olunmuş müddət ərzində əldə edirlər. Həmin məlumatlar onları əldə edən sahibkarlıq subyektləri tərəfindən, normativ hüquqi aktlarla müəyyən edilən hallar istisna olmaqla, üçüncü tərəfə (tərəflərə) ötürülə bilməz.

3.6. Sorğuların göndərilməsi və cavablandırılması bu Əsasnamənin 3.4.1-ci yarımbəndində qeyd edilən sahibkarlıq subyektlərinin informasiya sistemlərinin EHİS-ə inteqrasiyası vasitəsilə həyata keçirilir.

3.7. Bu Əsasnamənin 3.5-ci bəndində qeyd edilən razılıq alınmadıqda "Rəqəmsal Razılıq" altsisteminin sahibi tərəfindən sorğunun icrasından imtina edilir.

3.8. Bu Əsasnamənin 3.4.1-ci yarımbəndində qeyd edilən sahibkarlıq subyektləri tərəfindən bu Əsasnamənin 4.3-cü bəndində nəzərdə tutulan məlumatların əldə edilməsi ilə bağlı ödənişlərin məbləği "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikası Qanununun 26.3-cü və 26.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla, onlarla "Rəqəmsal Razılıq" altsisteminin sahibinin və informasiyanın ilkin mənbəyini formalaşdıran müvafiq iştirakçının qarşılıqlı razılığı əsasında müəyyən edilir.

**(ardı 6-cı səhifədə)**

# Elektron Hökumət İnformasiya Sistemi haqqında əsasnamə

**(əvvəli 8-ci səhifədə)**

3.9. “Rəqəmsal İcra Hakimiyyəti” altsistemi yerli icra hakimiyyəti orqanları tərəfindən elektron xidmətlər göstərilməsini, həmçinin qəyyumluq və himayəçilik orqanlarının (himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək – valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə istisna olmaqla) razılığı (icazəsi) ilə əlaqədar həmin orqanların qərarlarının toplanılmasını, emal edilməsini və ötürülməsini təmin edir.

3.10. “Yerli icra hakimiyyəti orqanları başçılarının qeyri-normativ hüquqi aktlarının reyestri” altsistemi yerli icra hakimiyyəti orqanları başçılarının qəbul etdikləri qeyri-normativ hüquqi aktlara dair məlumatların toplanılmasını, emal edilməsini və ötürülməsini təmin edir.

3.11. “Rəqəmsal Sənəd Dövriyyəsi” altsistemi dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemləri arasında real vaxt rejimində və təhlükəsiz qaydada sənəd mübadiləsinin aparılması ilə bağlı inteqrasiyanın və sənədlərin hərəkəti üzrə uçotun həyata keçirilməsini təmin edir.

3.12. “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri” altsistemi dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestrinin aparılmasını təmin edir.

3.13. “Rəqəmsal Məlumat Mübadiləsi” altsistemi dövlət informasiya ehtiyatlarının və sistemlərinin əlaqələndirilməsini, o cümlədən onlar arasında təhlükəsiz məlumat mübadiləsinin aparılmasını təmin edir.

3.14. “Vahid Giriş” altsistemi dövlət informasiya ehtiyatlarından və sistemlərindən istifadə zamanı istifadəçilərin təkmil sertifikatlı gücləndirilmiş elektron imza və digər elektron eyniləşdirmə vasitələri ilə vahid formada identikləşdirilməsini, habelə qeyd olunan informasiya ehtiyatlarına və sistemlərinə birdəfəlik girişi təmin edir.

3.15. EHİS-in və altsistemlərinin fəaliyyətinin təmin edilməsi məqsədilə informasiyanın ilkin mənbəyini formalaşdıran aidiyyəti iştirakçılar bu Əsasnamənin 4.1–4.4-cü bəndlərində nəzərdə tutulan məlumatları, habelə bu Əsasnamənin 3.1-ci bəndində qeyd edilən altsistemlərin funksionallığının təmin olunması məqsədilə sahib tərəfindən normativ hüquqi aktlara uyğun olaraq tələb edilən məlumatları (sənədləri), habelə həmin məlumatlarda (sənədlərdə) dəyişiklik olduqda yenilənmiş məlumatları (sənədləri) real vaxt rejimində EHİS-ə ötürürlər, bu mümkün olmadığı halda, müvafiq altsistemlərə elektron kabinetləri vasitəsilə daxil edirlər.

3.16. İstifadəçilərin elektron kabinetlərində özləri barədə olan məlumatlarda etdikləri dəyişikliklər EHİS tərəfindən real vaxt rejimində informasiyanın ilkin mənbəyini formalaşdıran müvafiq iştirakçılara göndərilir.

**4. EHİS-ə daxil edilən və ötürülən məlumatlar**

4.1. Kommunal sahədə xidmətlər göstərən qurumlar fəaliyyətlərinin təmin edilməsi məqsədilə aşağıdakı məlumatları (sənədləri) real vaxt rejimində EHİS vasitəsilə “Vahid Kommunal Xidmətlər” altsistemindən əldə edirlər:

4.1.1. fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər üzrə məlumatları;

4.1.2. fiziki şəxslərin məcburi köçkün statusuna malik olması barədə məlumatları;

4.1.3. hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumatları (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla);

4.1.4. hüquqi və fiziki şəxslərin daşınmaz əmlakı (torpaq sahələri, tikili və qurğular) barədə məlumatları;

4.1.5. kommunal xidmətlərə dair hesablanmış borclardan verilmiş şikayətlər barədə məlumatları (şikayətlər üzrə iş materiallarını (ərizələri).

4.2. “Vahid Kommunal Xidmətlər” altsisteminin fəaliyyətinin təmin edilməsi məqsədilə kommunal sahədə xidmətlər göstərən qurumlar EHİS vasitəsilə aşağıdakı məlumatları (sənədləri) real vaxt rejimində altsistemə göndərirlər:

4.2.1. kommunal xidmətlərin abunəçiləri barədə məlumatları;

4.2.2. quraşdırılmış sayğaclar barədə məlumatları;

4.2.3. quraşdırılmış sayğaclar üzrə göstəricilər və bu göstəricilərə uyğun olaraq yaranmış borclar, sayğac olmadığı halda isə kommunal sahələrdə xidmətlər göstərən qurumlar tərəfindən hesablanmış borclar barədə məlumatları;

4.2.4. kommunal xidmətlərə dair hesablanmış borclardan sistemdənkənar verilmiş şikayətlər barədə məlumatları (şikayətlər üzrə iş materiallarını (ərizələri), şikayətlərə baxılmanın nəticəsi barədə qərarları (o cümlədən məhkəmə qərarlarını);

4.2.5. iştirakçıların və “Vahid Kommunal Xidmətlər” altsisteminin operatorunun həmin altsistemin fəaliyyəti ilə bağlı zəruri hesab etdiyi digər məlumatları.

4.3. Bu Əsasnamənin 3.4.1-ci yarımbəndində qeyd edilən sahibkarlıq subyektləri fəaliyyətlərinin təmin olunması üçün “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əməl etməklə aşağıdakı məlumatları real vaxt rejimində “Rəqəmsal Razılıq” altsistemi vasitəsilə EHİS üzərindən ilkin mənbədən əldə edirlər:

4.3.1. fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər üzrə məlumatları;

4.3.2. fiziki şəxslərin məhkumluğu barədə məlumatları;

4.3.3. fərdi sahibkarların vergi orqanları tərəfindən qəbul olunmuş sonuncu gəlir vergisi və ya sadələşdirilmiş vergi bəyannamələri, eləcə də fərdi sahibkar olmayan digər fiziki şəxslərin iş yerləri və aylıq gəlirləri (vergiyə və digər icbari ödənişlərə cəlb olunmamış) barədə məlumatları;

4.3.4. fiziki şəxslərin ailə üzvləri barədə məlumatları;

4.3.5. fiziki şəxslərin hərbi bileti üzrə məlumatları;

4.3.6. vətəndaşlıq vəziyyəti aktları barədə məlumatları;

4.3.7. bələdiyyələrin son bir il üzrə gəlirləri (yerli büdcə üzrə), hüquqi şəxslərin vergi orqanları tərəfindən qəbul olunmuş sonuncu mənfəət vergisi və ya sadələşdirilmiş vergi bəyannamələri barədə məlumatları;

4.3.8. bələdiyyələrin, hüquqi və fiziki şəxslərin daşınmaz əmlakları, habelə rəsmi reyestrlərdə qeydiyyata alınmış daşınar əmlakları barədə məlumatları;

4.3.9. qurumların ünvanları barədə məlumatları;

4.3.10. hüquqi şəxslərin dövlət reyestrinə daxil edilən məlumatları (kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları) və onların nizamnamə kapitalındakı payları barədə məlumatlar istisna olmaqla);

4.3.11. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin VÖEN-ini;

4.3.12. hüquqi və fiziki şəxslər tərəfindən alınmış lisenziyalar və icazələr barədə məlumatları;

4.3.13. qurumların və fiziki şəxslərin notariuslar vasitəsilə verdikləri etibarnamələr üzrə məlumatları;

4.3.14. maliyyə sanksiyasının tətbiqi haqqında qərarlar, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarlar (o cümlədən elektron qərarlar), habelə məhkəmə qərarları, həmin qərarların icra müddəti və müddətin bitməsi barədə məlumatları;

4.3.15. hüquqi və fiziki şəxslərin bələdiyyələrə yaranmış yerli vergi və ödəniş öhdəlikləri barədə məlumatları;

4.3.16. sahibin bu Əsasnamənin 3.4.1-ci yarımbəndində qeyd edilən sahibkarlıq subyektlərinin fəaliyyətlərinin təmin olunması üçün zəruri hesab etdiyi digər məlumatları.

4.4. “Rəqəmsal Razılıq” altsisteminin fəaliyyətinin təmin edilməsi məqsədilə informasiyanın ilkin mənbəyini formalaşdıran iştirakçılar aşağıdakı məlumatları real vaxt rejimində altsistemə göndərirlər:

4.4.1. xeyrinə ödəniş aparılacaq fiziki şəxslərin və qurumların bank və xəzinədarlıq hesabları;

4.4.2. maliyyə sanksiyasının və inzibati cərimənin ödənilmədiyi təqdirdə Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş qaydada görülmüş tədbirlər barədə məlumatları.

4.5. “Yerli icra hakimiyyəti orqanları başçılarının qeyri-normativ hüquqi aktlarının reyestri” və “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri” altsistemlərinə daxil edilən, eləcə də “Geoportal”a ötürülən məlumatların dairəsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

4.6. “Açıq məlumatlar” portalına “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Məlumat azadlığı haqqında”, “İnformasiya əldə etmək haqqında” və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının qanunlarına əsasən əldə olunması, işlənilməsi, verilməsi və ya istifadəsi məhdudlaşdırılmayan məlumatlar ötürülür, bu mümkün olmadığı halda daxil edilir.

4.7. “Rəqəmsal İcra Hakimiyyəti” altsisteminə qəyyumluq və himayəçilik orqanlarının (himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək – valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə istisna olmaqla) razılığı (icazəsi) ilə əlaqədar həmin orqanların qərarları ötürülür, bu mümkün olmadığı halda daxil edilir.

4.8. EHİS-in digər dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası, habelə məlumat mübadiləsinin təşkili Qaydalara uyğun olaraq həyata keçirilir.

4.9. EHİS ilə digər dövlət informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsini real vaxt rejimində həyata keçirmək mümkün olmadıqda, sənədlər (məlumatlar) EHİS-ə aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.

4.10. EHİS-də formalaşdırılan sənədlər “Elektron imza və elektron sənəd haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş tələblərə uyğun olaraq tərtib olunur və rəsmiləşdirilir.

**5. EHİS-dən istifadə qaydası**

5.1. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olan qurumların EHİS-dən istifadəsi onların informasiya ehtiyatları və sistemləri Qaydaların 4-cü hissəsinə və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq EHİS-ə inteqrasiya edildikdən sonra məlumat mübadiləsinin həyata keçirilməsi yolu ilə təmin edilir.

5.2. Dövlət informasiya ehtiyatlarına və sistemlərinə malik olmayan qurumların və digər hüquqi şəxslərin EHİS-dən (“Açıq məlumatlar” portalı, həmçinin “Rəqəmsal Məlumat Mübadiləsi”, “Vahid Giriş” və “Rəqəmsal Sənəd Dövriyyəsi” altsistemləri istisna olmaqla) istifadəsi onların elektron kabinetləri vasitəsilə təmin edilir. Bu halda qurumların və digər hüquqi şəxslərin rəhbər şəxsləri tərəfindən EHİS-də qeydiyyatdan keçirilən və müvafiq hüquqlar verilən məsul şəxslər “Vahid Giriş” altsistemi vasitəsilə identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərə daxil olaraq EHİS-dən istifadə edirlər.

5.3. Fiziki şəxslər “Vahid Giriş” altsistemi vasitəsilə EHİS-də (“Açıq məlumatlar” portalı, həmçinin “Rəqəmsal Məlumat Mübadiləsi”, “Vahid Giriş” və “Rəqəmsal Sənəd Dövriyyəsi” altsistemləri istisna olmaqla) identikləşdirildikdən sonra avtomatik qaydada yaradılan elektron kabinetlərinə daxil olaraq EHİS-dən istifadə edirlər.

5.4. EHİS vasitəsilə göstərilən elektron xidmətlərdən istifadə “bir pəncərə prinsipi” əsasında rəsmi internet informasiya ehtiyatı vasitəsilə aşağıda qeyd edilən xidmət kanalları üzərindən, ödəniş edilməsi isə elektron kabinetdə ödəniş xidməti təchizatçıları vasitəsilə həyata keçirilir:

5.4.1. “Mygov” portalı qurumların elektron xidmətlərinin göstərilməsini, habelə bütün növ dövlət xidmətləri və vətəndaş müraciətləri nəticəsində təqdim edilən sənədlərin (məlumatların) mərkəzləşdirilmiş qaydada təqdim olunmasını və onlardan istifadəni, vətəndaş müraciətlərinin və informasiya sorğularının mərkəzləşdirilmiş qaydada təqdim edilməsini və cavablandırılmasını, müraciətlərin icra statusunun izlənilməsini, eləcə də şəxslərin icraatla bağlı, o cümlədən onlara göstərilən xidmətlərdə, onlara dair məlumatlarda (sənədlərdə) baş verən dəyişikliklər (yeniliklər) barədə məlumatlandırılmasını, habelə fərdi məlumatlarının sorğulanmasına dair razılığın verilməsini və idarə olunmasını təmin edir;

5.4.2. “Mygov Biznes” portalı sahibkarlıq subyektlərinin dövlət qurumlarına (orqanlarına) müraciətinin elektron təşkilini, sahibkarlıq fəaliyyəti üçün zəruri olan bütün məlumatların mərkəzləşdirilmiş qaydada əldə edilməsini, eləcə də sahibkarlıq subyekti barəsində məlumatın işlənilməsinə razılığın idarə olunmasını, sahibkarlıq subyektlərinə elektron xidmətlər göstərilməsini, habelə dövlət xidmətləri göstərilməsində istifadə edilən müvafiq dövlət informasiya ehtiyatlarının və sistemlərinin (satınalma, lisenziya və icazələr, vergi, logistika, poçt sahələri prioritet olmaqla) təkmilləşdirilməsini, o cümlədən sahibkarı təmsilçilik səlahiyyətinin idarə edilməsinin təşkilini təmin edir;

5.4.3. “Açıq məlumatlar” portalı əldə olunması, işlənilməsi, verilməsi və ya istifadəsi qanunla məhdudlaşdırılmayan və ümumi istifadə üçün təyin olunmuş məlumatların (açıq məlumatların) toplanılmasını, saxlanılmasını, emalını və istifadəsini təmin edir;

5.4.4. “Geoportal” milli məkan məlumatlarının axtarılması, əldə edilməsi və milli məkan məlumatları üzrə xidmətlərin göstərilməsini təmin edir.

5.5. Kommersiya və qeyri-kommersiya hüquqi şəxslərinin, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin xidmətləri “Mygov” və “Mygov Biznes” portalları vasitəsilə təqdim oluna bilər.

5.6. EHİS vasitəsilə təqdim edilən xidmət kanalları (portal, mobil tətbiq, virtual köməkçi və digər) bu Əsasnamənin 5.4-cü bəndində qeyd edilənlərlə yanaşı, istifadəçilərin EHİS-in fəaliyyətində iştirakını və ondan istifadəsini təmin edirlər. Elektron xidmətlər istifadəçi təcrübəsi və istifadəçi yönümlülüyü nəzərə alınmaqla, xidmət kanalları vasitəsilə təqdim edilir.

**6. Sahibin vəzifələri və hüquqları**

6.1. EHİS-in fəaliyyətini təmin etmək üçün sahibin vəzifələri aşağıdakılardır:

6.1.1. EHİS-in idarə olunmasını təşkil etmək, təkmilləşdirilməsi və funksional imkanlarının artırılması istiqamətində tədbirlər görmək;

6.1.2. EHİS-in “Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri”nə, o cümlədən “Fərdi məlumatların informasiya sistemlərinin dövlət reyestri”nə daxil edilməsi və dövlət qeydiyyatından keçirilməsi üçün tədbirlər görmək;

6.1.3. EHİS-in, həmçinin fərdi məlumatların EHİS-də toplanılmasının, işlənilməsinin və mühafizəsinin fərdi məlumatlar sahəsində Azərbaycan Respublikasının normativ hüquqi aktların tələblərinə uyğunluğunun təmin edilməsi üçün tədbirlər görmək;

6.1.4. EHİS-in informasiya təhlükəsizliyini Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra – DTX), XRİTDX ilə və operatorla birlikdə təmin etmək;

6.1.5. EHİS-in informasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə və XRİTDX-yə təqdim etmək, habelə həmin dövlət orqanları tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

6.1.6. EHİS-ə daxil edilmiş və (və ya) ötürülmüş məlumatların mühafizəsinin, habelə daxil edilmiş məlumatların aktuallığının, etibarlılığının, təhrifolunmazlığının, əlçatanlığının, tamlığının və konfidensiallığının təmin edilməsi ilə bağlı tədbirlər görmək;

6.1.7. EHİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

6.1.8. EHİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin “Hökumət buludu”nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün operatorla birlikdə tədbirlər görmək;

6.1.9. ölkə üzrə bütün elektron xidmətlərin “bir pəncərə” prinsipi əsasında EHİS vasitəsilə göstərilməsini təmin etmək;

6.1.10. EHİS-də yaradılan elektron imkanlar vasitəsilə istifadəçilərin tələbi əsasında onlar barəsində məlumatlarda aparılan düzəlişləri təsdiq və ya rədd etmək;

6.1.11. EHİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

6.1.12. aidiyyəti qurumların EHİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

6.1.13. ölkə üzrə dövlət xidmətlərinin göstərilməsi üçün tələb edilən məlumatlar (sənədlər) digər dövlət informasiya ehtiyatlarında və sistemlərində olduqda, həmin məlumatların (sənədlərin) ilkin mənbədən əldə edilməsi üçün operatorla birlikdə tədbirlər görmək;

6.1.14. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) EHİS-ə daxil etmək;

6.1.15. EHİS-dən sərbəst və maneəsiz istifadənin, habelə onun dayanıqlı və fasiləsiz fəaliyyətinin təmin olunmasına nəzarət etmək;

6.1.16. EHİS-də dəyişikliklər edilməsi üçün operatora göstərişlər vermək və onların həyata keçirilməsinə nəzarət etmək;

6.1.17. EHİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərinin layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparılmasına nəzarət etmək;

6.1.18. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

6.2. EHİS-in fəaliyyətini təmin etmək üçün sahibin aşağıdakı hüquqları vardır:

6.2.1. EHİS-in formalaşdırılması, istifadəsi və inkişaf etdirilməsi ilə bağlı beynəlxalq təcrübəni və standartları öyrənmək, bu sahədə beynəlxalq təşkilatlarla, habelə Azərbaycan Respublikasının və xarici dövlətlərin aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək;

6.2.2. EHİS-dən istifadə və onun funksiyaları ilə bağlı maarifləndirmə və məlumatlandırma işləri aparmaq;

6.2.3. EHİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğular vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

6.2.4. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7. Operatorun vəzifələri və hüquqları**

7.1. Operatorun vəzifələri aşağıdakılardır:

7.1.1. EHİS-in informasiya təhlükəsizliyini DTX, XRİTDX və sahiblə birlikdə təmin etmək;

7.1.2. EHİS-in informasiya təhlükəsizliyini təmin etmək məqsədilə mövcud və yarana biləcək təhlükələr və ya baş vermiş təhlükəsizlik insidentləri aşkar edildikdə, bu barədə məlumatları dərhal DTX-yə və XRİTDX-yə təqdim etmək, habelə həmin dövlət orqanları tərəfindən bu barədə sorğular verildikdə həmin sorğuları dərhal, bu mümkün olmadıqda isə 24 saatdan gec olmayaraq cavablandırmaq;

7.1.3. EHİS-ə qarşı müdaxilə cəhdləri aşkar etdikdə, bu barədə məlumatları dərhal aidiyyəti hüquq mühafizə orqanına təqdim etmək;

7.1.4. EHİS-in, o cümlədən onun ehtiyat nüsxələrinin “Hökumət buludu”nda saxlanılmasının və aparılmasının təmin edilməsi üçün sahiblə birlikdə tədbirlər görmək;

7.1.5. EHİS-in təhlükəsizliyi pozulduqda, fəaliyyətində nasazlıq yarandıqda, əsas avadanlığında hər hansı qəza (xəta) baş verdiyi halda dərhal aidiyyəti dövlət orqanlarını və sahibi məlumatlandırmaq, nasazlığın və qəzanın (xətanın) qeydiyyatını aparmaq, dərhal aradan qaldırılması üçün sahibin verdiyi göstərişlərə uyğun təcili tədbirlər görmək, bu mümkün olmadıqda isə EHİS-in “Hökumət buludu”nun ehtiyat Data Mərkəzində fəaliyyətini davam etdirməsi üçün sahiblə birlikdə zəruri tədbirlər görmək;

7.1.6. EHİS-in fəaliyyətinin idarə olunması, təkmilləşdirilməsi və onun funksional imkanlarının artırılması istiqamətində sahiblə razılaşdırmaqla, texniki tədbirlər görmək və bu barədə EHİS-in fəaliyyətində iştirak edən aidiyyəti dövlət qurumlarını məlumatlandırmaq;

7.1.7. EHİS-dən sərbəst və maneəsiz istifadəni, onun dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə EHİS-in proqram kompleksinə nəzarəti həyata keçirmək və mütəmadi texniki baxışı təşkil etmək;

7.1.8. normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqlarının həyata keçirilməsi və vəzifələrinin icrası zamanı əldə etdiyi zəruri məlumatları (sənədləri) EHİS-ə daxil etmək;

7.1.9. EHİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

7.1.10. EHİS-in komponentlərinin və proqram təminatının təyinatı üzrə istismarını, texniki xidmətini, təmirini və yenilənməsini təmin etmək, təkmilləşdirilməsi üzrə profilaktik iş aparmaq;

7.1.11. sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdiyi təkliflər əsasında EHİS-də dəyişikliklər edilməsi üçün tədbirlər görmək;

7.1.12. sahibin göstərişi ilə normativ hüquqi aktlarda edilən dəyişikliklərə əsasən proqram təminatında uyğunlaşdırmalar aparılmasını, eləcə də yeni proqram modullarının yazılmasını və sınaqlar keçirilməsini təmin etmək;

7.1.13. EHİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və ya arxivləşdirilməsi ilə bağlı sənədləri və texniki məlumatları sahibə təqdim etmək;

7.1.14. EHİS-in formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi işlərini layihələrə, texniki reqlamentlərə, beynəlxalq standartlara və normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə uyğun formada aparmaq;

7.1.15. EHİS-dən istifadəni, habelə onun üzərindən göstərilən elektron xidmətlərin əlçatanlığını təmin etmək üçün formalaşdırılan mobil tətbiqi elektron marketlərdə yerləşdirmək (mobil tətbiq olduğu halda);

7.1.16. aidiyyəti qurumların EHİS-in fəaliyyəti ilə bağlı sorğularını vaxtında və hərtərəfli cavablandırmaq, habelə qeyd edilən sorğular əsasında zəruri məlumatları (sənədləri) onlara təqdim etmək;

7.1.17. normativ hüquqi aktlarla müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

7.2. Operatorun aşağıdakı hüquqları vardır:

7.2.1. EHİS-in fəaliyyətinin təmin olunması ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün aidiyyəti qurumlara sorğu vermək və həmin qurumlardan belə məlumatları (sənədləri) almaq;

7.2.2. EHİS-in təkmilləşdirilməsi istiqamətində rəy və təkliflər vermək;

7.2.3. EHİS ilə məlumat mübadiləsində iştirak edəcək digər informasiya ehtiyatları və sistemləri müəyyən edilmiş texniki və funksional tələblərə cavab vermədiyi hallarda onlarda zəruri dəyişikliklər edilməsi məqsədilə məsələ qaldırmaq;

7.2.4. EHİS-in parametrlərində sahiblə razılaşdırmaqla dəyişiklik etmək və bütün mümkün parametrlər üzrə hesabatlar əldə etmək;

7.2.5. iştirakçılar və istifadəçilər EHİS-in təhlükəsiz və effektiv fəaliyyətinin pozulmasına səbəb olan əməllərə yol verdikdə, EHİS-ə giriş imkanını sahiblə razılaşdırmaqla ləğv etmək və ya məhdudlaşdırmaq;

7.2.6. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**8. İştirakçıların vəzifələri və hüquqları**

8.1. İştirakçıların vəzifələri aşağıdakılardır:

8.1.1. EHİS-ə çıxışı olan, habelə onun aparılmasında iştirak edən əməkdaşlarını təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təmin etmək;

8.1.2. EHİS-ə daxil olmağa imkan verən elektron imza vasitələrinin konfidensiallığını (məxfiliyini) təmin etmək;

8.1.3. aktual, tam və etibarlı məlumatları (sənədləri) vaxtında və dolğun şəkildə EHİS-ə daxil etmək (ötürmək);

8.1.4. məlumatların mühafizəsini təmin edən avadanlıq və proqram vasitələrinə müdaxilə etməmək;

8.1.5. EHİS-dən, habelə EHİS-də olan məlumatlardan (sənədlərdən) yalnız xidməti məqsədlər üçün istifadə etmək;

8.1.6. EHİS-də saxlanılan məlumatlarda (sənədlərdə) aşkar edilmiş səhvlərin aradan qaldırılması məqsədilə dərhal sahibə və ya operatora məlumat vermək;

8.1.7. sahibin və operatorun EHİS-ə daxil etdiyi və iştirakçının bilavasitə fəaliyyəti ilə bağlı olan yeni məlumatları izləmək;

8.1.8. EHİS-in fəaliyyətinə zərər gətirəcək, habelə onun fəaliyyətinin ləngiməsinə və ya dayanmasına səbəb ola biləcək hərəkətlərə yol verməmək;

8.1.9. sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarının və sistemlərinin dayanıqlı və fasiləsiz fəaliyyətini təmin etmək;

8.1.10. məlumat mübadiləsi zamanı aşkar olunmuş çatışmazlıqların və yaranan nasazlıqların aradan qaldırılması ilə bağlı tədbirlər görmək, bu barədə sahibə məlumat vermək;

8.1.11. öz təşəbbüsləri, habelə sahibin bu Əsasnamə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq verdiyi təkliflər əsasında sahibi və ya operatoru olduğu dövlət informasiya ehtiyatlarında və sistemlərində zəruri dəyişikliklər etmək;

8.1.12. dövlət informasiya ehtiyatlarını və sistemlərini, habelə elektron xidmətlərini EHİS-ə inteqrasiya etmək, digər dövlət informasiya ehtiyatı və sistemi ilə məlumat mübadiləsini EHİS vasitəsilə həyata keçirmək, habelə elektron xidmətlərin göstərilməsini EHİS vasitəsilə, onun xidmət kanalları üzərindən həyata keçirmək.

8.2. İştirakçıların aşağıdakı hüquqları vardır:

8.2.1. EHİS-in fəaliyyəti ilə bağlı zəruri məlumatları (sənədləri) əldə etmək üçün sahibə və ya operatora sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

8.2.2. EHİS-in təkmilləşdirilməsi istiqamətində sahibə və ya operatora təkliflər vermək.

**9. İstifadəçilərin hüquqları**

9.1. İstifadəçilərin EHİS-dən istifadə ilə bağlı aşağıdakı hüquqları vardır:

9.1.1. EHİS-dəki açıq məlumatlarla tanış olmaq və onları əldə etmək;

9.1.2. qanunla müəyyən edilmiş hallar istisna olmaqla, özləri barəsində məlumatlarla tanış olmaq, onları əldə etmək və ya dəqiqləşdirilməsi üçün sahib və ya operatora müraciət etmək;

9.1.3. elektron kabinetləri üzərindən müraciətlərini göndərmək, elektron xidmətlərdən istifadə etmək və ödənişləri həyata keçirmək;

9.1.4. sahiblə, operatorla, iştirakçılarla və digər istifadəçilərlə qarşılıqlı əlaqəni və sənəd (məlumat) mübadiləsini elektron qaydada həyata keçirmək;

9.1.5. EHİS-in fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək;

9.1.6. EHİS-dən istifadə ilə bağlı hüquqlarının pozulmasından inzibati qaydada və (və ya) məhkəməyə şikayət etmək;

9.1.7. normativ hüquqi aktlarla müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

# Sülhün yolu Ermənistan konstitusiyasından keçir

(əvvəli 1-ci səhifədə)

Sualın cavabı Prezident İlham Əliyevin Vaşinqtonda verdiyi müsahibədə aydınlıq qazanır: Sülhün hüquqi və siyasi zəmini Ermənistanın konstitusiyasında olan Azərbaycan ərazilərinə dair ərazi iddialarının aradan qaldırılması ilə birbaşa bağlıdır. Bu isə o deməkdir ki, hətta diplomatik danışıqların, beynəlxalq vasitəçilərin iştirakı ilə əldə olunan razılaşmalar belə konstitusional əsaslarda ziddiyyət olduğu halda tam olaraq reallaşa bilmir.

"Konstitusiya" termini hər bir müasir dövlətdə ən ali hüquqi sənəd kimi xüsusi əhəmiyyətə malikdir. Konstitusiya dövlətin suverenliyinin, ərazi bütövlüyünün, hakimiyyətin strukturunun və vətəndaşların hüquq və vəzifələrinin əsas prinsiplərini müəyyən edir. Konstitusiyanın ərazi bütövlüyü barədə müddəaları isə təkcə daxili hüquq sisteminin deyil, həm də beynəlxalq hüquq qarşısında həmin dövlətin mövqeyinin əsasıdır.

Ermənistan konstitusiyasında Azərbaycanın beynəlxalq səviyyədə tanınmış suveren ərazilərinə dair iddiaların yer alması bir çox aspektdən olduqca ciddi nəticələrə malikdir. Müddəalar sadəcə daxili hüquqi norma deyil, eyni zamanda Ermənistanın siyasi iradəsinin və dövlət siyasətinin rəmzi olaraq beynəlxalq hüquq arenasında əks olunmasıdır.

Hüquqi baxımdan bu vəziyyət Azərbaycan tərəfi üçün fundamental problem yaradır. Beynəlxalq hüquqda dövlətlərin ərazi bütövlüyü əsas prinsip kimi qəbul edilir və bu prinsipə hörmət edilməlidir. Lakin Ermənistan konstitusiyasındakı ərazi iddiaları bu prinsipi sarsıdır və münaqişənin hüquqi tənzimlənməsində ciddi çətinliklər yaradır. Yəni, bunlar sülh sazişinin imzalanması və həyata keçirilməsi üçün əsas hüquqi zəminin möhkəmlənməsinə maneə olur. Başqa sözlə, belə konstitusional müddəaların mövcudluğu sülhün hüquqi legitimliyini sual altına qoyur. Beynəlxalq hüquq sisteminin ən fundamental prinsiplərindən biri də dövlətlərin ərazi bütövlüyünə hörmətdir. Bu prinsip dövlətlərin suverenliyinin və müstəqilliyinin təməl daşıdır və BMT Nizamnaməsində, Helsinki Yekun Aktında və digər əsas beynəlxalq sənədlərdə təsbit olunub. Hər bir dövlətin beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığı həm hüquqi, həm də siyasi sahədə prioritet təşkil edir.

Azərbaycan üçün bu prinsip xüsusi əhəmiyyət kəsb edir, çünki ölkənin beynəlxalq səviyyədə tanınmış sərhədləri Ermənistan tərəfindən birbaşa sınaqdan keçirilib və 1990-cı illərdən başlayaraq bu sərhədlərin müəyyən hissələri işğal altında saxlanılıb. Ermənistanın konstitusiyasında Azərbaycanın bu ərazilərinə dair ərazi iddialarının əks olunması isə bu hüquqi əsasları bir daha sarsıdır. Bu amil təkcə Azərbaycanın suveren hüquqlarının pozulması kimi deyil, həm də beynəlxalq hüququn pozulması kimi qiymətləndirilməlidir.

Bundan əlavə, bu konstitusional müddəalar beynəlxalq hüquq qarşısında Azərbaycanın ərazi bütövlüyünün təhrif olunmasına səbəb olur. Ermənistanın əsas qanununda Azərbaycanın ərazilərinə dair iddialar həmin sənədin hüquqi statusuna görə, beynəlxalq arenada müəyyən qədər hüquqi çəkisi olan mövqedir.

Sülh sazişi imzalanarkən tərəflər arasındakı razılıq həm daxili hüquqi sənədlərdə, həm də beynəlxalq müqavilələrdə öz əksini tapmalıdır. Ermənistan konstitusiyasında ərazi iddialarının saxlanması həmin daxili hüquqi bazanı sarsıdır və beynəlxalq müqavilələrin məzmunu ilə ziddiyyət təşkil edir. Nəticədə, bu konstitusional müddəalar yalnız hüquqi deyil, həm də siyasi və diplomatik böhran yaradır. Ona görə də, Ermənistanın əsas qanunundakı bu müddəaların dəyişdirilməsi, yəni Azərbaycanın ərazi bütövlüyünün tam hüquqi tanınması sülhün hüquqi legitimliyinin bərpası və davamlı sülhün təminatı üçün zəruri şərtdir.

Siyasi aspektdən Ermənistanın konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddiaların qalması ölkənin siyasi elitasının və ictimaiyyətinin müəyyən hissəsinin münaqişəni necə qəbul etdiyi, hansı mövqedən çıxış etdiyini əks etdirir. Konstitusiyada məlum iddiaların saxlanması sadəcə hüquqi bir məsələ deyil – bu, həm də Ermənistanın daxili və xarici siyasətində hansı istiqamət götürdüyünün əksidir.

Amma burada daha dərindən düşünülməli sual budur: Bu iddiaların qalması Ermənistanın siyasi elitasının və cəmiyyətinin münaqişəyə baxışını, həmçinin sülhə və kompromisə hazır olub-olmamasını necə təsvir edir? Və nə üçün bu mövqeyi dəyişməkdə çətinlik çəkir?

Siyasi analiz göstərir ki, Ermənistanın daxili siyasi mühitində münaqişə ətrafında formalaşan daşnak-millətçi, şovinist duyğuları hələ də güclüdür. Azərbaycanın ərazi bütövlüyünə qarşı olan iddialar konstitusiyada yer almaqla həm siyasi elitanın, həm də cəmiyyətin müəyyən qruplarının bu mövqeyi legitimləşdirməsinə xidmət edir. Sülhə gedən yolun belə bir konstitusional blokadaya malik olması siyasi cəsarət və risk tələb edir ki, bu da daxili siyasi balansı pozmaq qorxusunu artırır.

Ermənistan üçün bu, həm də bir sınaqdır: sülh istəyən siyasi qüvvələr və kompromisə açıq olan cəmiyyət təbəqəsi ilə münaqişənin davamını seçən, milli mövqedən çəkilməyə hazır olmayan qruplar arasında gərgin mübarizə gedir. Əslində, bu proses yalnız hüquqi dəyişiklik deyil, həm də Ermənistanın siyasi sistemində, ictimai şüurunda sülhə və gələcəyə baxışın transformasiyasıdır.

Xarici siyasət kontekstində də bu məsələnin böyük əhəmiyyəti var. Ermənistanın beynəlxalq münasibətlərində, xüsusən də bölgədə və dünya səviyyəsində sülh təşəbbüslərinə yanaşmasında konstitusiyadakı bu iddialar Ermənistanın mövqeyinin sərtliyini və kompromisə hazır olmamasını göstərir. Bütün bu amillər beynəlxalq tərəfdaşlar və vasitəçilərlə münasibətlərin inkişafına maneə olur, Ermənistanın diplomatik imkanlarını məhdudlaşdırır. Bundan əlavə, bu müddəaların beynəlxalq səviyyədə mövcudluğu Ermənistana əlavə siyasi təzyiq və reputasiya riski gətirir. Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və ona hörmət edir. Ermənistan konstitusiyasında buna zidd müddəaların saxlanması onun beynəlxalq imicinə zərbə vurur, həmçinin sülh prosesinə mənfi təsir göstərir. Beynəlxalq səviyyədə isə proses daha da mürəkkəbləşir. ABŞ və digər beynəlxalq aktorlar bu məsələdə Ermənistana həm təzyiq göstərir, həm də dəstək olur. Vaşinqtonda imzalanan ilkin sənədlər Ermənistanın konstitusiyada dəyişiklik etməyə razılıq verdiyini göstərir ki, bu da dünya ictimaiyyətinin qəbul etdiyi öhdəlikdir. Bütün bunlar həm də Ermənistana əlavə siyasi və diplomatik yük qoyur, çünki bu razılaşma Ermənistanın beynəlxalq nüfuzunun və etibarlılığının göstəricisidir.

Beləliklə, Ermənistan üçün konstitusiyaya dəyişiklik, sadəcə, daxili məsələ kimi yox, həm də beynəlxalq öhdəlik kimi dəyərləndirilir. Öhdəliyə əməl edilməsi həm daxili siyasi konsolidasiyanın, həm də beynəlxalq münasibətlərdə etibarın bərpasının açarıdır. Yəni, bu prosesi düzgün idarə etmək Ermənistanın gələcəkdə regional və qlobal siyasətdə mövqeyini gücləndirə bilər.

Bu baxımdan sual ortaya çıxır: Ermənistan siyasi elitası və cəmiyyəti münaqişənin həllinə real sülh istəyir, yoxsa mövcud status-kvonu qorumaqla daxili siyasi sabitliyi saxlamağa çalışır? Bu sualın cavabı Ermənistanın gələcək sülh prosesində tutacağı mövqenin göstəricisidir.

Nəticə etibarilə, Ermənistan konstitusiyasındakı ərazi iddialarının mövcudluğu həm hüquqi, həm də siyasi baxımdan sülh prosesinin ən ciddi maneələrindən biridir. Müddəaların aradan qaldırılması, yəni konstitusional islahatların həyata keçirilməsi Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar olması üçün zəruri və qaçılmaz şərtdir. Əks halda, sülh razılaşmasının hüquqi, siyasi və praktiki təməlləri zəif qalacaq və davamlı həll əldə etmək mümkün olmayacaq.





Qeyd etməliyik ki, Ermənistan konstitusiyasında Azərbaycan ərazilərinə dair iddiaların qalması yalnız hüquqi problem deyil, həm də siyasi iradənin, daxili siyasi mübarizənin və cəmiyyətin sülhə hazır olmamasının simvoludur. Blokadanın aradan qaldırılması üçün yalnız qanuni addımlar deyil, həm də dərin siyasi transformasiya, dialoq və kompromisə hazır olan geniş ictimai dəstək tələb olunur. Əks təqdirdə, sülh prosesində irəliləyişin əldə olunması hələ uzun müddət mümkün olmayacaq. Prezident İlham Əliyevin açıq və qətiyyətli mesajı da məhz bunu təsdiqləyir: Ermənistan tərəfi öz "ev tapşırığını" — yəni konstitusiyadakı ərazi iddialarının ləğvini — vaxtında və tam şəkildə yerinə yetirməlidir.

Yekunda sualın cavabı sadədir: Qarabağda davamlı və real sülhün təminatı Ermənistan konstitusiyasının arxasındadır və onun əldə olunması ərazi iddialarının ləğvi ilə başlayır. Siyasi iradə nümayiş etdirilmədən, bütün diplomatik səylər, razılaşmalar yalnız formal xarakter daşıyacaq və sülh kağız üzərində qalacaq. Odur ki, hüquqi blokadaya son qoymaq sülhün real və davamlı olması üçün əsas şərtdir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Rusiya həmişə Ermənistanı münaqişəyə yönəldib

(əvvəli 1-ci səhifədə)

Əslində, bu məqalənin əsasını ölkəmizin müstəqilliyini bərpa etdikdən sonra rastlaşdığımız problemlərin kökünün Rusiya ilə bağlı olması təşkil etməli idi. Amma iş əsnasında gördük ki, Rusiyanın Azərbaycana etdiyi pisliklərin, bədxahlıqların kökünün daha əvvəllərə gedib çıxdığını xatırlatmasaq məqaləmiz dolğun alınmayacaq. Odur ki, bu bədxahlıqların 300 il bundan əvvələ gedib çıxdığını qeyd etməliyik. Tarixdən yaxşı məlumdur ki, birinci ümumrusiya imperatoru I Pyotr Rusiyanın Zaqafqaziyada və Yaxın Şərqdə mövqelərini möhkəmləndirmək məqsədilə 1722-ci ilin yayında Xəzəryanı bölgələrə hərbi yürüş edib. Tarixə Rus–Səfəvi müharibəsi (1722–1723) kimi düşən hərbi əməliyyat rusların qələbəsi ilə başa çatıb. Peterburq müqaviləsinə əsasən, Dərbənd, Bakı, Rəşt şəhərləri, Şirvan, Gilan, Mazandaran və Astrabad əyalətləri Rusiyaya verilib. Bu ərazilər 1732-ci il Rəşt və 1735-ci il Gəncə müqavilələri ilə Səfəvi imperiyasına qaytarılıb. Ancaq Rusiya güclənən, özünə gələn kimi yenidən strateji bölgə olan Cənubi Qafqaza hərbi yürüşlərə başlayıb. 1804–1813-cü illər Birinci Rus–İran müharibəsi, 1826–1828-ci illəri əhatə edən İkinci Rus–İran müharibəsi Azərbaycan torpaqlarının bölüşdürülməsi uğrunda aparılıb. Nəticədə Azərbaycan xanlıqları işğal olunub. Bəzi xanlar, məsələn Gəncə xanı Cavad xan şəhərin işğalı zamanı qətlə yetirilib. O dövrün ən böyük cinayətlərindən biri də İbrahimxəlil xanın qətli idi. 1805-ci ildə Kürəkçay müqaviləsindən bir qədər sonra erməni tərəfi çar Rusiyasının nümayəndələrini inandıra bildi ki, Qarabağ xanı İbrahimxəlil xan, guya, Rusiyaya xəyanət edib. O, Kürəkçay müqaviləsinə riayət etmək istəmir və rus mayoru Dmitri Tixonoviç Lisaneviçin iştirakı və əmri ilə 1806-cı ilin yayında İbrahimxəlil xan başda olmaqla onun ailə üzvləri rus əsgərləri tərəfindən güllələnərək edilib.

1836-cı ildə ermənilərə İrəvan xanlığının ərazisində Erməni vilayəti yaradan da Rusiya olub. Zəngəzur ərazisini ermənilərə vermək, böyük türk dünyasının coğrafi bağlılığını kəsmək də Rusiyanın adı ilə bağlıdır. 1923-cü ildə Qarabağın dağlıq hissəsində ermənilər üçün muxtar vilayət yaratmaq "gecpartlayan mina" idi. Kreml hələ 1960–70-ci illərdə həmin "mina"nı işə sala bilərdi. Lakin belə bir addımın atılması, yəni erməni və Azərbaycan xalqları arasında etnik zəmində qarşıdurma yaratmaq mərkəzin özünün maraqlarına cavab vermirdi. Bu bir faktdır ki, Qarabağda etnik separatizmi alovlandıran Rusiya olub. Kreml erməni separatçılarına hərtərəfli dəstək verib. Xüsusilə, silah dəstəyi Azərbaycan torpaqlarının işğalında əsas rol rol oynayıb. Sovet ordusunun keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətindəki hərbi hissələri qanlı olaylarda mühüm qol oynayıblar.



*

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qarşılaşdığı ən böyük təhlükə, şübhəsiz ki, postsovet məkanında nüfuzunu itirmək istəməyən Rusiyanın siyasi, hərbi və ideoloji təsirindən qaynaqlanıb. 1991-ci ilin oktyabrında müstəqilliyimizi elan etsək də, əslində, Moskvanın bölgədə qurduğu sistem hələ də fəaliyyətini davam etdirirdi. Sovet İttifaqının dağılması ərəfəsində və ondan sonrakı ilk illərdə baş verən faciələr, xüsusilə 20 Yanvar hadisəsi, Qarabağ münaqişəsinin dərinləşməsi, Xocalı soyqırımı və torpaqlarımızın işğalı məhz Rusiyanın geosiyasi maraqları ilə sıx bağlı idi.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda baş verən qırğın Moskvanın Azərbaycan xalqının azadlıq iradəsini qırmaq cəhdi idi. SSRİ rəhbərliyi həmin dövrdə Bakıda, guya, ictimai asayişi bərpa etmək adı altında hərbi əməliyyat həyata keçirdi. Əslində, isə məqsəd, milli azadlıq hərəkatını boğmaq, xalqı qorxu altında saxlamaq idi. Rəsmi məlumata görə 147 nəfər qətlə yetirilib, yüzlərlə insan yaralanıb. Bu hadisə həm də sonrakı illərdə Rusiyanın bölgədəki siyasətinə bir nümunə oldu. Yəni Moskva öz təsir dairəsini qorumaq üçün hər cür zorakılığa əl atmağa hazır idi.

Sovet İttifaqının son illərində Qarabağda etnik zəmində gərginliyin yaranması təsadüfi deyildi. Moskva imperiya nəzarətini qorumaq üçün milli ziddiyyətlərdən alət kimi istifadə edirdi. SSRİ rəhbərliyi 1988-ci ildə Ermənistanın separatçı dairələrinin Qarabağı Azərbaycandan qoparmaq cəhdlərinə əngəl olmaq əvəzinə, prosesləri idarə olunan xaosa çevirdi. Ermənilərin kütləvi mitinqlərinə, azərbaycanlılara qarşı zorakılıq hallarına göz yumuldu, hətta bəzi hallarda dəstək verildi. Rusiya rəhbərliyinin məqsədi iki qonşu xalq arasında barışmaz düşmənçilik yaratmaq idi ki, münaqişə dərinləşdikcə Moskva, necə deyərlər, arbit rolunu oynaya bilsin.

1990-cı illərin əvvəlində Qarabağda erməni silahlı dəstələri faktiki olaraq Moskvanın hərbi-siyasi himayəsi altında idi. Xocalı soyqırımının baş verdiyi dövrdə artıq SSRİ mövcud deyildi. İmperiya öz varlığına 1991-ci ilin dekabrın 26-da son qoymuşdu. Rusiya onun varisi idi. Onun bütün hüquq və öhdəlikləri Rusiya Federasiyasının tabeliyinə keçmişdi. O cümlədən silahlı qüvvələri. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən Xocalı soyqırımı 366-cı motoatıcı alayın birbaşa iştirakı ilə törədilib. Mənfur 366-cı alayın Xankəndidə yerləşdirilməsi və onun Xocalı soyqırımındakı iştirakı Kremlin münaqişədə bitərəf olmadığını açıq şəkildə göstərdi. Bir gecədə 613 dinc sakinin qətlə yetirilməsi, qadınların, uşaqların və yaşlıların amansızcasına öldürülməsi təkcə erməni silahlılarının deyil, həm də 366-cı alayın iştirakı ilə həyata keçirilməsi təsdiqləyir ki, Rusiya Ermənistanın hərbi əməliyyatlarına birbaşa dəstək verib. Xocalı faciəsi həm də Moskvanın bölgədə etnik münaqişələri alovlandırmaqla öz təsirini möhkəmləndirmə taktikasının tərkib hissəsi idi.

Rusiya münaqişənin qızışmasını təmin etməklə həm Azərbaycanı, həm də Ermənistanı özündən asılı vəziyyətdə saxladı. Bu siyasət onillərlə davam etdi. Moskva hər iki tərəfə müxtəlif mesajlar verərək real sülh prosesini əngəllədi. Qarabağda etnik ədavətin dərinləşdirilməsi, əslində, Rusiyanın Cənubi Qafqazda hegemon mövqeyini qorumaq üçün ən mühüm vasitələrdən biri idi. 1994-cü ildə atəşkəs imzalandıqdan sonra da Rusiya Qarabağ məsələsinin həllini istəmirdi. Əksinə, münaqişənin dondurulmuş vəziyyətdə qalması Moskvanın maraqlarına uyğun idi. Bu yolla həm Ermənistanı özündən asılı vəziyyətdə saxlayır, həm də Azərbaycana qarşı siyasi təzyiq vasitəsi əldə edirdi. Hər iki ölkənin iqtisadi, enerji və təhlükəsizlik məsələlərində Rusiyaya möhtac olması Kremlin bölgədə hegemon rolunu qorumasına xidmət edirdi. Bu mənada torpaqlarımızın 30 ilə yaxın işğal altında qalması həm də Moskvanın geosiyasi strategiyasının nəticəsi idi.

1990-cı illərin sonlarından etibarən Rusiya ilə Ermənistan arasında imzalanan hərbi əməkdaşlıq sazişləri nəticəsində İrəvan KTMT çərçivəsində müttəfiq statusu qazandı. Ermənistanın Gümrü şəhərində yerləşən 102-ci Rusiya hərbi bazası isə faktiki olaraq Azərbaycana daim təzyiq elementi kimi istifadə edildi. Bu bazadan və Rusiyanın verdiyi müasir silahlardan istifadə edərək Ermənistan işğal etdiyi ərazilərdə hərbi infrastruktur qurdu. Bütün bu faktlar göstərir ki, Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra qarşılaşdığı ən ağır problemlərin kökündə məhz Rusiyanın bölgədəki imperialist maraqları dayanıb. Moskva həm birbaşa hərbi-siyasi müdaxilələrlə, həm də Ermənistanı himayə etməklə ölkəmizin təhlükəsizliyinə və ərazi bütövlüyünə uzun illər ciddi zərbə vurub.

*Səxavət HƏMİD*
*XQ*

## Ekspert rəyi



**İlyas HÜSEYNOV,**
**politoloq**

– Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qarşılaşdığı strateji təhlükələrin əksəriyyəti Rusiyanın bölgədəki siyasəti ilə birbaşa bağlı olub. 20 Yanvar faciəsi, Qarabağ münaqişəsinin alovlanması, Xocalı soyqırımı və torpaqlarımızın işğalı Kremlin həm sovet dövründə, həm də sonrakı mərhələdə Cənubi Qafqazda təsirini qoruma planının nəticəsi idi. Rusiya Ermənistanı hərbi-siyasi cəhətdən dəstəkləyərək, onu müasir silahlarla təchiz etməklə yanaşı, münaqişəni dondurulmuş vəziyyətdə saxladı ki, həm Bakı, həm də İrəvan üzərində təsir imkanlarını itirməsin. Nəticədə 30 ilə yaxın davam edən işğal status-kvosu Moskvanın geosiyasi aləti rolunu oynadı. Bu tarixi təcrübə göstərir ki, Azərbaycanın təhlükəsizliyinin təmin etmək üçün müstəqil siyasət, balanslı diplomatiya və güclü hərbi potensial əsas şərtlərdir.

## XİN məlumat verir




**Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Ermənistan Respublikasının xarici işlər naziri Ararat Mirzoyan arasında telefon danışığı aparılıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, nazirlər telefon danışığında Vaşinqton Zirvə görüşü zamanı imzalanmış Birgə Bəyannamənin icrasını, eləcə də etimad quruculuğu tədbirlərini müzakirə ediblər.

Nazirlər regional məsələlər ətrafında fikir mübadiləsi aparıb və birbaşa dialoqun davam etdirilməsinə hazır olduqlarını bir daha təsdiqləyiblər.

*

**Ölkəmizin Fransadakı səfirliyi Azərbaycan vətəndaşları Məhəmməd Quliyev və Gültac Abdullayevanın üzləşdikləri vəziyyətlə bağlı məlumat yayıb.**



Məlumatda bildirilir: “Azərbaycan Respublikasının vətəndaşları Məhəmməd Quliyev və Gültac Abdullayevanın iki övladı ilə birlikdə yaşadıqları Almaniya ərazisini tərk edərək, Fransa vasitəsilə Azərbaycana gedərkən üzləşdikləri vəziyyət barədə məlumat səfirliyə daxil olan gündən konsulluq bölməsinin əməkdaşları məsələ ilə məşğul olurlar.

Qeyd edilir ki, iyulun 7-də səfirliyin qaynar xəttinə edilmiş müraciət əsasında, Azərbaycan vətəndaşları Məhəmməd Quliyev və Gültac Abdullayevanın iki övladı üçün səfirlik tərəfindən qayıdış şəhadətnaməsi rəsmiləşdirilib. Avqustun 6-da Fransa ərazisini tərk etmək istəyən ailə bu ölkənin sərhəd polisi tərəfindən saxlanılıb və övladları müvəqqəti sığınacağa yerləşdirilib.

Fransa polisinin bu addımı Almaniya məhkəməsinin uşaqların qəyyumluğunun valideynlərdən alınması qərarı ilə əsaslandırılıb.

Hazırda Fransada yerli hakim tərəfindən məsələyə baxılması və Almaniya məhkəməsinin qərarı ilə bağlı müəyyən nəticəyə gəlinməsi gözlənilir. Bu müddət ərzində valideynlər uşaqlar ilə görüş imkanı əldə ediblər.

Azərbaycanın Parisdəki səfirliyi məsələ ilə bağlı Fransa tərəfinin müvafiq qurumları ilə görüşlər keçirir və müvafiq əlaqələndirməni təmin edir. Səfirlik və Azərbaycan Respublikasının Diaspor ilə İş üzrə Dövlət Komitəsi vətəndaşların Fransa ərazisində müvəqqəti qalması məsələsində onlara yardım göstərir.

Məsələ səfirliyin nəzarətindədir”.

***XQ***

# Düşmənçilik yetmədimi?

**(əvvəli 1-ci səhifədə)**

Prezident İlham Əliyev iyulun 19-da Xankəndidə “Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü zamanı bildirmişdi ki, “Cənubi Qafqaz sabitlik məkanı olacaq. Bizə sabitlik, təhlükəsizlik lazımdır. Çünki Cənubi Qafqaz əsrlər boyu qan tökülməsi, toqquşma, işğal məkanı olmuşdur və Qafqaz xalqları çox əziyyət çəkiblər. Ona görə də kifayətdir, biz artıq sülh şəraitində yaşamalıyıq”.

Prezident İlham Əliyev avqustun 8-də Ağ Evdə Birləşmiş Ştatlar Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanla birgə mətbuata bəyanatında vurğuladı ki, Azərbaycan və Ermənistan Sovet İttifaqının süqutu nəticəsində müstəqillik əldə etdikdən sonra müharibə şəraitində olub: “Biz müharibələrə, işğal dövrünə və qan tökülməsinə uzun illər sərf etdik. Bu gün tarixi gündür, çünki biz sülhü bərqərar edirik. Prezident Tramp Qafqaza sülh gətirir və biz buna görə ona minnətdarıq. Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar. Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik. Mən çox şadam ki, biz bu gün yeni, gözəl tarix yazırıq”.

Baş nazir Paşinyan isə Vaşinqtondakı birgə mətbuat konfransında dedi ki, ABŞ-da Ermənistan-Azərbaycan münasibətlərində mühüm nailiyyət əldə edilib. Ölkələr keçmiş tarixlərindən fərqli olacaq yeni hekayənin təməlini qoyub: “Sülh sazişinin paraflanması ölkələrimiz arasında onilliklərdir davam edən münaqişəyə son qoyulmasına yol açacaq, onlar üçün bir-birinin suverenliyinə və ərazi bütövlüyünə tam hörmətlə yanaşaraq, yeni dövrü başladacaq. Bu gün Prezident Trampın şahidliyi ilə onun da imzaladığı bəyannamə daha çox əminlik və inam yaradır ki, biz Cənubi Qafqazda sülh, rifah, təhlükəsizlik və iqtisadi əməkdaşlıq səhifəsini açırıq”.

Görünür, Rusiyadakıları qəzəbləndirən bu və digər bu kimi sülh bəyanatlarıdır. Axı ölkə həmişə Cənubi Qafqazda “Parçala və hökm sür” siyasəti yeridib, xalqlar arasında düşmənçilik tendensiyası saxlayıb. Rusiya kimi dövlətçilik ənənələri ilə öyünən dövlət ətraf aləmə münasibətdə ortaya heç bir normal yanaşma qoya bilməyib. “Azərbaycana qarşı xüsusi hərbi əməliyyat keçirək”, “Bakıya raket ataq”, “Neft buruqlarına “Oreşnik” tuşlayaq” kimi hazırkı cəfəng və sərsəm fikirlər də həmin yanaşmanın sancılarıdır.

Bəli, əgər əvvəllər müəyyən tərəddüdlərimiz var idisə, bu gün açıq şəkildə deyə bilərik ki, Rusiyada Azərbaycana qarşı düşmənçilik siyasəti yeridilməsinin tərəfdarları ölkənin rəhbərliyini daha qəti tədbirlərə ruhlandırırlar. Onların davranışlarının dövlət siyasətinə də təsir təcrübəsindən xəbərdarıq. Qonşulara münasibətdə aqressiv çağırış nidalarının Ukraynanın timsalında Rusiyanın işğalçılıq müharibəsi üçün təkan olduğundan da həmçinin. Sanki ölkənin ictimai rəyindəki sərsəm təmayüllərlə Kreml arasında konsensus və bağ var. Əslində, həmin təmayüllərin də mərkəzdən hərəkətə gətirildiyinin fərqindəyik. Belə bir durumda ortaya sual çıxır: Azərbaycan Rusiyaya nə edib?

Azərbaycan həmişə Rusiya ilə münasibətlərə sadiq qalıb. Heç zaman anti-Rusiya koalisiyalarında yer almayıb, beynəlxalq platformalardakı Rusiya əleyhinə hərəkətlərdən uzaq durub. Bir sözlə, rəsmi Bakı Moskva ilə təmaslarını üçüncü qüvvələrin təsirindən sığortalayıb. Bəs qarşılığında nə görüb? Ədalətsiz yanaşma, qeyri-bərabər rəftar. Ən sonda isə AZAL-a məxsus sərnişin təyyarəsinin Rusiya səmasında vurulmasını gördük. Daha doğrusu, hava gəmimizin vurulmasından sonrakı ədalətsiz yanaşmanı. Elə qənaət formalaşdı ki, sanki biz Rusiyaya məxsus hava gəmisinə atəş açmışıq, Rusiya bizim təyyarəmizi vurmayıb.

Ölkənin şovinist dairələrinin təmsilçiləri elə danışırlar ki, elə bil, təyyarəmizin vurulmasından sonra sakit qalmalı, vəziyyətlə barışmalı idik. Axı tarix boyu başımıza bu sayaq ədalətsizlikləri gətiriblər. İndi müqavimət görəndə durumu həzm edə, sinirə bilmirlər. Dəhşətdir. Rusiya düzəlmək bilmir...

Azərbaycan bu gün də Rusiyadan təyyarə olayına zəruri hüquqi qiymətin verilməsini, hava gəmimizə atəş açanların məsuliyyətə cəlb olunmalarını, qəza nəticəsində həlak olanların ailələrinə, zərər çəkənlərə kompensasiyanın ödənilməsini, Rusiya tərəfindən AZAL-a vurulmuş ziyanın qarşılanmasını tələb edir və mövqeyində israrlıdır. Qətiyyətimiz haqqa və ədalələtə söykənir. Bunun qarşılığında sərsəm bəyanatların səslənməsi isə yumşaq desək, üzücüdür.

Görəsən, bu sadə tələbi yerinə yetirib, Azərbaycanla normal münasibətlər platformasına qayıtmaq olmazmı? Yəqin olmazmış. Çünki Rusiya qaragüruhu üçün normal münasibət məntiqi təzim etməkdir. Bu qaragüruh dünyada öz ölkəsindən başqalarını görə bilməyəcək qədər kordur. Deyəsən, həmin korluq rəsmi Moskvanın da yanaşmasına təsir göstərir. Bir sözlə, Rusiya rəhbərliyinin pozitiv davranış tərzini görmürük.

Gördüyümüz Yekaterinburqda iki azərbaycanlının Rusiya polisinin xüsusi təyinatlıları tərəfindən qətlə yetirilməsi kimi özbaşınalıqdır. Gördüyümüz bu özbaşınalıqdan sonra ölkədə başlanmış “azərbaycanlı ovu”dur. Bəlkə Rusiyanı bütün azərbaycanlılardan təmizləmək istəyirlər? Yaxşı, tutalım, bunu etdilər, görəsən, ölkədəki digər xalqlar durumdan dərs çıxarmayacaqlarmı? O zaman onlar da Rusiyadan çıxsın, görək nə olacaq? Bu gün ağzını köpükləndirib bəyanat səsləndirənlər qol çırmayıb qeyri-millətlərin yerinə çalışacaqlarmı, onların gördükləri işi görəcəklərmi? Əlbəttə ki, yox. Alnının təri, vicdanı ilə yaşayıb həm də Rusiya büdcəsinə xeyir verən, elə rus insanına da iş yeri qazandıran azərbaycanlılara qarşı həqarətli münasibət varsa, bunun bir adı var - düşmənçilik.

Ukraynada Azərbaycanın enerji infrastrukturuna qəsdən zərbə endirmək də birmənalı olaraq düşmənçilikdir. Məsələ Prezident İlham Əliyevlə Prezident Volodimir Zelenski arasındakı telefon danışığında da müzakirə edildi. Tərəflər Azərbaycanın SOCAR şirkətinə məxsus neft anbarına və ölkəmizə aid digər obyektlərə, həmçinin Azərbaycan qazını Ukraynaya nəql edən qaz kompressor stansiyasına Rusiya tərəfindən məqsədyönlü şəkildə hava zərbələrinin endirilməsini pislədilər. Ən başlıcası isə bunun Azərbaycan ilə Ukrayna arasında energetika sahəsində əməkdaşlığın dayandırılmasına heç bir halda səbəb olmayacağına əminliklərini vurğuladılar.

Hesab edirik ki, xüsusən axırıncı cümlə hər şeyi deyir. Rusiyada kimsə düşünməsin ki, bu sayaq tədbirlərlə Azərbaycana təsir və ya təzyiq göstərmək mümkündür. Eləcə də “miqrant ovu” adı ilə soydaşlarımızın qanunsuz deportasiyası, onlara qarşı qeyri-humanist hərəkətlər heç nəyi dəyişməyəcək. Çünki qayda və prinsiplər var. Rusiyanın kor inadı, mənasız qəzəbi və hikkəni buraxıb həmin qayda və prinsiplərə əməl etməsi, sivil davranması şərtdir.

Dünya dəyişir. Rusiya da dəyişməlidir. Yeri gəlmişkən, Rusiya mediası da özünün anti-Azərbaycan ritorikasına, təhqiramiz tonuna korrektələr etməlidir. Çünki bu ritorika və ton onu son dərəcə miskin və rəzil hala salır. İndiki vəziyyətdə Rusiyanın media cameəsi böyük əksəriyyət etibarilə Azərbaycana dişini qıcayan namərd çaqqal sürüsünə oxşayır. Media isə cəmiyyətin, elə ölkənin də güzgüsüdür. Yaxşı olar ki, Rusiyadakı həmkarlarımız ən azından bu məqamı düşünsünlər, ədalətsizlik alətinə çevrilməsinlər. Əlbəttə, düşünmək hissini itirməyiblərsə.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İmperiya təfəkkürü siyasi təklənməyə aparır

## *Kreml qonşuları ilə münasibətdə sivil yanaşmadan deyil, təhdiddənmi zövq alır?*

**Xeyli müddətdir ki, Rusiyanın bir çox siyasətçiləri, deputatları, Kremlin təşviqatçıları, “ekspertləri” və blogerləri tərəfindən Azərbaycanla bağlı aşkar görünən kobudluqla, hörmətsizliklə müşayiət olunan təxribat xarakterli dezinformasiyalar yayılır, bəyanatlar verilir, hətta ölkəmizə qarşı müharibə çağırışları edilir.**




İş o yerə çatdı ki, Bakıya qarşı Rusiyanın müxtəlif şəhərlərində diaspor nümayəndələrinin həbsi və iki qardaşın öldürülməsindən tutmuş Ukrayna ilə iqtisadi əməkdaşlığa görə qisas almaq məqsədilə Odessa vilayətində qaz nasos stansiyasının, ardınca qaz kəmərinin vurulması, Azərbaycan pomidorunda “təhlükəli bakteriyaların” aşkar edilməsi kimi diplomatiyadan uzaq, çeşidli təzyiq rıçaqlarından istifadə olunur.

Məlumdur ki, Rusiya–Azərbaycan münasibətləri AZAL aviaşirkətinə məxsus Bakı-Qroznı reysi ilə uçan J2-8243 təyyarəsinin vurulmasından, nəticədə 38 nəfərin ölümündən sonra diplomatik gərginlik fazasına girdi. Rəsmi Bakı sərnişin təyyarəmizin qəzaya uğramasında Rusiya tərəfinin günahına dair təkzibolunmaz sübutları dəfələrlə Kremlin nəzərinə çatdırsa da, qarşı tərəf nəinki aşkarı inkar etməklə kifayətləndi, ölkəmizə qarşı təhqir və təhdidlərə keçməyə üstünlük verdi. Amma bu, ikitərəfli münasibətlərin soyumasına səbəb olacaq hadisələr zəncirinin birinci halqası idi.

Moskva və Bakı arasında siyasi gərginlik dalğası Rusiya telekanallarında artan mürtəce anti-Azərbaycan ritorikası fonunda daha da gücləndi. Kremlin tapşırığını görünməmiş canfəşanlıqla yerinə yetirən ideoloji “podpivalşıklərin” – solovyovların, mironovların, zatulinlərin, valuyevlərin isterikası o həddə yüksəldi ki, efirdən Rusiyanın Azərbaycana müharibə ilə “dərs verməsinə” dair bəyanatlar da səsləndi. Siyasi avantüradan qaynaqlanan bu “parlaq ideyanın” əsas dirijoru Moskvanın tamştatlı təbliğatçısı Vladimir Solovyovdur. Biz Vladimir Rudolfoviçin efirdə buraxdığı digər qələtlərə görə ölkəmizdən dəfələrlə üzr istəməsini yaxşı xatırlayırıq. Onun anti-Azərbaycan feyk-marafonu Rusiyanın dövlət radiosu “Vesti FM”-in efirində separatçı David Babayanı “Artsaxın xarici işlər naziri” kimi təqdim edəndə başlamışdı. Yeri gəlmişkən, indi həmin Babayan radiolara, telekanallara deyil, Bakı Hərbi Məhkəməsində təqsirləndirilən şəxs qismində hakim və prokurorlara “müsahibə” verir.

*

Bu məqamda Solovyovun 2017-ci ilin aprelində Bakıya səfərində Prezident İlham Əliyevlə görüşündən hazırladığı reportajda dediklərini oxucuların diqqətinə çatdıraq: “Prezident Əliyev dərin zəkalı, savadlı, ölkə qarşısında böyük məsuliyyət hiss edən dövlət xadimidir. Rusiya ilə tərəfdaşlıq münasibətləri barədə danışanda mən dedim ki, Rusiya heç vaxt Azərbaycana xəyanət etməyəcək. O isə mənə etiraz edərək dedi: “Putin heç vaxt Azərbaycana xəyanət etməyəcək”. Mən bu sözlərin qarşısında heç nə deyə bilmədim”.

İndi bu adam efirdən Rusiyanın ölkəmizə qarşı “müharibə perspektivi”ni müzakirə etməyə girişib. Niyə təəccüblənməliyik ki? Muzdlu qatillər, “qədim peşə sahibləri” kimi, pula satılan, jurnalist məsləkinə xəyanət edənlərdən bundan daha betərini gözləmək olar. Onun “cığırına” düşənlərdən biri istefada olan general-leytenant, Dövlət Dumasının “Vahid Rusiya”dan olan deputatı Andrey Qurulevdir. Onun “fövqəladə fikir azadlığına” əsaslanan qeyri-adi təkliflərindən biri: “Rusiya piştaxtalarında Azərbaycandan mal yoxdursa, məncə, bizim üçün heç nə dəyişməyəcək. Amma onlar üçün çox şey dəyişəcək. Həm də çox dəyişəcək. Burada hansısa bizneslə məşğul olan bir neçə azərbaycanlını çimdikləsək, o zaman çox şey dəyişəcək. Yaxşı, həqiqətən də başa düşmürlərsə, biz bunu başqa cür də edə bilərik. Xüsusi hərbi əməliyyat çevik konsepsiyadır. Bu, çox şeyi dəyişəcək. Bəli, lap çox dəyişəcək. Rusiya Federasiyasının bütün sərhədi boyunca xüsusi əməliyyat keçirməyə ehtiyac var”. Mütəmadi qəbul etdiyi alkoqolun miqdarını və dozasını çoxdan itirmiş və bundan sui-istifadə edən Qurulev Dumadakı çıxışında Stalin repressiyaları dövrünün qaytarılmasını açıq şəkildə arzulayacaq qədər irəli gedib.

Deməli, Azərbaycanı müharibə ilə qorxutmaq istəyirlər. Rusiya çətin ki, son model təchizata, qalibiyyət təcrübəli orduya malik Azərbaycanla müharibəyə başlamaq qərarına gəlsin. Üstəlik, solovyovlar, qurulevlər, digər kuklalar Şuşa Bəyannaməsinin mahiyyətini bilməmiş deyillər. Orada Azərbaycana hücum, əslində, Türkiyəyə hücuma bərabər tutulur. Sonda Rusiya üçün hərbi-siyasi fiaskonun qaçılmaz olacağını da unutmasınlar.

*

“Birinci Kanal”da Ruslan Ostaşko adlı bir teleaparıcı var. O, açıq şəkildə bildirib ki, Odessa vilayətində yerləşən “Orlovka” qaz kompressor stansiyasına endirilən zərbə “Moskvadan Bakıya siqnaldır”. Kremlin “bek-vokalisti”nin sözlərinə görə, Azərbaycanın “Rusiyadan yan keçərək, hətta mövcud infrastrukturdan istifadə etməklə Qərbə təchizat qurmaq cəhdləri dayandırılmalıdır”. Bu sözlər ölkəmizə qarşı sıradan bir informasiya savaşı olmayıb, faktiki, Kremlin terroru siyasi alətə çevirdiyini etiraf etməsi deməkdir.

Ən təhlükəlisi isə budur ki, hücuma məruz qalan terminal vasitəsilə Azərbaycan qazı Ukraynaya nəql olunurdu. Məhz buna görə də rusiyalı hərbi blogerlər və propagandist media bu hücumu, sadəcə, hərbi yox, geosiyasi mesaj kimi təqdim edirək, bunu “İlham Əliyevə siqnal” adlandırıblar. Bu, Kremlin bəslədiyi muzdlu media təmsilçiləri vasitəsilə Azərbaycanın müstəqil enerji siyasətini və Qərblə əməkdaşlıq hüququnu hədəfə alması, Bakıya açıq təhdidlər yönəltməsidir. Ostaşkonun açıqlaması, sadəcə, siyasi məsuliyyətsizlik və ya həyasızlıq deyil. Bu, Moskvanın dövlət terrorizminə ideoloji bəraət qazandırmaq cəhdidir. Bununla da Kreml bir daha sübut edir ki, qonşularına qarşı münasibətdə özünü sivil dövlət kimi deyil, silahlı dəstəyə çevrilmiş “banda” kimi aparmağa üstünlük verir. Məqsəd qonşulara, eləcə də başqa dövlətlərə necə və kiminlə ticarət etməyi diktə etməkdir. Amma Kreml onu da anlamamış deyil ki, bu cür ucuz üsullarla nə İlham Əliyevi, nə də Azərbaycan cəmiyyətini əymək, sındırmaq mümkün deyil.

Şimal qonşumuzda uzaqdan müşahidə olunan siyasi panorama maraq doğurur: Rusiya artıq zorakılıq, şantaj və xaos üzərində qurulmuş, imperiya xülyasından əl çəkməyən amorf bir sistemə çevrilib. Azərbaycan isə keçmişin üfunət iyi gələn bu sistemdən gələn heç bir “siqnalı” qəbul etmir və heç vaxt da qəbul etməyəcək. Bu gün Rusiyanın açıq şəkildə Azərbaycanın xarici iqtisadi layihələrinə, xüsusilə Avropa enerji bazarına çıxış planlarına qarşı qısqanc mövqe sərgiləməsi bu ölkənin, sadəcə, Ukraynaya qarşı müharibə aparmadığını, eyni zamanda, Cənubi Qafqazda və keçmiş SSRİ məkanında öz maraqlarına toxunan hər hansı müstəqil təşəbbüsə təzyiq göstərdiyini sübut edir. Azərbaycan müstəqil dövlət olaraq özünün yeraltı sərvətini Avropaya, dünya bazarına yeni marşrutlarla çıxarmaq hüququna malikdir. Amma bunu uda bilməyən Rusiya tarix boyunca istifadə etdiyi zorakı ritorikaya qayıdır: “Əgər mənim dediyim olmazsa, dağıdaram, yandıraram!”. Bu yanaşma imperiyanın əsrlər boyu qanla, işğalla, təhdidlə yaşama modelinin XXI əsrdə davamı kimi görünür. Amma daha bu model işləmir. Bugünkü aqressivlik – məhz bu modelin çöküşünün yaratdığı ağrılı aqoniya vəziyyətinin əlamətlərindən biridir.

*

Bəli, dünya nəinki XIX əsrdəki, heç XX yüzillikdəki dünya deyil. İndi müstəqil, bütöv, güclü və qürurlu Azərbaycan var. Rusiyanın ölkəmizə qarşı düşmənçilik siyasətinin bütün çərçivələri aşdığını görən və bundan narahat olan ABŞ Dövlət Departamenti Orlovka qaz kompressor stansiyasının bombalanması ilə bağlı Moskvaya bəyanat ünvanladı: “Rusiya bu cür hərəkətlərə dərhal son qoymalıdır. Prezident Donald Trampın sülhə bu qədər dəstək verməsinin səbəbi müharibənin yol açdığı insan itkisidir. Ölüm və dağıntılar dayandırılmalıdır”.

Çılpaq həqiqət ondan ibarətdir ki, 2020-ci ildə Azərbaycanın qazandığı Qarabağ zəfəri təkcə Ermənistanın deyil, həm də Rusiya silah sənayesinin simvolik məğlubiyyəti oldu. Ukraynalı ekspertlər dəfələrlə vurğulayıblar ki, Azərbaycanın bu zəfəri Ukraynaya müqavimət üçün psixoloji və texnoloji cürət verdi. 2022-ci ilin fevralında qəzəblə meydana atıldı. İndi o, meydanın tən ortasında olsa da, təklənmiş və tükənmiş vəziyyətdə, təcavüzkar rolundadır. Görünən neqativ perspektiv odur ki, bu gedişlə Şimal qonşusu növbəti qış yuxusuna getməsi üçün başını salmağa mağarası qalmaya bilər…

**P.S.** Bəs, Kremlin başbilənləri anti-Azərbaycan “propaqandası”, Rusiyada yaşayan, işləyən soydaşlarımıza qarşı törətdiyi zorakılıqlarla nəyə nail oldular? Bu sualın cavabını, Rusiyanın düşmənçilikdən ilk qazancının nə olduğunu rəsmi Moskvanın əsas ideoloqlarından biri, filosof Aleksdandr Duqin çox dəqiq formulə edib: “Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh sazişinin bağlanması Rusiyanın Cənubi Qafqaz siyasətinin uğursuzluğudur. Bu sənəd Rusiyanın acizliyinə işarədir. Bu müqavilə bizim gücsüzlüyümüzün sübutudur. Biz artıq postsovet məkanına belə nəzarət etmirik. Bizə burada hörmət göstərilməsə, dünya səhnəsində kim bizimlə hesablaşacaq? Bu, sadəcə, məğlubiyyət deyil – hər bir rusun üzünə vurulan sillədir. Paşinyan və Əliyevi günahlandırmaqla özünə haqq qazandıra bilməzsən. Etiraf etməliyik: danışıqları yanlış adamlara etibar etdiyimiz üçün məğlub olduq”.

***İmran BƏDİRXANLI***
***XQ***

# Tarixi dəyişən sülh konsepsiyası Azərbaycanın dövlət siyasəti kimi



II MƏQALƏ

## Sülhsevər liderlik

XXI əsrin geosiyasi dinamikası dövlətin sülhsevərliyi ilə birbaşa əlaqəsi olan məqamı önə çıxardı. Dövlət həqiqi anlamda sülhsevər ola bilər. Lakin bütün hallarda həmin sülhsevərliyi həyata keçirə bilən liderə ehtiyac vardır. Liderin kifayət qədər peşəkar hazırlığı, yüksək zəkası, idarəetmə məharəti və uzaqgörənliyi olmadan ən yaxşı sülh konsepsiyası belə kağız üzərində qalır.

Ümumiyyətlə, liderliyin cəmiyyət və dövlət üçün əhəmiyyəti barədə XXI əsrin üçüncü onilliyinin əvvəllərində Henri Kissincer yazırdı ki, istənilən cəmiyyət yaddaşı ilə gələcəyə baxışı arasında hərəkət edir. Bu zaman gələcəyi görmək vizyonu cəmiyyəti və dövləti ruhlandırır, motivasiya edir. H. Kissincer ayrıca vurğulayır ki, məhz bu cür qlobal kontekstdə cəmiyyət lidersiz mövcud ola bilmir. Çünki qərar qəbul etmək, etibar qazanmaq, vədlərə əməl etmək və irəliyə doğru hərəkət yollarını müəyyən etmək kollektiv mövcudolma üçün zəruridir.

Liderliyə dövlət institutlaşması prizmasında baxanda isə insanların heç zaman olmadıqları "yerlərə” çatması üçün aparıcı və etibarlı bir gücə ehtiyacın olması məsələsi önə çıxır. Lider olmayanda dövlət institutları “ləngər vurur”, ölkə isə fəlakətə sürüklənir. Bununla lider cəmiyyətdə keçmişlə gələcək və arxasınca apardığı insanların canatamaları ilə dəyişməz dəyərlər arasında “canlı körpü” olmalıdır. Bütövlükdə cəmiyyəti irəli aparmağın optimal yollarını vaxtında və dəqiq müəyyən etməlidir.

Henri Kissincerin bu politoloji vurğuları müasir geosiyasi gerçəkliklər işığında dahiyanə görünür. Liderin dövlətin və cəmiyyətin həyatında oynadığı həlledici rolu aydın təsəvvür etmək üçün çox faydalı tezislərdir. Bütün hallarda isə liderin töhfəsi siyasi təcrübənin özəlliklərindən aydın olur. Bu aspektdə Ulu öndərin müstəqil Azərbaycanın dövlət identikliyini müəyyən edəndə sülh faktoruna verdiyi önəmi dərk etmək vacibdir.

## Demokratiya, hüquq, ədalət və sülh

Bu faktorların müstəqil Azərbaycan Respublikasının dövlət identikliyinin başlıca parametrləri olduğunu Heydər Əliyev 1994-cü il və 1995-ci illərdə BMT-nin yüksək tribunasında bəyan etmişdir. Azərbaycan güclü demokratik, büynəlxalq hüquqa tam əməl edən, tarixi ədalətə ciddi diqqət yetirən və sülhsevər dövlət kimi dünyaya təqdim olundu! Ayrıca, Heydər Əliyev sülhsevərliyin, obrazlı desək, “Azərbaycan kriteriyasını” da ifadə etdi: “Dünyanın harasında olursa-olsun münaqişələri dinc yolla – danışıqlar və müzakirələrlə həll etmək lazımdır”!

Bu, dövlətlərarası münasibətlərdə kifayət qədər ciddi bir addım idi. Yəni Azərbaycan müstəqil dövlət kimi sülhsevərliyi geniş kontekstdə, bütün dünya üçün prinsipial identiklik parametri kimi qəbul edir. Azərbaycan Respublikası yalnız Ermənistanın təcavüzünün aradan dinc yolla qaldırılmasına deyil, dünyanın hər bir guşəsində mövcud olan ixtilafların sülh yolu ilə həllinə üstünlük verir. Bu baxımdan Azərbaycan dövlətinin identikliyində demokratiya, hüquq və ədalət sülhün təmin edilməsinə xidmət edir. Azərbaycan dövləti sülhsevərliyi ilə güclüdür!

## Dövlətin gücü – sülhsevərlik

1993-cü ildən başlayaraq bu qısa tezis Azərbaycanın xarici və daxili siyasətinin əsas gösəricilərindən biri olmuşdur. Politoloji olaraq çox maraqlıdır - ərazisi işğal edilmiş, hər tərəfdən haqsızlıq, hüquqsuzluq və ədalətsizliklə üz-üzə qalan gənc müstəqil dövlət strateji inkişafının mərkəzinə sülh faktorunu yerləşdirir! Belə alınır ki, müstəqil dövlətin gücünün “ölçüləri”ndən biri də məhz “sülhsevərlikdir”! Onu realpolitikada hər an təsdiq etmək üçün çox güclü lider iradəsi, yüksək zəkası və stratejini düzgün görə bilən aparıcı şəxsiyyət lazımdır.

## Faktların işığında

Azərbaycan rəhbərliyi gücü ilə sülhsevərliyini optimal surətdə balanslaşdıran siyasətdən kənara çəkilmədi. Enerji strategiyası ilə geniş bir geosiyasi məkanda (Mərkəzi Asiyadan Avropaya qədər) çoxlu sayda dövlətin milli təhlükəsizliyinin təmininə töhfə verdi. Onu vurğulayaq ki, bu özəllik Azərbaycanın ərazi bütövlüyünü təmin etmədən əvvəlki dönəmlərdə də enerji strategiyasında aparıcı məqam olmuşdur.

Bununla yanaşı, Azərbaycan sivilizasiyalar, dinlər və mədəniyyətlər arasında dialoqu daim təşkil etdi. Ən kritik dönəmlərdə belə bu xətdən kənara çıxmadı. Məşhur “Bakı prosesi” buna gözəl nümunədir.

Bütün əngəllərə baxmayaraq, Azərbaycan qətiyyətlə enerji layihələrini xalqların qarşılıqlı faydalanması naminə həyata keçirdi. Dövlətləri bu prosesə qətiyyətlə daxil etdi. Məsələn, Gürcüstanı ən ağır vəziyyətində belə Azərbaycan tək buraxmadı.

Azərbaycan daxildə multikultural dəyərləri dövlət siyasəti səviyyəsində qorudu və inkişaf etdirdi. Bununla Azərbaycan cəmiyyətinin daxili sülh mühitini regional miqyasa proyeksiya etmək üçün tarixi, siyasi, geosiyasi və hüquqi əsas əldə etdi.

Azərbaycan bütün bunların fonunda daim müdafiə qüdrətini inkişaf etdirdi. Ordu quruculuğu sürətlə və keyfiyyətli aparıldı. Artıq 2015-ci ilə Azərbaycan ordusu özünümdafiə imkanları geniş olan güclü struktura çevrilmişdi. Bütün dünya bunun əyani təsdiqini 2016-cı ilin aprelinin dörd günü ərzində gördü! Azərbaycan ordusu qısa müddətli əməliyyatla bir sıra strateji obyekti düşməndən azad etdi.

2020-ci il sentyabrın 27-dən noyabrın 8-ə qədər olan müddətdə isə Azərbaycan ordusu işğal altında olan əraziləri sürətlə azad etməklə bütün dünyanı fakt qarşısında qoydu. Qərbdən ilk reaksiyalar adekvat deyildi. Qərbin bütün böyük gücləri Azərbaycanı günahkar hesab etdilər. Fransa ən çox canfəşanlıq edən oldu. ABŞ də Minsk Qrupunun həmsədr dövləti kimi Azərbaycanın Vətən və müstəqil dövlətçilik uğrunda savaşını ədalətli qiymətləndirmədi. Bu bağlılıqda Vaşinqtonun üç tələbini xatırlatmaq yerinə düşərdi.

Birincisi, mülki əhali arasında itkilərdən narahatlıq bildirdi və regionda humanitar situasiyanın pisləşməsini dayandırmağı tələb etdi. Halbuki Minsk Qrupunun həmsədri kimi ABŞ vəziyyətin bu yerə çatmasına imkan verməməli idi. Bunun üçün Ermənistanın işğal etdiyi əraziləri tərk etməsini tələb etməli idi. Bunu etmədən, üstəlik “907-ci düzəlişi” saxlamaqla Amerika II Qarabağ Müharibəsinə qarşı düzgün mövqe tutmadığını göstərirdi.

İkincisi, Vaşinqton “güc tətbiqinin eskalasiyasını ittiham edirdi”. Burada güc tətbiq edən Azərbaycanın vəziyyəti ağırlaşdırdığı nəzərdə tutulurdu və buna görə də günahkar sayılırdı.

Üçüncüsü, Vaşinqton hesab edirdi ki, “Dağlıq Qarabağın statusu dəyişməməlidir”! Onu vurğulayaq ki, “Dağlıq Qrabağ”ın süni olaraq inzibati ərazi kimi sovetlərin müəyyən etməsində ABŞ-nin o dönəmdəki prezidenti Vidro Vilsonun məşhur “14 prinsipi” az rol oynamadı. Belə çıxırdı ki, Azərbaycanın Vətən müharibəsi aparmasının ideyasını Amerika ilk vaxtlarda heç qəbul etmək istəməmişdir. Xatırladaq ki, II Qarabağ müharibəsi Donald Trampın prezidenliyinin son aylarına düşdü və noyabrın 3-də demokrat C.Bayden qalib gəldi.

## Liderin zəkası, qətiyyəti və gücü

Vaşinqtonda əldə edilən razılıqlar fonunda ABŞ ilə bağlı real faktlar bir qədər qərəzli görünə bilər. Ancaq qətiyyən elə deyildir, çünki biz həqiqətin gözünün içinə baxmalıyıq. “Hurrey” deməklə real faktları unutmamalıyıq.

Burada məhz ABŞ-nin nümunə göstərilməsi isə təsadüfi deyildir. Çox rahatlıqla artıq keçmiş olan Minsk Qrupunun digər həmsədrləri olmuş Rusiya və Fransanın ədalətsiz, hüquqsuz antiazərbacyan mövqeləri barədə çoxlu faktlar vurğulaya bilərdik. Bütövlükdə Aİ-nin güclü dövlətlərinin Ermənistanın təcavüzünün nəticələrini dinc yolla aradan qaldırılması istiqamətində tutarlı bir addım atamamaları da unudulmazdır. İlk ağlı başına gələn ABŞ-dir. Ona görə ona nisbətən müqayisələr aparırıq.

Bunlardan tam haqqımız olan bir sual yaranır: “Nə oldu da bunlar sürətlə ağıllandılar, haqq yoluna gəldilər?” Azərbaycana, bütövlükdə türk dövlətçiliyinə “Vilsonun prinsipləri”nin məntiqindən baxan amerikalılarda nə baş verdi?

Xatirimizdədir, 2001-ci ildə ABŞ-nin Florida ştatının Ki-Uest şəhərində Azərbaycan-Ermənisan danışıqlarında həmsədrlər hansı vüsətlə təcavüzkar tərəfi dəstəkləyirdilər. Cinayətkar R.Koçaryan 2021-ci ildə erməni KİV-ə verdiyi müsahibədə açıq demişdir ki, Ki-Uestdə Dağlıq Qarabağın (artıq keçmiş) Ermənistana verilməsinə çalışmışlar. Hətta Ermənistanla Azərbaycanın Qarabağ bölgəsini birləşdirməli olan dəhlizin genişliyinin 42 kilometr olmasını nəzərdə tutmuşlarmış!

R.Koçaryan 2021-ci ildəki müsahibəsində vurğulayır ki, Azərbaycanın əsas hissəsini Naxçıvanla ancaq yol statusu olan bir neçə tuneldən ibarət tras birləşdirməli idi. Yəni ümumi mənzərəni belə nəzərdə tutublarmış (həmsədrlər və rəsmi İrəvan): Ermənistana Dağlıq Qarabağ birləşdirilir, üstəlik elə geniş dəhliz yaradılır ki, gələcəkdə istənilən an onu da Ermənistana vermək mümkün olur. Azərbaycan isə ancaq Naxçıvana tam Ermənistanın nəzarətində olan yolla gedə bilir.

Yeri gəlmişkən, o dönəmdə respublikaçılar Amerikada iqtidarda idilər və Ki-Uestdə dövlət katibi Kolin Pauell də iştirak etmişdr. Həmin dönəmin KİV-də dərc edilən yazılardan görünür ki, Ulu öndər Heydər Əliyev ermənilərin və havadarlarının bütün iddialarına rədd cavabı vermişdir. Amerika tərəfi də daxil olmaqla siyasilər Heydər Əlyevi razı salmaq üçün dəridən-qabıqdan çıxmışlar. Ancaq liderin zəkası, qətiyyəti və gücü bu ciddi əngəli aşdı!

2001-ci ildən 2020-ci ilin payızına qədər həmsədrlərin mövqeyində ciddi dəyişiklik yox idi. Onlar yenə də cüzi dəyişikliklərlə ermənilərin xeyrinə məsələni həll etməyə çalışırdılar. Azərbaycanın ilk sərt cavabı yuxarıda vurğuladığımız 2016-cı il aprel hadisələri oldu. Ancaq 2020-ci ilin payızı Azərbaycan liderinin zəkası, qətiyyəti və gücünün ikinci nümayişi idi. Bu dəfə Heydər Əliyevin işini onun layiqli siyasi varisi İlham Əliyev davam etdirdi.

## İkinci mərhələ

Şərti olaraq 2001-ci ildə aparılan danışıqların ikinci mərhələsini II Qarabağ Müharibəsi və onunla bağlı indi də davam edən mürəkkəb və gərgin siyasi, geosiyasi və diplomatik proseslər adlandıra bilərik. İlham Əliyev cəmi 44 günə dünyanın böyük güclərinə bir həqiqəti sübut etdi: Azərbaycan lideri müstəqillik və suverenliklə bağlı heç bir güzəştə getməyəcək. Bu o deməkdir ki, hərbi yolla torpaqlar tam azad olunacaq¸siyasi-diplomatik üsulla isə hüquqi məsələlər yekunlaşacaq.

Qərb də daxil olmaqla böyük güclər bu reallığı qəbul etmək istəmədilər. Yenə hədələr, təhdidlər, bəzən yumşaq yolla təsir cəhdləri və s. Bəzən də sərt informasiya savaşları davamlı oldu.

O dönəmin gərginliyini təsəvvür etmədən bu gün Vaşinqton razılaşmasının əsl tarixi və siyasi-diplomatik qiymətini verə bilmərik. İlham Əliyev Prezident və lider kimi sözün həqiqi mənasında oddan-alovdan tam qalibiyyətlə çıxa bildi. Azərbaycanın tarixdən və hüquqdan gələn haqqını qorudu, onu praktiki meydanda təmin etdi, hüquqi təsbitinə nail oldu. Bir əsrdə ikinci dəfə Azərbaycan liderliyinin zəkasını, qətiyyətini və gücünü dünyaya göstərdi. Bunu Ulu öndərin siyasi varisi İlham Əliyev etdi. Bütün bunları bizim “Heydər Əliyev-İlham Əliyev” adlandırdığımız siyasi və liderlik xətti çərçivəsində həyata keçirmək mümkün oldu.

Buradan hansı nəticəni çıxara bilərik? Vaşinqton razılaşması əsas olaraq Azərbaycanın dövlət iradəsi və Heydər Əliyev-İlham Əliyev liderliyinin gücü hesabına reallaşmışdır. Rəsmi Vaşinqton məcburən buna getmişdir. Onlar hələ də Zəngəzurda yolların simulyasiyasını hazırlayıb ermənilərə göstərirlər. İstərdilər ki, 2001-ci ildə ermənilər hansı statusda “yol”dan danışırlarsa, indi də həmin statusda yol olsun! Olmadı və heç vaxt olmayacaq! Çünki Zəngəzur əbədi türk-müsəlman torpağıdır!

Onlar fakt qarşısında qaldılar – Azərbaycan Ermənistan və havadarları üzərində mütləq qələbə əldə etmişdir! İndi ABŞ prezideni “münaqişəni həll etdim”, deyir. Xeyli yanılır, çünki münaqişənin həllini Azərbaycan 2023-cü ilin sentyabrında tamamlamışdır. Tam ərazi bütövlüyü və tam suverenlik bunun əlamətləridir. D.Tramp sadəcə, özündə cəsarət tapıb bunu etiraf etmişdir və dilə gətirmişdir. Qərb siyasi liderləri üçün bu da bir müsbət keyfiyyətdir. Biz ABŞ-nin prezidentini buna görə alqışlayırıq!

Lakin məsələnin mahiyyəti bunda deyil.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Avropa İttifaqının (Aİ) Ermənistandakı müşahidə missiyası 2023-cü ilin fevralından fəaliyyətə başlayıb. Rəsmi açıqlamalara görə, missiyanın məqsədi Cənubi Qafqazda sülh və sabitlik yaratmaqdır. Lakin missiyanın fəaliyyəti, tərkibi və bölgədəki praktiki yanaşmaları bu məqsədi şübhə altına alır. Əslində, missiyanın yaradılmasında Fransa Prezidenti Emmanuel Makronun rolu böyükdür və onun gerçək hədəfi Aİ-nin, xüsusilə Fransanın Cənubi Qafqazda hərbi-siyasi təsirini gücləndirmək, kəşfiyyat fəaliyyəti həyata keçirmək və Ermənistan–Azərbaycan münasibətlərində gərginliyi saxlamaqdır. Bu səbəbdən missiyanın regionda etimadsızlıq mühiti yaradaraq sülh prosesinə mənfi təsir göstərdiyi birmənalıdır.**

*

# Aİ–Ermənistan: İflas etmiş müşahidəçilik



Aİ missiyasının fəaliyyəti iki ay nəzərdə tutulsa da, sonradan onun müddəti uzadıldı və say tərkibi dəfələrlə artırıldı. Onların da əksəriyyəti xarici ölkə vətəndaşlarıdır. Təsadüfi deyil ki, missiyanın heyətində xüsusi xidmət orqanlarında işləmiş sabiq zabitlərin, keçmiş hərbiçilərin, o cümlədən müxtəlif ölkələrin strateji təhlükəsizlik strukturlarında fəaliyyət göstərmiş şəxslərin yer alması onun klassik müşahidə missiyasından daha çox strukturlaşmış hərbi təhlil qrupu – kəşfiyyatçılar olduğunu sübut edir. Bu isə missiyanın bölgədə informasiya toplama və strateji təxribatların koordinasiyası baxımından fəaliyyətdə olduğunu göstərir. Deməli, Aİ bu təsisatdan mülki müşahidə adı altında bölgədə uzunmüddətli strateji planlar üçün istifadə edir, Cənubi Qafqazda nüfuzunu genişləndirmək niyyətini göstərir.

Onu da qeyd edək ki, Aİ-nin Azərbaycanla münasibətlərində kifayət qədər gərgin məqamlar var. Eyni zamanda, Gürcüstanla münasibətlərdə də qeyri-müəyyənliklər hiss olunur. Bu regional çərçivədə ən zəif halqa Ermənistandır və Brüssel məhz bundan istifadə edərək bölgədə təsir imkanlarını artırmağa çalışır. Yəni, təsisatın Ermənistandakı fəaliyyəti təkcə Ermənistan–Azərbaycan sərhədində müşahidə aparmaqla məhdudlaşmır. Missiyanın əməkdaşları ötən müddət ərzində dəfələrlə Azərbaycan sərhədinə gələrək mövqelərimizin foto və video çəkilişlərini aparıblar. Guya, atəşkəsə nəzarət edir, münaqişədən təsirlənmiş ərazilərdə insanların təhlükəsizliyinə töhfə verir, Ermənistan və Azərbaycan arasında etimadın yaradılmasını dəstəkləyirlər. Əslində isə, onlar Azərbaycanın sərhəd təhlükəsizliyi və nəzarət sisteminin qurulması istiqamətində gördüyü işlər barədə məlumat toplamaqla məşğul olur, bu məlumatları erməni hərbçilərinə ötürürlər. Məsələn, Aİ kortejinin sərhədin Ermənistan silahlı qüvvələrinin mühəndis işləri apardığı Azərbaycanın Fərəhli kəndi yaxınlığında müşahidə aparmasının özü açıq şəkildə göstərir ki, onlar öz mandatlarından kənara çıxıblar. Əslində, missiya mühəndis-tikinti, möhkəmləndirmə işlərinə nəzarət etmir, haylara vəziyyəti başa salırlar. Yəni, onlar prosesdə birbaşa iştirak etməklə, təlimatçı kimi haylara köməklik göstərir və bununla da həm vəziyyəti gərginləşdirir, həm də Azərbaycan əleyhinə təbliğat aparırlar.

Digər tərəfdən, Azərbaycanla Ermənistan arasında aparılan ikitərəfli danışıqlarda artıq razılaşdırılmış və demarkasiya olunmuş sərhədin həmin hissəsində bir neçə dəfə avropalı müşahidəçilərin peyda olması haqlı suallar doğurur. Belə olan halda orada missiyaya nə ehtiyac var? Bu göstərir ki, artıq missiyanın fəaliyyəti müşahidə xarakteri daşımaqdan çox strateji hərbi maraqlara xidmət edir. Yəni, bu fəaliyyət Azərbaycanın Silahlı Qüvvələrinin mövqelərini izləmək, onların nəbzini yoxlamaq, bölgədəki hərəkətləri öncədən təhlil etmək kimi məqsədləri güdür. Bu isə sülhə deyil, yeni risklərə yol açan fəaliyyətlərdir.

*

Missiyanın tərkibində Fransanının rolunun xüsusilə vurğulanması təsadüfi deyil. Fransa rəsmilərinin onun fəaliyyətinə açıq dəstək verməsi, bölgəyə səfərlər etməsi, rəhbərliklə görüşlər keçirməsi onun siyasi məqsədlərlə hərəkət etdiyini təsdiqləyir. Bu yanaşma missiyanın tərəfsizliyini şübhə altına alır, onun konkret siyasi maraqlara xidmət edən alət olduğunu ortaya çıxarır. Deməli, missiya regionda sabitlik deyil, əksinə, əlavə gərginlik üçün zəmin hazırlayır. Bu “mülki” missiyanın regionda peyda olması ilə erməni tərəfinin mövqelərində aktivlik, hərbi hazırlıq tədbirləri və Azərbaycanın sərhəd ərazilərinə qarşı yönəlmiş təxribatların artması üst-üstə düşür. Bu isə Aİ təsisatının məqsədlərinin rəsmən açıqlanan niyyətlərdən tam fərqli olduğunu və onun bölgədə sülhü təşviq etmək əvəzinə, gərginliyi qoruyub saxlamaq istiqamətində fəaliyyət göstərdiyini bir daha təsdiqləyir.

Bütün bunlara baxmayaraq, Aİ-nin bəzi nümayəndələri həyasızcasına Azərbaycanın, guya, Ermənistanı təhdid etdiyini və bu müşahidə missiyasının Ermənistanı təhlükəsizliyini “sığortaladığını” iddia edirlər. Bu cür iddialar, hadisələrin real inkişafı, ikitərəfli münasibətlərin dinamikası və sahədəki faktlarla ziddiyyət təşkil edir.

Azərbaycan açıq şəkildə tələb edir ki, Aİ missiyası bölgədən çıxarılsın və Ermənistanla Azərbaycan arasında aparılan delimitasiya və demarkasiya proseslərinə müdaxilə etməsin. Çünki artıq hər iki tərəf sərhəd məsələsində vasitəçilərə ehtiyac olmadığını qəbul edib və birbaşa təmaslar qurulub. Belə bir məqamda missiyanın fəaliyyəti onun bu proseslərə təsir imkanlarını qoruyub saxladığını və gələcəkdə növbəti müdaxilələr üçün zəmin yaratdığını göstərir. Bu isə region üçün əlavə təhlükə deməkdir.

*

Azərbaycan və Ermənistan arasında son dövrlər baş tutan birbaşa danışıqlar, qarşılıqlı etimadın formalaşması və müsbət dəyişikliklər bölgədə yeni siyasi situasiya yaradıb. 2025-ci il avqustun 8-də Azərbaycan, ABŞ və Ermənistan liderlərinin Vaşinqton görüşü, burada Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş”in mətninin paraflanması regionda sabitlik və əməkdaşlıq üçün real perspektivlər yaradır. Bu görüş uzun illər davam edən münaqişəyə son qoymaq üçün mühüm mərhələ kimi qiymətləndirilir. Sazişin paraflanması həm də tərəflər arasında birbaşa diplomatik kanalların daha da gücləndirilməsinə və üçüncü tərəflərin təsir imkanlarının azalmasına səbəb olur.

Daha geniş geosiyasi kontekstdə ABŞ-ın təşəbbüsü ilə formalaşan yeni siyasi düzən artıq öz nəticələrini verməkdədir. Sərhədlərin müəyyənləşdirilməsi prosesində əldə olunan irəliləyiş, nəqliyyat və kommunikasiya xətlərinin açılması ilə bağlı razılaşmalar, eyni zamanda regionda iqtisadi və logistik əlaqələrin bərpası, tərəflər arasında qarşılıqlı etimad yaradan bir mühit formalaşdırır. Bu isə sülhə real addımların atıldığını, yeni mərhələnin başlandığını açıq şəkildə göstərir.

Bu reallıqlar fonunda Aİ-nin Ermənistandakı müşahidə missiyası artıq funksionallığını və aktuallığını itirib. Ona görə də bu missiya ömrünü başa vurmuş struktur kimi dəyərləndirilə bilər. Sülh prosesi artıq birbaşa tərəflərin iradəsi və qarşılıqlı siyasi razılaşmalar əsasında inkişaf edir. Bu şəraitdə üçüncü tərəf aktorlarının birtərəfli, qeyri-şəffaf və strateji maraqlara xidmət edən fəaliyyətləri yalnız prosesə zərər verər, əldə olunan razılaşmaların icrasını gecikdirə və regionda əlavə gərginliklər yarada bilər.

Mövzu ilə bağlı siyasi şərhçi **Əfsun Sucayev** XQ-yə açıqlamasında bildirdi ki,



Azərbaycan və Ermənistan arasında son razılaşmalar və sülh sazişinin paraflanması Aİ müşahidə missiyasını aktual edən bütün əvvəlki arqumentləri qüvvədən salır: “Məhz bu səbəbdən həmin missiyanın bölgədə qalması yalnız siyasi spekulyasiya və regional proseslərə xaricdən müdaxilə üçün bir vasitə olaraq qalır. Sülh isə yalnız region ölkələrinin birbaşa və qarşılıqlı razılaşmalarına əsaslanan mexanizmlər çərçivəsində mümkündür. Bu baxımdan, missiyanın dərhal dayandırılması həm sülh proseslərinə hörmətin təzahürü, həm də regionun öz iradəsinə əsaslanan davamlı, dayanıqlı və qarşılıqlı anlaşmaya söykənən sülhə keçid üçün ən rasional və zəruri addımdır. Üçüncü tərəflərin müdaxiləsi isə bu prosesi ləngitməkdən başqa bir nəticə vermir”.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# İlham Əliyevin liderliyi ilə qlobal sabitlik və rifah təşəbbüsü

(əvvəli 1-ci səhifədə)

## Zəngəzur dəhlizi və qlobal inteqrasiya

Ulu öndər Heydər Əliyevin "Azərbaycan dünya iqtisadi sisteminə qovuşmalı, beynəlxalq əməkdaşlığın fəal iştirakçısına çevrilməlidir" prinsipi bu gün Zəngəzur dəhlizinin (TRIPP) reallaşmasında mühüm strateji əsas kimi çıxış edir. Onun uzaqgörən iqtisadi siyasətinin məqsədi Azərbaycanı qlobal arenada güclü mövqeyə çıxarmaq, beynəlxalq ticarət əlaqələrini genişləndirmək və regional sülhü gücləndirmək idi. Bu prinsip ölkəmizin coğrafi mövqeyindən səmərəli istifadə etməyə yönəlmişdir. Zəngəzur dəhlizi layihəsi də məhz bu irsin təbii davamı kimi çıxış edir.

Zəngəzur dəhlizi (Tramp yolu) təşəbbüsü ilə iqtisadi inteqrasiya və sosial rifahı birləşdirən dayanıqlı inkişaf modelinin təməli qoyulur. "Şərq–Qərb" və "Şimal–Cənub" nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsində yerləşən bu marşrut Mərkəzi Asiyadan gələn yüklərin Avropa və Yaxın Şərq bazarlarına sürətli, təhlükəsiz və əlverişli şəkildə çatdırılmasını təmin edir.

Azərbaycanın liderliyi ilə həyata keçirilən bu təşəbbüs qlobal sülhün və rifahın təşviqi üçün kompleks və sistemli yanaşmanı nəzərdə tutur. Tranzit marşrutunun formalaşdırılması, ticarət axınlarının optimallaşdırılması və iqtisadi əlaqələrin dərinləşdirilməsi Zəngəzur dəhlizinin əsas məqsədlərindən hesab olunur. Yeni infrastruktur bağlantıları Şərq ilə Qərb arasında ticarət dövriyyəsinin artmasına, yeni bazarlara çıxış imkanlarının genişlənməsinə və beynəlxalq logistikanın daha müasir və effektiv formada idarə olunmasına şərait yaradır.

Dünya təcrübəsi göstərir ki, düzgün idarə olunan logistika infrastrukturu iqtisadi artım və geosiyasi güc mərkəzlərinin formalaşması üçün zəruri şərtdir. Məsələn, Sinqapur modeli coğrafi üstünlükləri qabaqcıl infrastruktur və yüksək texnologiyalı logistika sistemləri ilə birləşdirərək Asiya – Sakit Okean regionunu aparıcı ticarət qovşağına çevirmişdir. Zəngəzur dəhlizi isə Azərbaycanın Cənubi Qafqazda analoji tranzit və logistika mərkəzinə çevrilməsini hədəfləyir.

Digər nümunə olan Panama Kanalı qlobal ticarət təhlükəsizliyinin təminatçısı və gəlir mənbəyi kimi Panamanın gücünün artmasına xidmət etməkdədir. Zəngəzur dəhlizi isə yalnız gəlir mənbəyi olmaqla kifayətlənmir, eyni zamanda regionda sülh və stabilliyi təmin edən güclü geoiqtisadi vasitə kimi fəaliyyət göstərir. Eləcə də Süveyş Kanalı layihəsi əsasən iqtisadi mənfəət və ticarət həcminin artırılmasına yönəlib. Bundan fərqli olaraq Zəngəzur dəhlizi mövcud ənənəvi yanaşmalardan irəli gedərək iqtisadi inteqrasiya və rifahı prioritet kimi nəzərdə tutur, iqtisadi fəaliyyəti sülh və təhlükəsizlik faktoruna çevirir.

Beləliklə, Zəngəzur dəhlizi qarşılıqlı fayda və əməkdaşlıq üzərində qurulmuş iqtisadi sülh modelinin canlı nümunəsi kimi çıxış edir. Perspektivdə isə o, Cənubi Qafqazda və daha geniş geosiyasi məkanda inteqrasiyanın, sabitlik və inkişafın strateji dayaqlarından birinə çevrilmək potensialına malikdir. Dəhliz boyu yerləşən ölkələr arasında qarşılıqlı iqtisadi asılılığın güclənməsi "İqtisadi sülh nəzəriyyəsi"nin əsas prinsiplərinə uyğun olaraq, bölgədə davamlı sabitliyə xidmət edəcəkdir.

## Zəngəzur dəhlizi: strateji sülh körpüsü

Zəngəzur dəhlizi təşəbbüsünün mərkəzində iqtisadi sülh nəzəriyyəsi dayanır. Bu nəzəriyyəyə görə, dövlətlər arasında iqtisadi əlaqələrin genişlənməsi təkcə ticarət dövriyyəsini artırmır, həm də münaqişə risklərini əhəmiyyətli dərəcədə azaldır, qarşılıqlı inam və etimadı gücləndirir. Sülhün təmin olunması iqtisadi əməkdaşlığın artması ilə əlaqəli olduqda, əməkdaşlıq özü iqtisadi sabitliyin və sosial rifahın əsas dayağına çevrilir.

Ölkələr arasında qarşılıqlı iqtisadi asılılığın formalaşması, ticarət əlaqələrinin genişlənməsi və qarşılıqlı faydanın güclənməsi münaqişələrin qarşısını alan mühüm amil kimi çıxış edir. Belə bir mühitdə əməkdaşlıq zərurətə çevrilir, qarşılıqlı maraqlar isə sabit, uzunmüddətli münasibətlərin təminatına xidmət edir. Zəngəzur dəhlizi də məhz bu funksiyanı yerinə yetirir – iqtisadi inteqrasiyanı strateji vasitə kimi istifadə edərək region ölkələri arasında qarşılıqlı asılılıq yaradır, bununla da münaqişə risklərini azaldır və uzunmüddətli sülhün təməlini qoyur.

Təcrübə göstərir ki, qarşılıqlı iqtisadi maraqlara əsaslanan əməkdaşlıq, siyasi



ziddiyyətlər mövcud olsa belə, sabitliyin qorunmasına töhfə verir. Avropa İttifaqı bu məqsədə yüksək hüquqi standartlar və vahid bazar prinsipləri əsasında nail olur. ASEAN isə daha çevik yanaşma tətbiq edərək ticarət azadlığını ön plana çıxarır; bu modeldə tariflərin azaldılması və sərhəd keçidlərinin sadələşdirilməsi üzv ölkələr arasında ticarət həcmini artırmış, iqtisadi asılılıq isə tərəfləri sərhəd mübahisələrində kompromis axtarmağa sövq etmişdir.

Zəngəzur dəhlizi hər iki modelin üstünlüklərini birləşdirərək hüquqi çərçivəni siyasi dialoqla paralel inkişaf etdirməyi, iqtisadi və ticarət əməkdaşlığını sülh və rifahın əsas hərəkətverici qüvvəsinə çevirməyi hədəfləyir.

Tarixdən məlum nümunələr bunu təsdiqləyir: 1951-ci ildə Fransa və Almaniya arasında qurulan Kömür və Polad Birliyi sonradan Avropa İttifaqının əsasını qoyaraq uzunmüddətli sülhü təmin etdi. 1991-ci ildə yaradılmış Mercosur (Cənubi Amerika İqtisadi Birliyi) regional ticarət bloku Braziliya və Argentina arasındakı gərginliyi azaltdı. ASEAN isə üzv dövlətlər arasındakı sərhəd mübahisələrini yumşaldaraq iqtisadi inteqrasiyanı dərinləşdirdi.

Bunla bir daha iqtisadi inteqrasiyanın ticarəti və sabitliyi gücləndirdiyini göstərir. Bu nümunələrdə ortaq mexanizm odur ki, qarşılıqlı iqtisadi asılılıq münaqişə baş verdiyi halda hər iki tərəf üçün iqtisadi itki riskini artırır, nəticədə kompromislərə yol açılır. Son illərdə Səudiyyə Ərəbistanı və BƏƏ-nin İranla münasibətləri bərpa etməsi, eləcə də Şərqi Afrika İqtisadi Birliyi çərçivəsində əməkdaşlıq da bu tendensiyanı təsdiqləyir.

Zəngəzur dəhlizi bu prinsipləri Cənubi Qafqaz miqyasında tətbiq edərək marşrut boyunca iqtisadi əlaqələri dərinləşdirir, qarşılıqlı maraqları gücləndirir və münaqişə risklərini minimuma endirir.

## Zəngəzur dəhlizinin idarəetmə modeli

Zəngəzur dəhlizi fiziki nəqliyyat əlaqələrinin bərpasını, regional və qlobal iqtisadi inteqrasiyanın dərinləşməsini hədəfləyən strateji əhəmiyyətli təşəbbüsdür. Dəhlizin 99 il müddətinə ABŞ şirkətləri tərəfindən idarə olunması modeli beynəlxalq təcrübədə yeni rast gəlinir. Lakin alternativ yanaşmalar da mövcuddur. Məsələn, Avropa İttifaqında iri infrastruktur layihələri iri konsorsiumlar vasitəsilə idarə olunur, Çin – Pakistan İqtisadi Dəhlizində isə dövlət – özəl tərəfdaşlığı modeli tətbiq edilir. Bu müqayisələr əslində Zəngəzur dəhlizi üçün ən uyğun idarəetmə çərçivəsinin seçildiyini vurğulayır, çünki fərqli yanaşmalar layihənin təsirini və iqtisadi faydasını azalda bilər. Mövcud beynəlxalq təcrübələrə əsaslanan 99 illik idarəetmə modeli Zəngəzur dəhlizinə bir sıra strateji üstünlüklər qazandıracaq:

- ABŞ şirkətlərinin maliyyə gücü və infrastruktur sahəsindəki təcrübəsi regiona milyardlarla dollar sərmayə gətirmək potensialına malikdir. Avropa – Asiya marşrutlarında sərmayələrin 20 milyard ABŞ dollarına çatması, "Yeni İpək Yolu" layihəsində bu rəqəmin yüz milyardlarla dollarla ölçülməsi oxşar yanaşmanın Zəngəzur dəhlizinə də tətbiq edilə biləcəyini göstərir. Bu halda dəhliz yüksək texnologiyalı infrastruktur və müasir nəqliyyat şəbəkələri ilə təchiz ediləcək.
- Layihə ticarət marşrutlarının optimallaşdırılması, logistika xərclərinin azaldılması və tranzit vaxtının qısaldılması ilə illik yüz milyonlarla dollarlıq qənaət potensialı yarada bilər. ABŞ şirkətlərinin qabaqcıl logistika idarəetmə sistemləri ticarət əməliyyatlarını daha sürətli və daha sərfəli edəcək. ABŞ-ın beynəlxalq nüfuzu və strateji tərəfdaşlıq imkanları isə layihənin dayanıqlı icrasını təmin edərək, regional münaqişə risklərini azaldacaq və ölkəmizin beynəlxalq mövqeyini daha da möhkəmləndirəcək. İqtisadi asılılığın artması geosiyasi gərginliyi minimuma endirəcək, texnoloji modernləşmə isə xüsusilə qeyri-neft sektorunda yüksək əlavə dəyər yaradan sahələrin inkişafına mühüm töhfə verəcək.
- Dəhlizin inkişafı, həmçinin məhsulların Yaxın Şərq, Avropa və Mərkəzi Asiya bazarlarına daha sürətli çatdırılmasını təmin edəcək. Bu, ixrac bazarlarının genişlənməsinə, iqtisadiyyatın şaxələnməsinə və yeni beynəlxalq ticarət imkanlarının yaranmasına gətirib çıxaracaq. Layihənin həyata keçirilməsi minlərlə yeni iş yeri yaradacaq. Dünya Bankının hesablamalarına görə, hər 1 milyon ABŞ dolları infrastruktur sərmayəsi orta hesabla 6,5 iş yeri formalaşdırır. Beləliklə, qoyulan sərmayə yeni iş yerinin açılması, bu da sosial rifahı əhəmiyyətli dərəcədə güclənməsi deməkdir.
- Zəngəzur dəhlizi nəqliyyat əlaqələrinin bərpası ilə tarixi Qərbi Azərbaycan ərazilərinin iqtisadi axınlara qoşulmasına imkan verəcək. Prezident İlham Əliyevin sözləri ilə desək: "Biz avtomobil yolu ilə Qərbi Azərbaycana, İrəvana gedəcəyik...". Bu proses 1990-cı illərdə Şərqi Almaniyanın Qərbi Almaniya iqtisadiyyatına sürətli inteqrasiyasını xatırladır. Eyni yanaşma ilə, Zəngəzur dəhlizi vasitəsilə yaranacaq iqtisadi asılılıq və qarşılıqlı fayda Qərbi Azərbaycan ərazilərinin sosial-iqtisadi sisteminin Azərbaycana reinteqrasiyasına güclü təkan verəcəkdir. Dəhlizin uzunmüddətli idarəetmə modeli kapital və texnologiya transferini təmin edərək reinteqrasiyanı sürətləndirə bilər.
- 99 illik icarə modeli həmçinin investorlar üçün uzunmüddətli sabit gəlir proqnozu yaradır ki, bu da iri həcmli infrastruktur sərmayələrini stimullaşdırır və texnoloji tətbiqləri sürətləndirir. ABŞ şirkətlərinin rəqəmsal logistika idarəetmə sistemləri daşımaların sürətini artıracaq, əməliyyat xərclərini azaldacaq və tranzit gəlirlərini yüksəldəcək. Dünya Bankına görə, effektiv logistika idarəçiliyi tranzit ölkələrdə iqtisadiyyatın illik artımına orta hesabla 1–1,5 faiz əlavə edə bilir. Bundan başqa, ABŞ şirkətlərinin iştirakı Azərbaycanın nəqliyyat və enerji marşrutlarını qlobal bazarlara birləşdirərək siyasi riskləri azaldacaq və ölkənin beynəlxalq ticarət sistemində əsas qovşaq kimi mövqeyini möhkəmləndirəcək.
- Beynəlxalq təcrübələr göstərir ki, iqtisadi inteqrasiya və qarşılıqlı asılılıq münaqişələrin azaldılması üçün ən güclü vasitələrdəndir. Məsələn, Avropa İttifaqı ölkələri arasında iqtisadi əməkdaşlıq, təxminən, 70 illik sülh və davamlı inkişafın əsasını qoyub. Eyni zamanda, Çin tərəfindən həyata keçirilən 1 trilyon ABŞ dolları həcmində "Yeni İpək Yolu" təşəbbüsü regionlararası iqtisadi əlaqələri möhkəmləndirərək qlobal ticarətdə önəmli rol oynayır.

Beləliklə, Zəngəzur dəhlizinin 99 illik müddətə ABŞ şirkətləri tərəfindən idarə edilməsi Azərbaycanın uzunmüddətli iqtisadi dayanıqlığını gücləndirəcək, infrastrukturun beynəlxalq standartlara uyğun modernləşdirilməsini təmin edəcək və ölkəni Avrasiya logistik xəritəsində strateji "hub" mövqeyinə gətirəcək.

## Heydər Əliyevdən İlham Əliyevə: iqtisadi strategiyanın davamlılığı

Ulu öndər Heydər Əliyevin iqtisadi strategiyası Azərbaycanın regional əməkdaşlıq imkanlarının genişləndirilməsi və iqtisadi asılılıq mexanizmlərinin inkişaf etdirilməsi istiqamətində formalaşdırılmışdır. O, nəqliyyat marşrutlarını yalnız yükdaşıma vasitəsi kimi deyil, həm də ölkənin iqtisadi təsir gücünü artıran strateji platforma kimi qiymətləndirirdi. Bu yanaşma əsasında 1990-cı illərin sonlarından Bakı–Tbilisi–Ceyhan neft kəməri və Bakı–Tbilisi–Ərzurum qaz kəməri kimi iri infrastruktur layihələri həyata keçirildi. Nəticədə bu təşəbbüslər Azərbaycanın regional iqtisadi inteqrasiyada rolunu gücləndirərək ölkənin iqtisadi əlaqələrinin möhkəm təməlini qoydu.

Bu iqtisadi strategiyanın uğurlu tətbiqi hazırda Azərbaycanın, təxminən, 80 milyard ABŞ dolları səviyyəsində olan ÜDM-inə öz təsirini göstərməkdədir. Beynəlxalq təhlillər göstərir ki, iri tranzit dəhlizləri yerləşdiyi ölkələrin ÜDM-inə illik 3–5 faiz əlavə dəyər qazandırır. Bu baxımdan, Zəngəzur dəhlizinin tam gücü ilə fəaliyyətə başlaması iqtisadiyyatımıza milyardlarla dollar əlavə gəlir gətirə bilər. Belə bir potensialın reallığını qiymətləndirmək üçün Panama və Süveyş kanallarının ölkə iqtisadiyyatına verdiyi əhəmiyyəti misal gətirmək olar: Panama Kanalı ölkə ÜDM-nin 6 faizini, Süveyş Kanalı isə Misirin ixrac gəlirlərinin 10 faizdən çoxunu təşkil edib. Bu göstəricilər Zəngəzur dəhlizinin də oxşar iqtisadi təsirə malik ola biləcəyini göstərir.

Bundan əlavə, Zəngəzur dəhlizinin iqtisadi faydaları yalnız tranzit gəlirlərilə məhdudlaşmır. Dəhliz ticarət marşrutlarının optimallaşdırılmasına, daşınma xərclərinin azalmasına, yeni sənaye zonalarının yaranmasına və xarici investisiyaların artmasına səbəb olacaq. Bu isə Azərbaycanın iqtisadi strukturunu daha da şaxələndirəcək və gücləndirəcək. Dünya Bankının araşdırmaları göstərir ki, yüksək effektivliyə malik tranzit dəhlizləri yerləşdiyi regionlarda investisiya cəlbediciliyini 15–25 faiz artırır ki, bu da əlavə iqtisadi dinamikaya yol açır.

Bu strateji xətti yeni mərhələyə daşıyan Prezident İlham Əliyev iqtisadi inkişafı qarşılıqlı asılılıq, geosiyasi sabitlik, regional inteqrasiya və sosial rifah prinsipləri əsasında qurur. Bu baxımdan Zəngəzur dəhlizi onun konsepsiyasının mərkəzi elementinə çevrilir və Azərbaycanı regional əməkdaşlığın və iqtisadi inteqrasiyanın aparıcı mərkəzinə çevirir. Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdırılan Şimal – Cənub Nəqliyyat Dəhlizi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Orta Dəhliz layihələri Zəngəzur dəhlizi ilə sinerji yaradaraq Azərbaycanın Avrasiya loqistik xəritəsində strateji "hub" mövqeyini daha da möhkəmləndirir.

Nəticədə, Zəngəzur dəhlizi Ulu öndərin iqtisadi irsini davam etdirərək Azərbaycanın qlobal iqtisadi sistemdəki mövqeyini gücləndirir. Bu təşəbbüs həm iqtisadi sabitliyi və sosial rifahı artırır, həm də regional əməkdaşlıq və sülhün təminatında mühüm strateji baza yaradır. Dəhlizin gətirəcəyi faydalar Azərbaycanın iqtisadi baxımdan yeni zirvələrə yüksəlməsinə şərait yaradaraq uzunmüddətli sülhə doğru atılacaq önəmli addım kimi qiymətləndirilir.

Beynəlxalq təcrübəyə nəzər yetirdikdə, Sinqapur modeli müasir infrastruktur və iqtisadi inteqrasiya sayəsində regional ticarət mərkəzinə çevrilmişdir. Eynilə, Zəngəzur dəhlizi də Azərbaycanın regional iqtisadi mərkəz kimi inkişafına mühüm töhfə verəcək. Çinin "Yeni İpək Yolu" təşəbbüsü isə qlobal ticarətin yenidən təşkilinə və iqtisadi inteqrasiyanın gücləndirilməsinə yönəlmiş böyük sərmayələri ilə diqqət çəkir. Bu layihə çərçivəsində Zəngəzur dəhlizi strateji əhəmiyyətli əlaqə rolunu oynayaraq, iqtisadi əlaqələrin dərinləşməsinə xidmət edir. Bununla yanaşı, Qara dəniz limanlarına çıxışı genişləndirmək məqsədilə Qazaxıstanın həyata keçirdiyi infrastruktur layihələri ölkənin beynəlxalq ticarətə əlçatanlığını artırmışdır. Bu baxımdan, Zəngəzur dəhlizi Azərbaycanın tranzit potensialını yüksəldərək regional iqtisadi inkişafı dəstəkləyir.

Göründüyü kimi, Zəngəzur dəhlizi təşəbbüsü Azərbaycanın gələcək inkişafında mühüm yer tutan, qlobal iqtisadi təsiri genişləndirən və yeni inkişaf modelini yaradan strateji layihədir. "İnfrastruktur → iqtisadi asılılıq → sülh → rifah" zəncirini nəzərdə tutuan bu model qarşılıqlı fayda və müsbət iqtisadi asılılıq üzərində qurulmuşdur və davamlı sülhün təmin olunması ilə yanaşı, sosial rifahın yüksəlməsinə də zəmin yaradır:

1. İnfrastrukturun modernləşdirilməsi: iqtisadi asılılıq üçün təminat. Zəngəzur dəhlizinin ilk mərhələsi infrastrukturun müasirləşdirilməsi ilə başlayır və bu mərhələnin mühüm aspekti regional iqtisadi əməkdaşlığın möhkəmləndirilməsidir. Son 5 ildə nəqliyyat sektoruna 15 milyard ABŞ dollarından çox sərmayə qoyulub. Dəmir yollarının yenilənməsi, magistral yolların çəkilməsi, liman və logistika mərkəzlərinin inkişafı Zəngəzur dəhlizi kimi iri layihələr üçün güclü baza formalaşdırır. Bu, Şərq – Qərb marşrutlarının qısalmasına, logistika xərclərinin azalmasına və Azərbaycanın beynəlxalq ticarət şəbəkəsinə dərin inteqrasiyasına xidmət edir.
2. İqtisadi asılılıq: qarşılıqlı faydaların təmini. İlham Əliyevin iqtisadi siyasəti qarşılıqlı faydalı əməkdaşlıq və iqtisadi asılılıq prinsipinə əsaslanır. Bu, ölkələr arasında əlaqələri gücləndirir, münaqişə risklərini azaldır və "iqtisadi asılılıq → sülh" modelini möhkəmləndirir. Zəngəzur dəhlizi regional ticarət və investisiya əlaqələrini genişləndirərək qarşılıqlı maraqların qorunmasına şərait yaradır. Bu model, iqtisadi faydalar yaratmaqla yanaşı sülhün möhkəmləndirilməsi və qarşılıqlı etimadın artmasına yönəlir.
3. Sülh: iqtisadi və geosiyasi dayanıqlıq. İqtisadi və infrastruktur əsaslar üzərində qurulan sabitlik makroiqtisadi göstəricilərlə yanaşı sosial rifah və geosiyasi balansı da gücləndirir. Naxçıvanın iqtisadi reinteqrasiyası, yeni sənaye zonaları və logistika şəbəkələrinin genişlənməsi bu sabitliyin əsas elementlərindəndir.
4. İnkişaf: iqtisadi artımın və sosial rifahın güclənməsi. Dəhliz ticarət yollarını müasirləşdirərək enerji təhlükəsizliyini artırır, istehsal potensialını genişləndirir və məşğulluğu yüksəldir. Bu proses sosial təminatların genişlənməsi və rifahın artması ilə müşayiət olunur.

Bütün bunlar onu deməyə əsas verir ki, İlham Əliyevin liderliyi ilə həyata keçirilən Zəngəzur dəhlizi (TRIPP) təşəbbüsü yalnız Azərbaycan üçün deyil, Şərq və Qərb arasında iqtisadi əməkdaşlığın yeni bir modelini təqdim edir. Müasir infrastruktur, iqtisadi asılılıq və sabitlik birləşərək həm sülh, həm də inişafın əsasını yaradır. Bu yanaşma müasir iqtisadiyyatın və sülhün birləşən gücünü ortaya qoyur və regional inteqrasiya ilə daha geniş bir iqtisadi əməkdaşlıq modelinin əsası kimi çıxış edir.

Zəngəzur dəhlizi (Tramp yolu) bundan sonra da hələ uzun müddət sabitliklə iqtisadi inkişafın sintezini təmin edən dərin, inteqrasiya olunmuş strateji yanaşma kim öz əhəmiyyətini qoruyacaq. Prezident İlham Əliyevin iqtisadi inkişaf və sülh yönümlü liderliyi sayəsində bu yeni paradiqma güclənərək Cənubi Qafqazda və daha geniş bölgədə uzunmüddətli sabitlik və əməkdaşlıq dövrünə dəstək verəcək.

***Şaiq ADIGÖZƏLOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

# “Şahdəniz” yatağı – Xəzərin zəngin qaz xəzinəsi

## *6 ayda dənizin dibindən 14 milyard kubmetr qaz və 2 milyon ton kondensat çıxarılıb*

**Ölkəmizin mötəbər enerji tərəfdaşı kimi mövqeyinin güclənməsinə, Avropanın enerji xəritəsinin zənginləşməsinə xidmət edən “Şahdəniz” qaz-kondensat yatağının işlənməsi uğurla davam etdirilir. “BP-Azərbaycan” şirkətinin məlumatına görə, 2025-ci ilin yanvar-iyun aylarında “Şahdəniz” layihəsinin əməliyyat tədbirlərinə 1 milyard 282 milyon dollar, əsaslı məsrəflərinə isə 472 milyon dollar xərclənib. Həmin vəsaitin böyük əksəriyyəti hazırda fəal işlənmə mərhələsində olan “Şahdəniz-2” layihəsinə sərf olunub.**



Zəngin qaz və kondensat ehtiyatlarına görə seçilən “Şahdəniz” yatağında ötən müddətdə iki hasilat platforması quraşdırılaraq istismara verilib. Hazırda həmin qurğuların gündəlik hasilat gücü təxminən 77,2 milyon (ildə 28,2 milyard kubmetr) kubmetr təşkil edir. Bu ilin birinci yarısında “Şahdəniz Alfa” və “Şahdəniz Bravo” platformalarından, ümumilikdə, təqribən, 14 milyard kubmetr qaz və 2 milyon ton (təqribən 16 milyon barel) kondensat çıxarılıb.

“Şahdəniz” yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişinin iştirakçıları müqavilə sahəsinin genişliyi və ehtiyatların zənginliyini nəzərə alaraq yatağın bir neçə mərhələdə işlənməsi ilə bağlı qərar qəbul ediblər. Birinci işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin əvvəllərində, hasilata isə 2006-cı ilin sonlarında başlanılıb.

Yatağın ikinci işlənmə mərhələsi isə genişliyi, əhatəliyi, burada tətbiq olunan yüksək texnologiyalar baxımından seçilir. Bu mərhələ çərçivəsində qaz hasilatına 2018-ci ilin iyul ayının 30-da başlanılıb. Həmin gün yatağın şimal cinahındakı SDC03Z quyusunun istismara verilməsi ilə “Şahdəniz Bravo” platformasından ilk qaz əldə olunub. Sonrakı illərdə yeni quyuların istismara daxil edilməsi ilə burada hasilat artmağa başlayıb. 2022-ci ildə isə “Şahdəniz-2” layihəsi çərçivəsində daha bir uğura imza atan konsorsium iştirakçıları yatağın qərb-cənub cinahını da işlənməyə daxil ediblər.

2025-ci ilin ilk yarısını layihə üçün uğurlu hesab etmək olar. Bu dövrdə “Şahdəniz-2” layihəsi çərçivəsində yatağın qərb-cənub cinahından 5-ci quyunun işə salınması ilə yanaşı, qalan quyularda sualtı işlər üzrə fəaliyyətlər davam etdirilib. Bütün bu işlər isə “Xankəndi” sualtı tikinti gəmisi vasitəsilə həyata keçirilib. Burada əsas diqqət layihə üzrə qalan quyuların təhvil verilməsinə yönəlib. Gəmidən və qazma qurğularından səmərəli istifadəni təmin etmək məqsədilə fəaliyyətlərin optimallaşdırılması və quyuların işə salınması müddətinin sürətləndirilməsi üçün inteqrasiya olunmuş qrafik hazırlanıb. Həmin qrafikə uyğun olaraq ilin əvvəlindən gəmi vasitəsilə “Şahdəniz-2” və AÇG sualtı hasilat obyektlərinə texniki xidmət, yoxlama və müdaxilə ilə bağlı ümumi işlərə dəstək tədbirləri həyata keçirilib.

Fevralın 13-də bütün əlaqədar tikinti işləri və istismar sınaqları uğurla başa çatdırıldıqdan sonra yatağın şərq-şimal cinahından hasilata başlanıb. İyunun 19-da isə yatağın bu hissəsində daha bir quyu istismara daxil edilib. Bununla da, “Şahdəniz-2” layihəsinə daxil olan 5 sualtı işlənmə cinahının əhatə etdiyi bütün sualtı infrastrukturun – boru kəmərləri, hasilat manifoldları, sualtı elastik kabellər və birbaşa elektrik isitmə sisteminin təhvili uğurla başa çatdırılıb.

2025-ci ilin yanvar-iyun aylarında layihə iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. Bu məqsədlə “Şahdəniz Alfa” platformasının qazma qurğusu yenidən fəal iş rejiminə qaytarılıb. İkinci rübdə “İstiqlal” qurğusu yatağın qərb-cənub cinahında SDF04 quyusunda qazma işləri həyata keçirib. Heydər Əliyev qazma qurğusu isə şərq-şimal cinahında SDH04 quyusunun qazma işlərini davam etdirib. Ümumilikdə, “Şahdəniz-2” layihəsi çərçivəsində indiyədək 22 quyu qazılaraq istismara verilib. Həmin quyuların 5-i yatağın şimal, 5-i qərb, 4-ü şərq-cənub, 5-i qərb-cənub, 3-ü isə şərq-şimal cinahlarında qazılıb.

Xatırladaq ki, “Şahdəniz” yatağından hasil edilən qaz sualtı infrastruktur vasitəsilə Səngəçal terminalına nəql olunur. Buradakı mövcud qurğular isə qazı qəbul edərək Cənubi Qafqaz boru kəmərinə (CQBK) ötürür. İlin ilk altı ayı ərzində CQBK-nin ixrac üçün gündəlik orta ötürücülük gücü 62,4 milyon kubmetr olub. Hesabat dövründə boru kəmərinin səmərəli idarə edilməsi məqsədilə yaradılmış şirkətin səhmdarları tərəfindən CQBK-nin əməliyyat tədbirlərinə təqribən 36 milyon dollar, əsaslı məsrəflərinə isə 12 milyon dollar xərclənib.

2006-cı ilin sonlarında istismara verilmiş Cənubi Qafqaz boru kəməri (CQBK) isə “Şahdəniz” qazını Azərbaycan, Gürcüstan və Türkiyəyə nəql edir. Ötən müddətdə Türkiyəyə və Avropadakı alıcılara daha çox qaz çatdırmaq məqsədilə kəmərin imkanları xeyli genişləndirilib. Genişləndirilmiş Cənubi Qafqaz boru kəməri sistemi ilə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabr ayında başlanılıb.

Bu il “Şahdəniz” qaz yatağının işlənməsinin növbəti mərhələsinə start verilib. Bu mərhələdə müqavilə sahəsində nəhəng kompressor qurğusunun inşası nəzərdə tutulur. “Şahdəniz Kompressiya” (ŞDK) adlandırılan bu layihə üçün Ətraf Mühitə və Sosial-İqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi sənədi üzrə ictimaiyyətlə məsləhətləşmələrin müddəti aprel ayında başa çatdırılıb. Mayda isə sənəd Azərbaycan hökuməti tərəfindən təsdiqlənib. Bunun ardınca, iyunun 3-də Şahdəniz konsorsiumu ŞDK layihəsi üçün yekun investisiya qərarını elan edib.

2,9 milyard ABŞ dolları dəyərində olan ŞDK layihəsində məqsəd yataqdakı aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatını təmin etmək və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Sözügedən layihənin yataqdan, təxminən, 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir.

Layihə çərçivəsində yeni bir kompressiya obyektinin – elektriklə işləyən, heyətsiz kompressiya platformasının inşası nəzərdə tutulur. Bundan əlavə, bu mərhələdə “Şahdəniz” müqavilə sahəsində bir sıra əlaqədar obyektlərin quraşdırılması, eləcə də hasilat platformalarında və Səngəçal terminalında mövcud infrastruktur üzərində bir sıra işlərin aparılması planlaşdırılır. 2025-ci ilin sonlarında başlanacaq tikinti işləri 2029-cu ildə yekunlaşdırılacaq. ŞDK platforması həmin ildə “Şahdəniz Alfa”-dan, növbəti ildə isə “Şahdəniz Bravo”dan hasil edilən qaz həcmlərini kompressiya etmək üçün hazır olacaq.

# Azərbaycanın investisiya imkanları yüksəlir

## *I yarımildə əsas kapitala 9,9 milyard manat yatırılıb*

**Son illərdə Azərbaycan iqtisadi siyasətində əsas istiqamətlərdən biri də biznes və investisiya mühitinin köklü şəkildə yaxşılaşdırılması, sahibkarlığın inkişafı üçün daha əlverişli şəraitin yaradılması olub. Bu məqsədlə həyata keçirilən sistemli islahatlar, qəbul edilən qanun və normativ aktlar, institusional mexanizmlərin təkmilləşdirilməsi ölkənin yatırım cazibədarlığını artırmaqla yerli və xarici investorlar üçün yeni imkanlar açıb.**



Bütün bu istiqamətlərdə reallaşdırılan layihələr ölkədə investisiya yatırımına müsbət təsir göstərib. Məsələn, Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar – iyul aylarında respublikada əsas kapitala 9 milyard 912 milyon manat (ötən ilin eyni dövrü ilə müqayisədə 3,4 faiz çox) investisiya yönəldilib. Son 1 ildə isə neft-qaz sektoruna investisiyalar 18,4 faiz azalsa da, qeyri-neft-qaz sektoruna investisiyalar isə 15 faiz çoxalıb. Hesabat dövründə istifadə olunmuş investisiyanın 5 milyard 46 milyon manatı (51 faiz) məhsul istehsalı, 3 milyard 335 milyon manatı (34 faiz) xidmət sahələrinə, 1 milyard 531 milyon manatı (15 faiz) isə yaşayış evlərinin tikintisinə sərf olunub.

Bu göstəricilərin əldə edilməsi səbəblərindən danışarkən, ilk növbədə, onu xatırladaq ki, Azərbaycan hökuməti ötən illərdə investorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığının təmin edilməsi və biznes fəaliyyətinin hüquqi zəmanətlərinin möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atıb. “İnvestisiya fəaliyyəti haqqında” və “Xarici investisiyaların qorunması haqqında” qanunların qəbulu bu sahədə hüquqi əsasların möhkəmləndirilməsinə xidmət edib, yerli və xarici sahibkarlara eyni hüquqların tanınmasını, bərabər rəqabət mühitinin yaradılmasını və investisiyaların qorunmasını gerçəkləşdirib. Bundan başqa, mübahisələrin operativ həlli üçün yaradılmış apelyasiya şuraları sahibkarların qarşılaşdığı inzibati maneələrin tez bir zamanda aradan qaldırılmasını, dövlət orqanları ilə biznes sektoru arasında etimad mühitinin möhkəmlənməsini şərtləndirib.

Prezident İlham Əliyevin biznes fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılmasını və mövcud prosedurların sadələşdirilməsini nəzərdə tutan 2 noyabr 2015-ci il tarixli fərmanına əsasən, dövlət təhlükəsizliyi ilə bağlı hallar istisna olmaqla, bütün lisenziyalar “ASAN xidmət” mərkəzləri vasitəsilə verilməyə başlanılıb. Bu yenilik sahibkarların vaxt və resurs itkilərini minimuma endirib, həmçinin lisenziyalaşmada şəffaflıq və operativliyi artırıb.

Azərbaycanda biznes qeydiyyatı və idarəetmə mexanizmlərində “bir pəncərə” sistemi hazırda uğurla tətbiq olunur. Sahibkarlıq subyektlərinin qeydiyyatı, vergi bəyannamələri təqdimatının sadələşdirilməsi və digər əsas prosedurlar elektron platformalara inteqrasiya edilib, fiziki və hüquqi şəxslərin sahibkarlıq fəaliyyətinin onlayn şəkildə qeydiyyatdan keçirilməsi, vergi öhdəliklərini elektron şəkildə yerinə yetirilməsi müsbət nəticələrlə diqqət çəkir. Nazirlər Kabinetinin qərarı ilə elektron imzanın alınma müddətinin 2 gündən 1 günə endirilməsi də biznesin sürətli qeydiyyatı üçün mühüm addımdır. Bu, xüsusilə kiçik və orta sahibkarlıq subyektləri üçün zaman və maliyyət baxımından ciddi üstünlük yaradır.

Qeyd edək ki, 2015-ci ilin oktyabrında Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının yaradılması respublikada logistika sektorunun inkişafında yeni mərhələ açıb. Şuranın səmərəli fəaliyyəti nəticəsində ölkə ərazisindən dəmir yolları, dəniz nəqliyyatı, limanlar və terminallar vasitəsilə daşınan tranzit yüklərin vahid idarəetmə mexanizmi ilə koordinasiyası gerçəkləşdirilib. “Bir pəncərə” prinsipi burada da tətbiq olunaraq, yükdaşımaların sürəti artırılıb, inzibati prosedurlar minimuma endirilib. Eyni zamanda, “Tikinti layihələrinin ekspertizadan keçirilməsi Qaydaları”na uyğun olaraq, tikinti layihələrinin ekspertizasının da “bir pəncərə” prinsipi ilə gerçəkləşdirilməsi sayəsində inşaat sektorunda şəffaflığın və operativliyin səviyyəsi yüksəlib.

“İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası” ilə Vergi Məcəlləsində və “Gömrük tarifi haqqında” Qanunda bir sıra əhəmiyyətli güzəştlər müəyyənləşdirilib. Bununla da investisiya təşviqi sənədini alan hüquqi şəxslər və fərdi sahibkarlar mənfəət və gəlirin 50 faizinin vergisini, əmlaka görə əmlak vergisini və mülkiyyətində və ya istifadəsindəki torpaqlara görə torpaq vergisini, həmçinin idxala yönəldilən texnika, texnoloji avadanlıqlar, habelə qurğular üzrə əlavə dəyər vergisini ödəməkdən 7 il müddətinə azad edilib.

Bütün bu tədbirlər nəticəsində Azərbaycan beynəlxalq biznes reytinqlərində mövqelərini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Dünya Bankının “Doing Business” hesabatında ölkəmiz ən çox islahat aparan dövlətlər sırasında yer alıb. İnvestorların cəlb olunması sahəsində əldə edilən uğurlar isə iqtisadiyyatın şaxələndirilməsi strategiyasının məntiqi nəticəsinə çevrilib.

Elektron xidmətlərin və rəqəmsal idarəetmə mexanizmlərinin geniş tətbiqi ilə biznes mühitində qeyri – rəsmi iqtisadiyyatın həcmi azalıb, dövlət – biznes münasibətlərində şəffaflıq yüksəlib. Nəticədə həm dövlət büdcəsinə əlavə gəlir gəlib, həm də rəqabət qabiliyyətli sahibkarlıq mühitinin formalaşması güclənib.

Bütün bu tədbirlər deməyə əsas verir ki, Azərbaycanda investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi daim diqqətdə saxlanılır. Bu istiqamətdə qarşıya qoyulan əsas hədəflər sərmayə qoyuluşlarının artırılması, sahibkarların ixrac potensialının gücləndirilməsi, investisiya imkanlarının genişləndirilməsi, potensial tərəfdaşların tapılması və birgə əməkdaşlıq layihələrinin həyata keçirilməsidir. Hədəflər isə son nəticədə yüksək göstəriciləri şərtləndirir.

Beləliklə, Azərbaycanda biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatlar ardıcıllıq və davamlılıq prinsipi əsasında icra olunur. Hüquqi bazanın möhkəmləndirilməsi, inzibati prosedurların sadələşdirilməsi, elektron xidmətlərin tətbiqi, logistika və infrastrukturda “bir pəncərə” mexanizminin genişləndirilməsi ölkəni regionun investisiya mərkəzlərindən birinə çevirir. Bu siyasət gələcək illərdə də davam etdirilərək, respublikanın iqtisadi inkişaf strategiyasının əsas dayaq sütunlarından biri olaraq qalacaq.



# Bakı Limanında rekord yük aşırımı

## *7 ayda 60 min 429 konteyner qəbul edilib*

**2025-ci ilin yanvar-iyul ayları ərzində “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Bakı Beynəlxalq Dəniz Limanı vasitəsilə konteyner dövriyyəsinin həcmi rekord səviyyəyə çatıb. Bu barədə XQ-yə “Azərbaycan Dəmir Yolları” QSC- dən məlumat verilib.**

Bildirilib ki, ilin ötən 7 ayında Bakı Limanı vasitəsilə aşırılan konteyner həcmi 60 min 429 TEU təşkil edib. Bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 54,2 faiz artım deməkdir. Müqayisə üçün bildiririk ki, ötən ilin yanvar-iyul aylarında bu göstərici 39 min 184 TEU ekvivalentinə bərabər olub.

Regionun ən müasir logistika mərkəzi olan Bakı Limanında müşahidə olunan bu pozitiv dinamikanın ilin sonuna qədər davam edəcəyi və göstəricilərin daha da artaraq 100 min TEU təşkil edəcəyi proqnozlaşdırılır. Qeyd edək ki, ölkəmizin tranzit gücünün artırılması məqsədilə Bakı Limanının “Azərbaycan Dəmir Yolları” QSC ilə inteqrasiyasından sonra limanın illik gücü hər hansı investisiya yatırılmadan qısa müddətdə 100 min TEU-dan 150 min TEU-ya yüksəldilib.

# 7 ayda büdcə gəlirləri proqnozu üstələyib



**Maliyyə Nazirliyinin məlumatına əsasən, 2025-ci ilin yanvar-iyul aylarında dövlət büdcəsinin reallaşmasında müsbət dinamika müşahidə olunub. Belə ki, bu müddətdə 846 mindən çox ödəniş tapşırığı icra edilib və gəlirlərin icrasında yüksək göstəricilər qeydə alınıb.**

Hesabat dövründə büdcənin gəlirləri 23 milyard 481 milyon manat (proqnozdan 707,9 milyon manat və ya 3,1 faiz çox) olub. Gəlirlərdə Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar 10 milyard 561 milyon manata (proqnozdan 598 milyon manat və ya 6 faiz çox), Əmlak Məsələləri Dövlət Xidməti üzrə daxilolmalar 26,9 milyon manata (proqnozdan 6,9 milyon manat və ya 34,4 faiz çox) və Dövlət Neft Fondundan transfert isə 8 milyard 447 milyon manata (proqnoza qarşı 100 faiz) yüksəlib.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

*Konstitusiya və Suverenlik İli*

# Suverenliyin bərpası və hüququn aliliyi

**Bu il ölkəmizdə müstəqillik dövrünün iki mühüm tarixi hadisəsi – müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunmasının 30 ili və torpaqlarımızın azadlığa qovuşması nəticəsində Əsas Qanunumuzun bütün ölkə ərazisində hüququnun bərpasının 5 ili qeyd edilir. Bu baxımdan Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması müasir Azərbaycan dövlətçiliyinin inkişaf yolunda, hüquqi dövlətçilik və suverenlik prinsiplərinin möhkəmləndirilməsində mühüm hadisədir.**




1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Respublikasının ilk milli Konstitusiyası müstəqil dövlətimizin siyasi, iqtisadi və hüquqi əsaslarını fundamental sənəd olaraq müəyyənləşdirdi. Eyni zamanda, bu sənəd Azərbaycan xalqının müstəqilliyinin bərpasından sonra dövlət idarəçiliyinin hüquqi çərçivələrini, vətəndaşların hüquq və azadlıqlarını, dövlətin quruluş əsaslarını təsbit etdi.

Konstitusiya qəbul edilən dövrdə yenicə müstəqillik qazanan respublikamızda daxili sabitlik və milli təhlükəsizlik təhlükəli həddə idi. Buna baxmayaraq, ulu öndər Heydər Əliyevin siyasi iradəsi və liderlik bacarığı sayəsində Azərbaycanın dövlətçilik dayaqları getdikcə möhkəmlənir, hüquqi sistem qurulur, demokratik inkişaf üçün əlverişli zəmin yaranırdı.

Yeri gəlmişkən, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev hüquqi dövlətçiliyi və qanunun aliliyini dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyənləşdirdi. Dahi şəxsiyyətin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində məhkəmə-hüquq sistemi yenidən quruldu, hüquq-mühafizə orqanlarının fəaliyyəti hüquqi dövlət tələblərinə uyğunlaşdırıldı. 1995-ci il Konstitusiyası isə bu siyasətin ən mühüm nəticələrindən biri idi. Ulu öndər bu sənədi Azərbaycan dövlətçiliyinin hüquqi əsası adlandıraraq, gələcək islahatların məhz Konstitusiyanın prinsipləri üzərində qurulacağını bəyan etdi.

Ümumiyyətlə, Əsas Qanunun qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biri idi. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəd idi.

Ulu öndərimiz əmin idi ki, demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığın, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya mühüm önəm daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Əsas Qanunun rolu da qat-qat artır. Bu bir həqiqətdir ki, müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul olunması ilə Azərbaycanın tarixi inkişafının yeni bir mərhələsi başlandı. Dahi şəxsiyyət, eyni zamanda, hüquqi islahatları yalnız qanunvericiliklə məhdudlaşdırmadı, həm də hüquq-mühafizə orqanlarının peşəkarlığının artırılmasına, vətəndaş-məmur münasibətlərində qanunçuluğun əsas prinsip kimi möhkəmlənməsinə nail oldu.

Xatırladaq ki, Konstitusiya qəbul edilən gün – noyabrın 12-də respublika parlamentinə ilk dəfə çoxpartiyalı sistem əsasında demokratik seçkilər keçirildi. Əsas Qanunun milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, Ulu öndərin 1996-cı il 1 noyabr tarixli Fərmanına əsasən, hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başlandı.

Müstəqil Azərbaycanın Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarının gerçəkləşdirilməsini dövlətin ali məqsədi kimi bəyan etdi. Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları qarşısına ümdə vəzifə kimi qoydu.

Şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm və insanpərvərlik prinsipləri Konstitusiyasının əsas prioritetləri idi. 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət Əsas Qanunda insan hüquq və azadlıqlarına geniş yer verilməsi isə ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisi kimi diqqət çəkdi.

Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə ötən illər ərzində məhkəmə – hüquq sisteminin müasir tələblərə uyğunlaşdırılması üçün ardıcıl və sistemli islahatlar həyata keçirilib. Konkret ifadə etsək, məhkəmə hakimiyyətində müstəqilliyin möhkəmləndirilməsi, vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının artırılması, şəffaf və sürətli məhkəmə prosedurlarının tətbiqi istiqamətində mühüm addımlar atılıb.

Bu çərçivədə elektron məhkəmə platformalarının istifadəsi, hakimlərin seçilməsində şəffaf prosedurlar, məhkəmə infrastrukturunun yenilənməsi kimi layihələr diqqət mərkəzində saxlanılıb. Bundan başqa, vətəndaşların hüquqlarının qorunması sahəsində beynəlxalq standartlara uyğun qanunvericilik islahatları aparılıb, insan hüquqları və azadlıqlarının təminatı istiqamətində mühüm addımlar atılıb. Ölkənin 50-yə yaxın məhkəmə binası yenidən tikilib və ya əsaslı təmir edilib. Bu məqamda onu da qeyd edək ki, 2020-ci ildə əldə olunan tarixi Qələbə nəticəsində Azərbaycanın ərazi bütövlüyü və konstitusion hüquqları tam bərpa olundu.

Bu, yalnız hərbi-siyasi qələbə deyildi, həm də hüquqi dövlət prinsipinin – yəni Konstitusiyanın respublikamızın bütün ərazilərində qüvvədə olmasının təminatı idi. Prezident İlham Əliyev bu məsələnin böyük əhəmiyyətini vurğulayaraq tarixi Zəfərimizdən sonrakı çıxışlarının birində – "Biz yalnız torpaqlarımızı azad etmədik, həm də Konstitusiyamızın aliliyini bütün ölkə ərazisində reallaşdırdıq" – bildirirdi. Ümumiyyətlə, İkinci Qarabağ savaşı milli suverenliyin bərpası ilə yanaşı, dövlət idarəçiliyi, məhkəmə və hüquq sisteminin vahid hüquqi çərçivədə fəaliyyətinin gerçəkləşməsi baxımından tarixi dönüş nöqtəsi oldu.

Yeri gəlmişkən, 2021–2024-cü illərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında 5 yeni məhkəmə binası tikilib. Bu ərazilərdə dövlət orqanlarının fəaliyyəti ilə bərabər, seçki, məhkəmə, sosial təminat və yerli idarəetmə sistemi vahid hüquqi çərçivədə bərpa olunub.

"Konstitusiya və Suverenlik İli"ndən danışarkən, bir məsələni də xatırlatmağa zəruri ehtiyac var. Belə ki, son illərdə məhkəmə-hüquq sistemində gerçəkləşdirilən layihələrdə Ali Məhkəmənin rolu xüsusi diqqət çəkir. Ali Məhkəmənin Plenumunun qərarları, habelə məhkəmə təcrübəsinə dair verdiyi izahlar nəticəsində məhkəmələr tərəfindən maddi və prosessual hüquq normalarının tətbiqində sabitlik, vahid məhkəmə təcrübəsinin formalaşdırılmasında irəliləyiş əldə edilmişdir.

Ali Məhkəmə sədrinin rəhbərliyi ilə bu orqanda vətəndaş məmnunluğuna yönələn idarəçilik modeli formalaşdırılıb, məhkəmə qərarlarının əsaslandırılması və icra mexanizmləri təkmilləşdirilib. Məhkəmə proseslərinin rəqəmsallaşdırılması, hüquqi maarifləndirmə tədbirlərinin genişləndirilməsi və hakimlərin peşə hazırlığının artırılması istiqamətində əhəmiyyətli addımlar atılıb, ölkəmizdə ədalət mühakiməsinin keyfiyyətinin yüksəlməsinə nail olunub.

29 mart 2024-cü ildə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliklər məhkəmələrin fəaliyyətində Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərini genişləndirmiş, məhkəmə hakimiyyətinin və hakimlərin müstəqilliyinə rəvac vermişdir. 09 iyun 2023-cü ildə "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliklərdən sonra Məhkəmə-Hüquq Şurasının hakim üzvlərinin sayı 10 nəfərə çatdırılmış, bununla da Məhkəmə-Hüquq Şurasının üzvləri arasında hakimlərin sayı üstünlük təşkil etmişdir.

Respublikamızda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması dövlət orqanları, vətəndaş cəmiyyəti institutları və media üçün hüquqi dövlətçilik, vətəndaş hüquqları, milli suverenlik, eləcə də demokratik dəyərlərin təbliği baxımından geniş imkanlar yaradır. Hazırda nəzərdə tutulan tədbirlərin icrası həm ölkə vətəndaşlarının hüquqi maarifləndirilməsinə, həm də Azərbaycanın beynəlxalq imicinin möhkəmləndirilməsinə böyük töhfə verir.

Azərbaycan dövləti üçün hüququn aliliyi və milli suverenlik prinsipləri dəyişməz strateji xətt olaraq qalır. Ona görə də ölkəmiz Konstitusiyanın və qanunların aliliyini gerçəkləşdirməklə müasir, demokratik, ədalətli və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyir.

***Zaur PİRVERDİYEV,***
***İmişli Rayon Məhkəməsinin sədri***

**Xuntaçıların məhkəməsi**

# Erməni vəhşiliklərinin qurbanları məhkəmədən ədalət tələb edirlər





**Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi avqustun 12-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında təqsirləndirilən Ruben Vardanyanın vəkili Avraam Berman məhkəməyə müraciət edərək, cinayət işi üzrə ittiham aktının rus dilinə olan tərcüməsində bir sıra ziddiyyətli məqamların olduğu üçün məhkəmə-linqvistik ekspertizasının keçirilməsinə dair vəsatət təqdim edib. R.Vardanyan vəsatəti müdafiə edib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətə münasibət bildirərək deyib ki, müdafiə tərəfinin ziddiyyətli hesab etdiyi hallar müvafiq ekspertizanın predmeti deyil. Ona görə də vəsatət təmin olunmamalıdır.

Prosesdə iştirak edən zərərçəkmiş şəxslər etirazın təmin olunmamasını məhkəmədən xahiş ediblər. Müşavirədən sonra vəsatət təmin olunmayıb. Bundan sonra müdafiəçi A.Berman işə baxan hakimlər kollegiyasına etiraz edib. Zeynal Ağayev bildirib ki, müdafiə tərəfi dəfələrlə eyni məzmunlu etirazlar təqdim edib, hazırkı etirazda da yeni hal yoxdur. Bu səbəbdən etiraz müzakirəyə çıxarılmayıb.

Daha sonra məhkəmədə zərərçəkmiş şəxslərin və zərərçəkmişlərin hüquqi varislərinin ifadələri dinlənilib. Şəhid Həmid Həmidlinin otağı Əlisahib İsgəndərov övladının Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu deyib. Şəhid Şəmistan Yusiflinin atası Şükran Əmənov isə övladının Ağdərə istiqamətində düşmən tərəfindən açılmış atəş nəticəsində həyatını itirdiyini söyləyib. Şəhid Mehdi Abbasovun atası Əmrah Abbasov da övladının düşmən tərəfindən açılmış atəş nəticəsində həlak olduğunu bildirib.

Zərərçəkmiş Anar Əsgərov Ağdamda "sürpriz mina"nın partlaması nəticəsində yaralandığını qeyd edib. Ruhid Hacəzadə Xocavənd rayonunda Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən basdırılmış minanın partlaması nəticəsində xəsarətlər aldığını diqqətə çatdırıb. Ceyhun Qurbanov deyib ki, Ağdam rayonunun Şıxlar kəndində düşmən tərəfindən basdırılmış minaya düşməsi nəticəsində yaralanıb.

Əli Mikanayev Hadrutda düşmən tərəfindən açılmış atəş nəticəsində yaralandığını vurğulayıb. Elman Süleymanov Şuşa rayonunun Xəlfəli kəndində qarşı tərəfdən açılmış atəşlər nəticəsində xəsarətlər aldığını qeyd edib. Rəhman Quliyev Xocavənd istiqamətində düşmən tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşərək partlaması nəticəsində kəllə-beyin travması aldığını söyləyib.

Elmin Alıyev Ağdərədə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəş, Abduləli Qurbanov Ağdərədə düşmən tərəfindən atılmış mərminin partlaması, Kamran Cəbrayılov düşmən tərəfindən atılmış minaatan mərmisinin yaxınlığına düşərək partlaması, Mehman Quliyev Şuşa şəhərində düşmənin açdığı snayper atəşi nəticəsində yaralandıqlarını deyiblər.

Zərərçəkmiş digər şəxslər Səbuhi Novruzlu, Zamin Cahangirzadə, Ceyhun Abbasov, Nicat Göyüşov və Eşqin Babazadə Ağdərədə, Hüseynalı Mehdiyev Xocalıda, Nurlan Məmmədov Ağdamda, Niyaməddin Allahverdiyev Füzulidə Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış atəşlər nəticəsində yaralandıqlarını bildiriblər. Nemət Məmmədov ifadəsində Ağdam rayonunun Sarıcalı kəndində düşmənin basdırdığı minanın partlaması nəticəsində yaralandığını vurğulayıb.

Məhkəmənin növbəti iclası avqustun 19-na təyin olunub.

***XQ***

# Məcburi köçkünlərin müraciətləri dinlənilib



**Avqustun 12-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev vətəndaşlarla görüşüb və onların müraciətlərini dinləyib.**

Müraciətlər əsasən işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış", köçürülmənin prinsipləri, sorğularda iştirak, məşğulluq, müvəqqəti məskunlaşma yerlərində mənzil-məişət şəraitinin yaxşılaşdırılması, kommunal xidmətlər, status, vahid aylıq müavinət və digər məsələlərlə əlaqədar olub.

Görüşdə vətəndaşların qaldırdıqları məsələlərin araşdırılaraq qanunvericilik çərçivəsində həll ediləcəyi qeyd olunub.

***XQ***

# XRİTDX-nin 7 aylıq hesabatı




**Cari ilin yanvar-iyul ayları ərzində Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) tərəfindən aparılan monitorinq və analizlər nəticəsində 573 kiberhücum indikatoru müəyyən edilib.**

Sözügedən kiberhücum indikatorlarının bloklanması nəticəsində dövlət qurumlarına qarşı hazırlanmış və xüsusi hədəflənmiş APT ("Advanced Persistent Threat") kiberhücumların qarşısı alınıb. Müəyyən edilmiş indikatorlardan 206-sı xidmətin daxili araşdırmaları, 367-si isə dövlət qurumlarının müraciətləri əsasında aşkarlanıb.

XRİTDX-nin daimi nəzarəti altında fəaliyyət göstərən dövlət elektron poçt xidməti üzrə bu ilin 7 ayı ərzində 7 milyon 455 min 124 elektron poçt emal olunub. Onlardan 6 milyon 103 min 281-i təhlükəsiz olduğundan istifadəçilərə çatdırılıb, 1 milyon 351 min 843-ü isə zərərli tərkibli müəyyən edilərək bloklanıb.



# ABŞ Prezidenti 33 illik ədalətsizliyə son qoydu

**Erməni lobbisinin təşəbbüsü ilə 1992-ci ildə ABŞ Konqresinin Azadlığa Dəstək Aktına ediyi 907-ci düzəliş, əslində, həmin vaxt Ermənistanın təcavüzünə məruz qalan Azərbaycana qarşı görünməmiş tarixi ədalətsizlik idi. Həmin düzəliş Azərbaycana ABŞ-ın birbaşa dövlət yardımını qadağan etməklə ölkəmizi Ermənistanın qarşısında zəiflətməyə və təcavüzə dəstək verməyə yönəlmişdi.**

Bu ədalətsizlik o zaman edilmişdi ki, Qərbi Azərbaycandan – indiki Ermənistandan və Qarabağ ərazisindən yüz minlərlə azərbaycanlı vəhşicəsinə qovulmuş və ölkə böyük bir qaçqın və məcburi köçkün axını ilə üzbəüz qalmışdı. Ən pisi də o idi ki, bu düzəliş sonralar vaxtaşırı Azərbaycana qarşı təsir vasitəsi kimi də istifadə edilmişdi.

Heç şübhəsiz, Prezident İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına səfəri, bu səfər çərçivəsində Vaşinqtonda keçirilən görüşlər, sərgilənən davranışlar, aparılan danışıqlar, imzalanan sənədlər Azərbaycan diplomatiyasının tarixi uğuru olmaqla yanaşı, həm də dövlət başçımızın siyasi iradə və qətiyyətinin təntənəsi oldu. Bu səfərin detallarını hələ uzun müddət beynəlxalq siyasətçilər incələyəcək, təhlil edəcək, öyrənəcəklər.

Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycan Ordusunun, xalqının və dövlətinin 44 gün ərzində döyüş bölgəsində qazandığı Zəfəri siyasi müstəvidə bir daha təkrar etdi. O, 44 gün ərzində beynəlxalq aləmə ədalətli müharibə aparmaq təcrübəsi göstərmişdi, indi də dünyaya ədalətli sülh dərsi verdi.

Azərbaycan–ABŞ münasibətlərində keçmişin xoşagəlməz mirası olan 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə ABŞ Prezidentinin Azərbaycan lideri ilə görüş çərçivəsində qərar verməsi bu səfərin mühüm uğurları sırasındadır. Təsadüfi deyil ki, avqustun 8-də Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində Prezident İlham Əliyev bu məsələyə xüsusi diqqət yetirdi. O bildirdi: "Azərbaycanın hazırda belə bir xarici dəstəyə, xarici yardıma ehtiyacı yoxdur. Bizim iqtisadiyyatımız sabitdir. Bizim, yəni dövlətin xarici borcu ümumdaxili məhsulun 7 faizindən də aşağıdır. Biz özümüzü donor ölkəyə çevirmişik. Beləliklə, rəmzi bir xarakter daşıyan bu düzəliş ləğv olundu. Bu ədalətsizlik artıq aradan qaldırılıb və ədalət bərpa olunub. Bu, bizim üçün Prezident Tramp tərəfindən siyasi bir jest oldu".

Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampın 907-ci düzəlişi ləğvi ilə bağlı bir incə məqamı da qeyd etdi: "Bu ədalətsiz düzəlişin ləğv edilməsi və bunu məhz öz ofisində mənim iştirakım ilə etməsi böyük bir rəmzi xarakter daşıyır. Onu başqa bir formatda da edə bilərdi, sonra imzalaya bilərdi. Amma o, mənim iştirakım ilə bunu etməyə qərar vermişdi".

Beləliklə, ABŞ Prezidenti bu hərəkəti ilə uzun müddət Azərbaycana qarşı ədalətsiz mövqe tutmuş dövlət və siyasət adamlarına da lazımi mesajını vermiş oldu.

*Əziz ƏLƏKBƏRLİ,*
*Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri,*
*Milli Məclisin deputatı*

# Zəfərin yaratdığı gerçəklik sülh prosesinin təməlidir

**"Avqustun 8-də Vaşinqtonda "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"lə bağlı əldə edilmiş əsaslı razılaşma Vətən müharibəsində qazanılmış möhtəşəm Zəfəri diplomatik və hüquqi cəhətdən tamamlayan tarixi nəticə olmaqla Prezident İlham Əliyevin liderliyilə yalnız Azərbaycan üçün deyil, bütün Cənubi Qafqaz regionu və qlobal sabitlik üçün strateji əhəmiyyət daşıyan tarixi bir sənəddir". Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova XQ-yə bu açıqlamasının davamında bildirdi:**

– İlk növbədə, qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin müstəqil dövlətçilik məntiqindən qaynaqlanan liderlik strategiyasının əsas məqsədi apardığı ədalətli müharibə və onun nəticələrinin möhkəmləndirilməsi işində yalnız qələbə qazanmaq deyil, həm də regionda davamlı sülh və əməkdaşlıq mühiti yaratmaq olmuşdur. Məhz bu baxış əsasında Azərbaycan tərəfi münaqişədən dərhal sonra sülh təşəbbüsü ilə çıxış edərək beynəlxalq hüquqa əsaslanan 5 bənddən ibarət gündəlik irəli sürdü.

Postmünaqişə dövründə tərəflər arasında münasibətlərin yeni mərhələyə keçməsini təmin edən sazişin əsas müddəalarına ümumiləşmiş şəkildə nəzər salsaq görərik:

– Ermənistan Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıyır, gələcəkdə bu kontekstdə heç bir iddia irəli sürməyəcəyini öhdəsinə götürür (maddə I və II).

– Tərəflər güc tətbiqindən və daxili işlərə müdaxilədən tamamilə çəkinməyi öhdəlik kimi qəbul edirlər (maddə III və IV).

– 30 ilə yaxın fasilədən sonra diplomatik kanalların rəsmi bərpası sülhün institusional təməlinin formalaşmasına şərait yaradır (maddə V).

– Müvafiq komissiyalar vasitəsilə dövlət sərhədlərinin hüquqi qeydiyyatı və sabitliyin təmin olunması öhdəlik altına alınır (maddə VI və VII).

– Humanitar məsələlərin həlli və etimadın bərpası (maddə XI) və s.

Azərbaycanın sərgilədiyi prinsipial və hüquqa əsaslanan yanaşma təkcə Cənubi Qafqaz üçün deyil, bütövlükdə Avrasiya regionu üçün sülh modelinə çevrilmək potensialına malikdir. Bu baxımdan Sülhün təmin olunması daxili siyasi iradənin və strateji ardıcıllığın nəticəsi olmaqla Prezident İlham Əliyevin liderliyində sistemli yanaşmanın nailiyyətidir.

Bu siyasətin uğurunun regionun lider dövləti, sülh prosesinin təşəbbüskarı və əsas aktoru kimi Azərbaycanın yerini regional və qlobal miqyasda möhkəmləndirdiyini vurğulayan Bahar Muradova, həmçinin bildirdi:

– Xüsusilə vurğulamaq lazımdır ki, ABŞ Prezidenti Donald Trampın iştirakı və evsahibliyində paraflanan Sülh Sazişinin təxirəsalınmadan icrası regionda yeni nəqliyyat dəhlizlərinin reallaşmasına, iqtisadi və ticari əlaqələrin genişlənməsinə, enerji və logistika infrastrukturunun Cənubi Qafqazda yenidən qurulmasına zəmin yaratmaqla regional və qlobal miqyasda inkişafa və sülhə təkan verəcəkdir.

Bundan əlavə, humanitar və mədəni sahələrdə əməkdaşlıq imkanları bölgədə xalqlar arasında inam və etimadın qurulmasına, qarşılıqlı hörmətin artmasına xidmət edəcəkdir. Azərbaycan Prezidentinin rəhbərliyi ilə reallaşan bu iradə, XXI əsrdə dövlətlərarası münasibətlərdə hüquqa əsaslanan yanaşmanın, ədalətli və inklüziv sülh modelinin real tətbiqi nümunəsi kimi tarixə düşür.

*Hazırladı: Zərifə HÜSEYNOVA*
*XQ*

*Qafar Cəbiyev – 75*

# Yeraltı tariximizi üzə çıxaran alim

**Bugünlərdə ölkənin elmi-mədəni ictimaiyyəti ömrünün ahıl çağında da gənclik həvəsi ilə yorulmadan çalışan, ardıcıllarını yetişdirən fədakar arxeoloq professor Qafar Cəbiyevin anadan olmasının 75 illik yubileyini dərin ehtiram və sevgi-sayğı ilə qeyd edir, alimin çoxillik axtarışlarını, zəngin elmi yaradıcılığını qədirbilənliklə dəyərləndirir, ona səmimi təbriklərini, xoş arzularını çatdırırlar.**



Tarix xalqın qan yaddaşı, kimliyi, keçmişi və gələcəyidir. Maddi mədəniyyət tarixinin əsrlərin, minilliklərin o tayında, torpağın dərin qatlarında uyuyan ən qədim dövrü, təbii və antropogen təsirlər nəticəsində itib-batmaq, yox olmaq təhlükəsi ilə üz-üzə qalan qədim qalalar, şəhərlər, məzarlıqlar, müqəddəs məkanlar məhz arxeoloq alimlərin fəhmi, zəhməti və səriştəsi sayəsində gün işığına çıxarılır, elmi cəhətdən dəyərləndirilir, xalqın mənəvi sərvətinə çevrilir. Belə bir ağır və şərəfli missiyanı çiynində daşıyan görkəmli alimlərimizdən biri də tarix elmləri doktoru Qafar Cəbiyevdir.



Professor Qafar Cəbiyev Azərbaycanın bir çox orta əsr şəhərləri, qalaları, xanəgahları, türbə və ziyarətgahlarının tədqiqində xüsusi xidmətləri olan arxeoloq alimlərimizdəndir. Mübaliğəyə yol vermədən deyə bilərəm ki, o özünün fundamental elmi tədqiqatları ilə yanaşı, jurnalistika, təhsil və maarifçilik işi sahəsindəki fəaliyyəti ilə də elmi ictimaiyyətin və geniş oxucu auditoriyasının hörmətini qazanan mükəmməl alim obrazı ilə tanınır.

Bugünlərdə 75 yaşın zirvəsini aşan Qafar Cəbiyev 1950-ci ildə İsmayıllı rayonunun füsunkar Talıstan kəndində dünyaya göz açıb. O, 1973-cü ildə Gəncə Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə diplomu ilə bitirib, daha sonra isə Milli Akademiyanın Tarix İnstitutunun aspiranturasına qəbul edilib. Gənc alim 1985-ci ildə namizədlik, 2007-ci ildə isə doktorluq dissertasiyası müdafiə edib. Müəllifi olduğu 25 monoqrafiya, 130-dan çox elmi, 350-dən çox elmi-publisistik məqaləsi Qafar müəllimin son dərəcə məhsuldar və səmərəli elmi fəaliyyətinin göstəricisidir.

"Arxeologiya və romantika", "Azərbaycan keramikası", "Bura Vətəndir", "Girdiman tarixi", "Girdiman. Tarixi və tarixi coğrafiyası", üç cilddən ibarət "Orta əsr Ağsu şəhəri", "Ağsuçay-Girdimançay hövzəsinin arxeoloji abidələri" adlı əsərləri, ali məktəblər üçün yazmış olduğu "Azərbaycan tarixi" və "Azərbaycan arxeologiyasının əsasları" adlı dərslik və dərs vəsaitlərinin hər biri elm fədaisinin gərgin əməyinin və səmərəli elmi-pedaqoji fəaliyyətinin məhsuludur.

Professor Qafar Cəbiyevin rəhbəri olduğu arxeoloji ekspedisiyaların tədqiqatları faktiki olaraq Azərbaycanın orta əsr və antik dövr tarixinin bir sıra aktual problemlərinin yenidən işlənməsinə təkan oldu. 1985-ci ildən başlayaraq onun rəhbərliyi ilə Qəbələ, Kürdəmir, Şamaxı, İsmayıllı və Ağsu rayonları ərazisində aparılan davamlı və geniş miqyaslı tədqiqatlar, sözün əsil mənasında, qədim dövlətçilik tariximizin və xalqımıza məxsus zəngin mədəni irsin tədqiqi və təşviqi yolunda yeni üfüqlər açıb.

Qədim tariximizin araşdırıcısının Azərbaycanın son orta əsr arxeologiyasına dair tədqiqatları, bu dövrün şəhər mədəniyyətinin öyrənilməsi, xüsusilə də arxeologiya elminin əlifbası hesab edilən keramika məmulatının təsnifatı, dövrləşdirilməsi, bədii-texniki və texnoloji xüsusiyyətlərinin araşdırılması tək Azərbaycanda deyil, bütövlükdə əski sovetlər birliyində ilk addım idi.

Qafqaz Albaniyası tarixinin arxeoloji aspektdə dərindən və hərtərəfli araşdırılması alimin elmi fəaliyyətinin ən mühüm istiqamətlərindən biridir. AMEA-nın Albanşünaslıq Elmi Mərkəzinin rəhbəri olduğu dönəmdə məhz onun təşəbbüsü ilə albanşünaslığın bir sıra aktual problemləri gündəmə gətirilməklə öz müsbət həllini tapıb. Onun Azərbaycan albanşünaslığına verdiyi ən böyük töhfə isə Girdiman tarixinə dair fundamental tədqiqatlardır. Sovet dönəmində təhrif edilən, ermənilər tərəfindən saxtalaşdırılan Girdiman problemi professor Qafar Cəbiyevin araşdırmaları və çox möhtəbər elmi dəlilləri əsasında yenidən işləndi. Sələflərindən fərqli olaraq məhz o ilk dəfə Girdiman vilayətinin Albaniyanın qərbində və ya şimal-qərbində deyil, məhz Şirvan ərazisində olduğunu elmi cəhətdən sübuta yetirdi.

Milli arxeologiyamızın inkişafına dəyərli töhfələr vermiş alim 40 ildən artıqdır ki, Qəbələdə tədqiqatlar aparır. O, 15 ildir ki, Qəbələ beynəlxalq arxeoloji ekspedisiyasının rəhbəridir. Arxeoloqun davamlı tədqiqatları sayəsində qədim Azərbaycan dövləti olan Qafqaz Albaniyasının baş şəhəri-paytaxtı olan Qəbələ tarixinin bir sıra problemləri dərindən və hərtərəfli araşdırılıb. Alimin fikrincə, indiki halda Qəbələ şəhərinin 2500 illiyinin rəsmi səviyyədə qeyd olunması qədim dövlətçilik tariximizin öyrənilməsi və təşviqi baxımından çox mühüm elmi, həm də siyasi əhəmiyyət kəsb edir.

Qədim Mehrəvan şəhərinin lokalizasiyası ilə bağlı uzun illər tarixşünaslığımızda mövcud olan qeyri-müəyyənliyə də ilk dəfə məhz professor Qafar Cəbiyevin tədqiqatları sayəsində son qoyulub. Məhz onun rəhbərliyi ilə aparılmış arxeoloji qazıntılar Mehrəvan şəhərinin Ağsu rayonu ərazisində, Girdimançayın sol sahilində olduğu müəyyən edilib.

Professor Qafar Cəbiyevin rəhbərlik etdiyi Ağsu arxeoloji ekspedisiyası son 100 il ərzində Azərbaycan ərazisində aparılmış arxeoloji tədqiqatlar nəticəsində ilk dəfə olaraq qızıl pullardan ibarət dəfinə aşkar edib. Yeri gəlmişkən, 2010–2012-ci illərdə onun rəhbərliyi ilə Ağsu və Kürdəmir rayonları ərazisində daha bir neçə nadir dəfinə tapılaraq elmi dövriyyəyə daxil edilib.

2008–2009-cu illərdə alimin rəhbərliyi ilə Kürdəmir rayonu ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı Azərbaycanda ilk dəfə olaraq məhz Şəhərgah adlı şəhər yerində XII əsrə aid çox mükəmməl hamam-sağlamlıq kompleksi aşkar olunaraq tədqiq edilib. Şamaxı rayonu ərazisindəki Dəmirçi nekropolunun, Kələxana türbələr kompleksinin, Pir Ömər Sultan ziyarətgahının tədqiqi, Ağsu şəhəri ərazisində Şıxməzid xanəgahının və eyni adlı türbənin elmi dövriyyəyə gətirilməsi, Basqal ərazisində orta əsr şəhər mədəniyyəti qalıqlarının üzə çıxarılaraq araşdırılması, Xəlvətilik sufi təliminin banisi Pir Ömər Avaxılının türbəsinin və türbə kitabəsinin tapılması professor Qafar Cəbiyevin rəhbərliyi ilə son illər aparılmış çox uğurlu arxeoloji tədqiqatların yalnız bir hissəsidir.

Yeri gəlmişkən, qeyd edək ki, Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Basqalda və Avaxılda Qafar Cəbiyevin rəhbərliyi ilə tədqiq olunan arxeoloji abidələrdə olub, qədim tariximizin yadigarları ilə maraqla tanış olublar. Ağsu qazıntılarının əhatə etdiyi ərazi isə ölkə başçısının 22 oktyabr 2019-cu il tarixli sərəncamı ilə tarix və mədəniyyət qoruğu elan edilib.

Qafar müəllimin ömür yolunun əhəmiyyətli bir hissəsi pedaqoji fəaliyyətə həsr olunub. O, 1990–2003-cü illərdə Bakı Dövlət Universitetinin Şəki filialının dosenti, 2008–2017-ci illərdə ictimai əsaslarla Azərbaycan Müəllimlər İnstitutunun ictimai fənlər kafedrasının müdiri, 2018–2020-ci illərdə isə Bakı Qızlar Universitetinin professoru kimi pedaqoji fəaliyyətlə də məşğul olub. Azərbaycan tarixi və Azərbaycan arxeologiyası fənlərini tədris edib.

Alimin ayrı-ayrı elmi nəşrlərdə və rəsmi mətbuatda dərc olunmuş "Heydər Əliyev zirvəsi", "Heydər Əliyev və Azərbaycan tarixi", "Heydər Əliyev və Azərbaycan mətbuatı", "Ulu öndər Heydər Əliyevin Azərbaycan tarixi və tarixşünaslığının milli konsepsiyasının hazırlanmasına dair məsləhət, təklif və tövsiyyələri", "Heydər Əliyev Qəbələni necə xilas etdi?", "Tarixi-mədəni irsə qayğının Heydər Əliyev nümunəsi" və bu silsilədən olan çoxsaylı digər yazıları elmi ictimaiyyət və geniş oxucu kütləsi tərəfindən böyük rəğbətlə qarşılanıb.

Professor Qafar Cəbiyev davamlı elmi-pedaqoji fəaliyyəti ilə yanaşı, dövlət xidməti və media sahəsində də səmərəli fəaliyyət göstərib.

O, 1990–2004-cü illərdə "Azərbaycan" qəzetinin Balakən–Şəki bölgəsində xüsusi müxbiri, 2004–2019-cu illərdə Milli Televiziya və Radio Şurasının üzvü, 2013–2019-cu illərdə Şura sədrinin müavini olub". Can Azərbaycan", "Yazılan qalacaq", "Düşüncələr" və "Mənim Azərbaycanım, yaxud ömrün yadda qalan anları" kimi iri həcmli publisistik əsərləri vətəndaş alimin elmi-pedaqoji istiqamətlə yanaşı, jurnalistika sahəsində də uğurlu fəaliyyət göstərdiyindən xəbər verir. O, "Qızıl qələm" və "Humay" mükafatlarına, "Əməkdar jurnalist" fəxri adına layiq görülüb.

Professor Q.Cəbiyev özünün son dərəcə aktiv və səmərəli elmi-pedaqoji və ictimai fəaliyyəti ilə təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə də tanınan, qiymətləndirilən alimlərdəndir. Onun 2012-ci ildə Türk dünyasının "Elm adamı" fəxri adına layiq görülməsi Azərbaycan aliminin beynəlxalq sahədəki nüfuzundan xəbər verir. 2020-ci ildə Azərbaycan arxeologiyasının inkişafında professor Qafar Cəbiyevin rolu və xidmətlərinə həsr olunmuş beynəlxalq vebinar konfrans keçirilib. Bu ilin yanvar ayında Şimali Makedoniyada keçirilən XIII ənənəvi "Ohrid-Vodiçi" konfransı, aprel ayında Şimali Kipr Türk Cümriyyətinin Yaxın Doğu Universitetində "Türk mədəniyyəti, incəsənəti və mədəni mirası" mövzusunda keçirilən beynəlxalq simpozium da məhz professor Qafar Cəbiyevə həsr edilib.

Qafar müəllim "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi İdarə heyətinin üzvü kimi çoxtərəfli işgüzar fəaliyyətini, mədəni irsin tədqiqinə, təşviqinə və qorunmasına yönəlik yanaşmalarını analiz edərkən onun elmi təfəkkürünün və ictimai fəaliyyətinin bir-biri ilə sıx əlaqədə olduğunu görürük.

Göründüyü kimi, professor Q.Cəbiyevin həyatı zəhmət və istedadın çox möhtəşəm sintezinin bariz nümunəsidir. Onun hər bir uğurunun arxasında zəhmət, fədakarlıq və səbr durur. Onun elmə verdiyi töhfələr yalnız şəxsi nailiyyətlərlə məhdudlaşmır, həm də rəhbərliyi altında yetişən gənc arxeoloqlar nəslinin müvəffəqiyyətlərində özünü göstərir.

Bir sözlə, Qafar müəllim həm alim, həm pedaqoq, həm jurnalist, həm də ictimai xadim olaraq bütün hallarda və bütün sahələrdə öz vəzifə və vətəndaşlıq borcunu yüksək səviyyədə yerinə yetirməklə, Azərbaycan elminin inkişafına sanballı töhfələr verib. Dəyərli alim dostum, 75 yaşın mübarək!

*Habil MƏMMƏDOV,*
*tarix elmləri doktoru,*
*Bakı Slavyan Universitetinin professoru*



# Xəzər dənizində zəlzələ olub

**Avqustun 12-də Xəzər dənizində zəlzələ qeydə alınıb.**

Respublika Seysmoloji Xidmət Mərkəzindən verilən məlumata əsasən, yerli vaxtla saat 11:16-da qeydə alınan zəlzələnin maqnitudası 3,2 olub.

Zəlzələ ocağı yerin 74 kilometr dərinliyində yerləşib.

*XQ*

# AHİK islahatlar barədə hesabat verdi



**Avqustun 12-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında qurumun son 1 ildə fəaliyyətinə həsr olunmuş mətbuat konfransı keçirildi. Mərasimi AHİK sədrinin müşaviri Abbas Əliyev açaraq bildirdi ki, bugünkü hesabatda konfederasiyanın gördüyü işlər, icra edilən layihələr barədə ictimaiyyətə məlumat veriləcək.**

Toplantının moderatoru Elvin Dəmirli əvvəlcə AHİK-in son bir ildə fəaliyyətini əks etdirən video sujeti iştirakçılara təqdim etdi.

Bildirildi ki, AHİK 5-6 fevral 1993-cü ildə Azərbaycan Həmkarlar İttifaqlarının qurultayında təsis edilib. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası da daxil olmaqla 22 sahə həmkarlar ittifaqını özündə birləşdirən müstəqil ictimai təşkilatdır. Konfederasiyanın tərkibində 11 min 613 həmkarlar ittifaqı təşkilatı var. Üzvlərinin sayı 1 milyon 34 min 701 nəfərdir.

Qeyd olundu ki, konfederasiyanın əsas missiyası üzvlərinin əmək və sosial hüquqlarının qorunması, qanuni mənafelərinin müdafiəsi, sosial rifahının yüksəldilməsi və sıralarının genişləndirilməsidir. Qarşıdakı hədəflərə çatmaq üçün AHİK-in 2025-2027-ci illər üzrə inkişaf strategiyası təsdiq olunub. Hazırda strategiyanın reallaşdırılması üçün 7 prioritet, 12 fəaliyyət istiqaməti və 36 layihəni əhatə edən Tədbirlər Planı icra olunur.

Hesabatda AHİK-in şəhid ailələri, qazilər, imkansız ailələrə qayğısı istiqamətində görülən işlər, beynəlxalq əlqələrdə qazanılan uğurlar, idman təşkilatlarının fəaliyyəti, Əmək və Sosial Münasibətlər Akademiyasında aparılan islahatlar və sair haqqında qısa məlumat verildi.

Sonra AHİK sədrinin müşaviri Elkiyar Ziyadov bildirdi ki, Azərbaycanda ilk dəfə olaraq həmkarlar ittifaqları üzvlərinin elektron siyahısı hazırlanıb. İndiyədək 950 mindən çox şəxsin məlumatı toplanıb. Konfederasiyada sənəd dövriyyəsinin elektronlaşdırılması başa çatıb. Natiq Azərbaycanda istirahət məqsədilə verilən yollayışların ümumi dəyərinin 15 faizini müraciət edən, 85 faizini isə həmkarlar ittifaqları ödədiyini bildirdi.

Qeyd edildi ki, əgər müalicə üçün yollayış alan həyat yoldaşı ilə getmək istəyirsə, həmin şəxs AHİK-ə üzvdürsə, əmək pensiyaçısıdırsa, sosial sığorta ödəyicisidirsə, o da 15 faiz ödəyir. Əks təqdirdə həmin şəxsin həyat yoldaşı yollayışın 50 faizini ödəyir, qalanını isə AHİK qarşılayır. İstirahətə gedən həmkarlar ittifaqı üzvü isə özü ilə ailə üzvlərini, 23 yaşadək uşaqlarını apara bilər. Əgər övladlarının yaşı 18-dən yuxarıdırsa, tələbədirsə mütləq həmin məlumat elektron sistemə daxil edilməlidir. Əks təqdirdə müraciətlərə imtina göndərilir. Sanatoriya və istirahət mərkəzlərinə yollayışların verilməsi prosesində şəffaflığın, operativliyin və əlçatanlığın təmin olunması məqsədilə "e-ahik" Sanatoriya-Kurort Elektron Rezervasiya Sistemi vasitəsilə 2025-ci il yanvarın 1-dən iyulun 31-dək 32 minə yaxın yollayış verilib. Bu isə ötən ilin müvafiq dövrünə nisbətən 1,5 dəfə çoxdur.

E.Ziyadov vurğuladı ki, bu ilin sonunadək AHİK yollayışların verilməsi prosesində şəffaflığın, operativliyin və əlçatanlığın təmin olunması, hər kəsə bərabər şəraitin yaradılması məqsədilə "Skorinq" sistemi qurmağı planlaşdırır. Bu sistemlə vətəndaşlar bal sisteminə əsasən seçiləcəklər.

Bundan başqa, Həmkarlar İttifaqları Konfederasiyası yaxın vaxtlarda AHİK+ layihəsini həyata keçirəcək. Layihə sosial tərəfdaşlarla birgə rəqəmsal platforma vasitəsilə həyata keçiriləcək. "AHİK Plus" çərçivəsində həmkarlar ittifaqı üzvləri və yeni üzvlüyə qoşulanlar üçün bonuslar, endirimlər və xüsusi güzəştlər nəzərdə tutulur.

Sonra çıxış edənlər AHİK-in beynəlxalq əlaqələri, idman təşkilatları, akademiya təhsilindəki yeniliklər, üçtərəfli sazişin detalları və digər sahələrə aid yeniliklərdən bəhs etdilər.

Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru vəzifəsini müvəqqəti icra edən Yusif Ağayev abituriyentləri rəhbərlik etdiyi qurumda təhsillərini davam etdirməyə çağırdı. Onun sözlərinə görə, akademiyada aparılan islahatlar, yaradılan şərait burada təhsil alanların işlə təmin olunması, onların gələcək fəaliyyətlərində müsbət təsir göstərəcək. Qeyd olundu ki, son 1 ildə AHİK-də aparılan islahatları ölkə ictimaiyyəti razılıqla qarşılayır.

Sonda AHİK rəsmiləri jurnalistləri maraqlandıran suallara cavab verdilər.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Vətəndaş cəmiyyəti təşəbbüsləri*

# Sağlam ailənin mənəvi təməli

**"Yeni Həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyi Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Ataların qızlarına dəstəkçi münasibətlərinin sağlam ailədəki rolu" adlı maarifləndirici layihənin icrasına start verib. Bölgələrdə yaşayan aztəminatlı ailələrdə böyüyən gənc qızlar və onların ataları ilə aralarındakı ata–qız emosional münasibətlərindən bəhs edən layihənin icrasında təşkilatın üzvləri bir sıra bölgələrdə olub ailələrlə söhbətlər apacaq, əsasən atalarla həmsöhbət olub problemli mövzuları müzakirə edəcəklər.**

İctimai birliyin sədri, müstəqil ekspert Nailə İsmayılova ilə görüşüb layihənin icrası ilə bağlı bizi maraqlandıran suallara cavab istədik. Öncə layihənin adı diqqətimizi cəlb etdiyindən soruşduq:

**– Sağlam ailənin mövcudluğunda niyə məhz ataların rolunu araşdırırsınız?**

– Son vaxtlar yetkinlik yaşına çatan və ya daha yuxarı yaşlarda qızlarla bağlı neqativ bir hadisə olanda, məsələn, qızlar təcavüzə uğrayanda və sair hallarda öncə valideyn nəzarətsizliyinə diqqət çəkilir. Belə mövzularla bağlı ailələrlə, yaxud qızların özləri ilə etdiyimiz söhbətlərdə aydın olur ki, qızların valideynləri, xüsusilə də ataları ilə münasibətləri yox dərəcəsindədir. Evdə kişi nüfuzu, kişi sözü bizim mentalitetdə həmişə üstün tutulub.



Qızların gələcək taleyində uğursuzluq olmaması məqsədilə məhz ata–qız münasibətlərinin araşdırılmasının vacibliyini düşündük və belə bir layihəyə start verdik. Layihənin əsas məqsədi atalar və qızlar arasındakı sosial-emosional münasibətlərin möhkəmləndirilməsi, bu münasibətlərin ailə içində daha sağlam, qarşılıqlı hörmət və dəstək üzərində qurulmasına şəraitin yaradılması, eyni zamanda, ataların qızlarına qarşı daha müasir və müsbət yanaşmalarla emosional və təhsil dəstəyi vermələri üçün maarifləndirici məlumatların çatdırılmasını təmin etməkdir.



**– Layihənin icrasında hansı yaşda olan qızlarla ünsiyyət nəzərdə tutmusunuz?**

– Layihədə hər bölgədən 14–18 yaş arasında olan gənc qızlarla bərabər, onların ataları iştirak edəcəklər. Layihə atalar və qızlar arasındakı münasibətlərə həsr olunduğundan çalışacağıq ki, tədbirlərdə əsasən atalar iştirak etsilər. Rayonlarda yaşayan insanların maddi durumunun nisbətən aşağı olduğu, yəni onların, əsasən, aztəminatlı təbəqə olduğunu nəzərə alaraq, hədəf qrupu kimi seçib daha aztəminatlı ailələrə üçtünlük veriləcək.

Layihəyə iyul ayının 1-dən start verilmiş və icrası 3 ay müddətində davam edəcək. Layihəni əsasən, İsmaıllı, Qəbələ və Goranboy rayonlarında icra etməyi düşünürük.

**– Qohum evliliklərə qoyulan qadağa barədə fikrinizi də bilmək istərdik.**

– Bildiyimiz kimi, qan qohumları arasında bağlanan nikahların mənfi nəticələri artıq geniş vüsət almağa başlamışdı. Məhz bunlar nəzərə alınaraq, dövlət tərəfindən illərdir bir sıra tədbirlər davamlı həyata keçirilirdi. Məlum olduğu kimi, artıq Nazirlər Kabinetinin qərarı ilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə qaydası təsdiq edilib.

Sənədin icrası 13 dövlət qurumuna və 76 yerli icra hakimiyyətinə tapşırılıb. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, eləcə də komitənin tabeliyində olan Uşaq və Ailələrə Dəstək mərkəzləri tərəfindən mütəmadi olaraq yeniyetmə və gənclərin, valideynlərin erkən evlilik və qohum evliliyinin mənfi nəticələrinə dair məlumatlılıq səviyyəsini artıran görüşlər keçirilib. Buna baxmayaraq ki, qohum nikahları aktual məsələlərdən biri olaraq qalır. Təbii ki, bu da ölkənin gələcək nəsillərinə və genofonduna mənfi təsir edirdi.

Son illər ərzində sağlamlıq problemləri ilə, irsi, genetik xəstəliklərlə, xüsusilə də anadangəlmə inkişaf qüsurları, deformasiyalar və xromosom pozuntuları ilə, talassemiya xəstəliyi ilə qeydə alınmış uşaqların sayında artım bu istiqamətdə ciddi tədbirlərin görülməsinin vacibliyini göstərirdi. Artıq qanun 2025-ci il iyulun 1-dən qüvvəyə mindi və bir çox məsələlərə aydınlıq gətirildi. Nəticə etibarilə bu qanun ailələrin sağlamlığına və həyat səviyyəsinə müsbət təsir göstərəcək.

***Müsahibəni hazırladı:***
***Z.BƏŞİRQIZI***
***XQ***

**ABŞ prezidenti Donald Tramp Rusiya prezidenti Vladimir Putinlə Ukraynanın gələcək sərhədlərini müzakirə edəcəyini açıqlayaraq, bu addımı ilə beynəlxalq diplomatiyada yeni bir səhifə açdı. Kreml rəhbərinin Alyaskada keçiriləcək görüşdə müharibəyə son qoyacaq təkliflər irəli sürməsini gözləyən Trampın bu bəyanatı, həm ABŞ daxilində, həm də Avropa və Ukrayna rəsmiləri arasında ciddi narahatlıqlara səbəb olub. Görüşün yeri və gündəliyi, regionda yeni geosiyasi reallıqların formalaşa biləcəyinə dair siqnallar verir.**

# Dünyanın nəzəri Alyaskaya dikilib



ABŞ mediasının iddialarına görə, Vladimir Putin atəşkəs üçün şərtlərini artıq Vaşinqtona çatdırıb. "Axios"un məlumatına əsasən, bu şərtlər Donetsk və Luqansk vilayətlərinin, həmçinin Krımın Rusiyaya birləşdirilməsini, Xerson və Zaporojyedə isə müharibənin "dondurulmasını" nəzərdə tutur. Donald Tramp isə öz növbəsində Ukraynaya bəzi ərazilərin geri qaytarılması üçün çalışacağını bildirib. O, Rusiyanın Qara dəniz sahilində "əhəmiyyətli bir bölgəni işğal etdiyini" vurğulayaraq, Putinin hansı "parametrləri" masaya qoyacağını gözləyəcəyini söyləyib. Bu, faktiki olaraq müharibənin sonunu deyil, ərazi mübadiləsi şərtləri ilə münaqişənin həllini nəzərdə tutan bir yanaşmadır.

Görüş yerinin Alyaska seçilməsi də diqqət çəkən məqamlardandır. Rusiya prezidentinin köməkçisi Kiril Dmitriyev bunu Arktika bölgəsindəki gələcək birgə layihələrlə izah etsə də, bu, həm də Alyaskanın bir vaxtlar Rusiyaya məxsus olması fonunda simvolik bir addım kimi qəbul edilir. Bu görüş həm də Tramp üçün Amerika diplomatiyasının gücünü nümayiş etdirmək və dünya siyasətində öz liderlik rolunu yenidən təsdiq etmək imkanıdır.

Ancaq Avropa və Ukrayna rəsmiləri, Alyaskada verilə biləcək güzəştlərdən dərindən narahatdırlar. Avropa İttifaqı (Aİ) ölkələri və ukraynalı liderlər Rusiyanın irəli sürdüyü şərtləri qəbul etməyin beynəlxalq hüququn kobud şəkildə pozulması və işğalın legitimləşdirilməsi anlamına gələcəyini düşünürlər. Onlar hesab edirlər ki, Ukraynanın öz gələcəyini müstəqil şəkildə müəyyən etmək hüququ toxunulmazdır.

Aİ liderləri görüşdən kənarda qalmaq ehtimalına qarşı diplomatik təsirlərini gücləndirməyə çalışırlar. Onlar Ukraynanın hər hansı sülh prosesində mütləq şəkildə iştirak etməsinin zəruriliyini vurğulayırlar. Ukraynalı rəsmilər isə müharibənin dərhal atəşkəs elan olunması və ardınca "ədalətli sülh" danışıqlarına başlanılması şərti ilə dayandırılmasını istədiklərini bildirirlər. Bu "ədalətli sülh" anlayışı isə Rusiyanın "təklifləri" ilə kəskin şəkildə ziddiyyət təşkil edir.

Donald Trampın Zelenskiyə qarşı sərtləşən tonu ("heç bir nəticə əldə etmədiyini" söyləməsi) Ukraynada müəyyən həyəcan yaradıb. Bu, Trampın sülh prosesində daha fərqli bir yol tutmaq niyyətində olduğunu göstərir. Tramp, həmçinin sülh əldə olunmaması halında Hindistanın Rusiya nefti alması səbəbindən tətbiq edəcəyi sərt iqtisadi sanksiyalarla bağlı xəbərdarlıq edib. Onun sözlərinə görə, bu sanksiyaların taleyi Alyaska görüşünün nəticələrindən asılı olacaq.

Beynəlxalq ekspertlərin sözlərinə görə, Tramp-Putin görüşü təkcə Ukrayna və Rusiya deyil, həm də Avropanın, Aİ-nin, NATO-nun və bütün qlobal siyasi sistemin gələcəyi üçün böyük əhəmiyyət daşıyır. Görüşün nəticələri həm müharibənin gedişatına, həm də dünya gücləri arasındakı münasibətlərə birbaşa təsir göstərəcək. Hazırda bütün tərəflərin gözü Alyaskaya dikilib.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Süni intellekt fizika elmində yeni səhifə açır



**Alimlər tozlu (kompleks) plazmanın xaotik dinamikasını araşdıraraq müəyyən ediblər ki, düzgün təlim keçdikdə süni intellekt müstəqil şəkildə yeni fiziki hadisələr aşkar edə bilir. Fiziklər maşın öyrənilməsinə əsaslanan yeni süni intellekt modeli hazırlayıblar. Bu model tozlu plazmada hissəciklərin davranışı ilə bağlı mövcud nəzəriyyəni dəqiqləşdirməyə kömək edib.**

Adətən, alimlər maşın öyrənmə alqoritmlərindən böyük həcmdə məlumatların təhlili və ya təcrübələrin optimallaşdırılması üçün istifadə edirlər. Lakin bu dəfə süni intellekt modeli ən azı tozlu plazma mövzusunda təkbaşına yeni bir fiziki qanunauyğunluq kəşf edib. Tədqiqat PNAS jurnalında dərc olunub.

Plazma maddənin dördüncü halıdır və kainatdakı bütün adi maddələrin 99,9 faizini təşkil edir. Tozlu plazma isə ionlaşmış qazın elektriklə yüklənmiş toz hissəcikləri ilə qarışığından ibarətdir. Bu tip plazmaya həm kosmosda, həm də Yer üzündə rast gəlinir. Məsələn, meşə yanğınları zamanı tüstü ilə qarışan yüklü his hissəcikləri tozlu plazma əmələ gətirir.

Yeni süni intellekt modeli tozlu plazma fizikasının indiyədək ətraflı təsvirini təqdim edərək, "qarşılıqlı olmayan qüvvələr" üçün dəqiq proqnozlar verib. Bu qüvvələrdə A cismin B cisminə göstərdiyi təsir, B-nin A-ya göstərdiyi təsirlə bərabər və əks istiqamətli olmur, bu da Nyutonun üçüncü qanununu pozur. Sadə dildə desək, qarşılıqlı olmayan qüvvələr hissəciklər arasında cəlbetmə və itələmə qüvvələrinin bərabər olmadığı hallarda meydana çıxır. Alimlər bu fenomeni, hissəciklərin nisbi mövqelərinin qarşılıqlı qüvvələrə təsir etməsi kimi izah edirlər.

İllərdir nəzəriyyədə belə güman edilirdi ki, aparıcı hissəcik geridə qalanı özünə çəkir, lakin geridə qalan hissəcik aparıcını həmişə itələyir. Bu, nəzəri baxımdan ehtimal edilirdi, amma indi süni intellekt bu hadisəni təcrübi olaraq təsdiqləyib. Üstəlik, süni intellekt nəzəriyyədəki bəzi yanlış təsəvvürləri də düzəldib. Məsələn, əvvəlcə hissəciyin yükünün ölçüsü ilə mütənasib olduğu düşünülürdü. Lakin məlum olub ki, daha böyük hissəcikdə yük həqiqətən çox olsa da, bu, mütənasib deyil; çünki sıxlıq və temperatur da mühüm rol oynayır. Bundan başqa, hissəciklərarası yük yalnız məsafədən deyil, ölçülərdən də asılıdır.

Bu nəticəyə gəlmək alimlər üçün asan olmayıb. Çünki yeni fiziki hadisələri öyrənmək üçün geniş həcmli təlim məlumatları mövcud deyil. Buna görə də fiziklər süni intellektin mövcud məlumatları təhlil etməklə yanaşı, hələ kəşf edilməmiş fizikanı sərbəst şəkildə araşdıra biləcəyi xüsusi bir çərçivə yaradıblar.

Tədqiqatçılar hesab edirlər ki, düzgün istiqamətdə tətbiq edilərsə, süni intellekt elm dünyasında tamamilə yeni kəşflərin yolunu aça bilər.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 168 (30862) 13 avqust 2025-ci il, çərşənbə

İDMAN

## Cüdo Akademiyasının seminarı



**Beynəlxalq Cüdo Federasiyası (IJF) Akademiyasının cüdo məşqçiliyi üzrə sertifikat proqramı çərçivəsində "nage-no-kata" üzrə seminarı keçirilib.**

Azərbaycan Cüdo Federasiyasından verilən məlumata görə, seminar IJF Akademiyasının təhsil direktoru, Avropa Cüdo Birliyinin baş kata komissarı Slavişa Bradiçin rəhbərliyi ilə baş tutub. Təlim zamanı iştirakçılara "nage-no-kata"-nın nəzəri əsasları, texniki icra qaydaları və tədris metodikası ətraflı izah olunub.

Praktiki məşğələlərdə məşqçilər hərəkət ardıcıllıqlarını yerinə yetirərək texniki dəqiqliyin artırılması və kata tədrisində qarşılaşılan çətinliklərin aradan qaldırılması üzrə tövsiyələr alıblar.

## Amerikalı voleybolçu "Azərreyl"də



**Qadın voleybolçulardan ibarət "Azərreyl" komandası heyətinə yeni oyunçu cəlb edib. Belə ki, Bakı klubu ABŞ-dan olan voleybolçu Medison Bleynin keçidini rəsmiləşdirib. Onunla 1 illik müqavilə imzalanıb.**

Qeyd edək ki, Medison Bleyin son olaraq ölkəsində "Liberti Ledi Fleyms" komandasında oynayıb.

## Karateçi İrinanın yeni hədəfləri



**Bu günlərdə Çinin Çenqdu şəhərində keçirilən Dünya Oyunlarında gümüş medal qazanan Azərbaycan karateçisi İrina Zaretska (68 kq) "dünyanın ən yaxşıları arasında olduğu"nu göstərmək istəyib.**

Zaretska növbəti hədəflərindən də söz açıb: "Azərbaycandakı MDB Oyunlarında, Səudiyyə Ərəbistanındakı VI İslam Həmrəyliyi Oyunlarında və dünya çempionatında da uğurlu çıxış etmək istəyirəm. Üstəlik, indiyədək Azərbaycanın yeganə təmsilçisiyəm ki, dünya çempionatına lisenziya qazanmışam. Bu, məndə xüsusi məsuliyyət yaradır. Həm də əlavə motivasiya verir".

Qeyd edək ki, İrina Zaretska Dünya Oyunlarının finalında İsveçrə təmsilçisi Elena Quirici ilə dueldən məğlub ayrılıb.

*MH ACIXANLI*
*XQ*

*Belə ola həmişə!*

# "Qarabağ" "Şkendiya"nı darmadağın etdi



**"Qarabağ" səfərdə 1:0 hesablı qələbə qazandıqdan sonra doğma meydanda cavab görüşünə üstün vəziyyətdə çıxmışdı. Nəzərə alsaq ki, "qarabağlılar" ardıcıl üç matçda qapılarını toxunulmaz saxlamışdılar, bu görüşün də Şimali Makedoniyalılar üçün asan keçməyəcəyi qabaqcadan bəlli idi.**

Ağdamlılar doğma meydanda özlərini daha inamlı hiss edirdilər. Onların Tofiq Bəhramov adına stadionda son 10 oyunu məğlubiyyətsiz keçirmələri və ardıcıl səkkiz qələbə qazanmaları da "Qarabağ"ı daha inamla matçın favoriti hesab etməyə imkan verirdi.

Komanda meydana optimal heyət vəziyyətində çıxmışdı və Qurban Qurbanov elə ciddi rotasiyaya ehtiyac görməmişdi. Azarkeşlərin dəstəyi ilə uğurlarını daha da artırmağa çalışan Qurban Qurbanovun yetirmələri doğma meydan statusundan istifadə edib fəal oynamağa üstünlük verdilər. Səfərdə minimal hesablı qələbə "Qarabağ"ı artıq növbəti mərhələyə yüksəltmək üçün yaxşı şans versə də, onlar sayıqlığı əldən vermək istəmirdilər. Makedoniyalılar isə qapıları qarşısında "avtobusları" necə park etməyi yaxşı bilirlər.

Amma bu dəfə yox. Oyunun artıq 10-cu dəqiqəsində qonaqların oyunçusu Fabris Tamba komandasını matçda irəli çıxarıb 2 oyunun nəticəsini bərabərləşdirdi. Bu qol "Qarabağ"ın heyəti üçün gözlənilməz olsa da, "Qarabağ"lılar qonaqlara bu vədəsiz qolu əsla bağışlamadılar.

16-cı dəqiqədə standart vəziyyətdən Andradanın qapı istiqamətinə endirdiyi zərbəni qonaqların oyunçusu Çake öz qapılarına vurdu. Hesab 1:1 olandan 2 dəqiqə keçməmiş Qarabağın kapitanı Zubir sol cinahdan yumşaq ötürmə ilə topu cərimə meydançasına göndərdi. Mərkəzdən sürətlə cərimə meydançasının sol küncünə şığıyan Kadi əla zərbə ilə topu qapıdan keçirdi - 2:1.

33-cü dəqiqədə kapitan Zubir yenidən öz cinahında driblinq edib, cərimə meydançasına ötürmə etdi və Axundzadə topu saxlamadan dərhal rəqibin qapısından keçirdi - 3:1.

Amma birinci hissədə bu da son qol olmadı. Rəqib qapısında qol görəndən sonra oyuna yenicə başlamışdı ki, topu ələ keçirən qarabağlılar Axundzadəyə əla ötürmə etdilər. Dubl etməyə yaxın olan oyunçumuzu kobud fəndlə yerə yıxdılar. Hollandiyalı refer dərhal Mərkəz nöqtəni göstərdi. Bu dəfə Yankoviç "Şkentiya"nın qapıçısını əla zərbə ilə məyus etdi. Birinci hissə 4:1 hesabı ilə başa çatdı.

İkinci hissənin 59-cu dəqiqəsində Andrade topu sol cinahdan Cəfərquliyevə ötürdü və rəqibin cərimə meydançasının mərkəzində ondan təkrar ötürməni qəbul edib əla zərbə ilə "Qarabağ"ın növbəti, özününsə 2-ci qoluna imza atdı - 5:1. Oyun elə bu hesabla da başa çatdı.

Beləliklə, 2 qarşılaşmada "Şkendiya"nın qapısına 6 qol vuran Ağdamın "Qarabağ" klubu UEFA Çempionlar Liqasının 3-cü təsnifat mərhələsini də uğurla adladı.

*İLQAR*
*XQ*

# 125 min uşaq birinci sinfə gedəcək



**Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən mətbuata bildirilib ki, proses ilkin mərhələdə Bakıda və regionlarda prioritet tətbiq olunmaqla həyata keçirilib. Hazırda hər kəs "məktəbəqəbul.edu.az" platformasına daxil olmaqla, seçdikləri məktəb və müəllim üzrə, boş yer olduğu təqdirdə, tədris Azərbaycan və digər dillərdə aparılan ümumtəhsil müəssisələrinə sorğularını yerləşdirə bilər.**

Proses sentyabrın 12-dək davam edəcək. Bu müddət ərzində sorğularını yerləşdirmiş valideynlər sənədləri məktəblərə təqdim edə bilərlər.

Tədris ili yaxınlaşdıqca ümumi təhsil müəssisələrində uşaqların qeydiyyatının aparılması, sənədləşmə işlərinin dəqiq və vaxtında başa çatdırılması baxımından bu mərhələnin əhəmiyyətini nəzərə alaraq Agentlik bildirir ki, övladlarının 2025-2026-cı tədris ili üzrə I sinfə elektron qəbulu prosesini həyata keçirmək istəyən valideynlər "mektebeqebul.edu.az" saytı vasitəsilə şəxsi kabinet yaradaraq, məktəb və müəllim seçimi edə bilərlər.

*XQ*

# Milli Kitabxanada gənclər sərgisi

**Dünən planetimizdə Beynəlxalq Gənclər Günü geniş qeyd olundu. Milli Kitabxanada bu münasibətlə "12 Avqust – Beynəlxalq Gənclər Günü" adlı virtual sərgi yaradılaraq onlayn rejimdə istifadəçilərə təqdim olunub.**

Kitabxanadan mətbuata bildirilib ki, virtual sərgidə rəsmi sənədlər, fotolar, dövri mətbuat səhifələrində dərc olunan materiallar və kitablar nümayiş olunur.

Qeyd edək ki, 1998-ci ildə hər il avqustun 12-sinin Beynəlxalq Gənclər Günü kimi qeyd olunması qərara alınıb. Həmin vaxtdan etibarən təqvimin həmin günü bütün dünyada gənclərə lazımi diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına təkan vermək məqsədilə müvafiq layihələr icra edilir.

*XQ*




# Paytaxtda yağmursuz, bölgələrdə yağış, leysan...

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Lakin 12-dən 13-nə keçən gecə və səhər bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 21-24, gündüz 29-33 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 45-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 20-24, gündüz 30-35, dağlarda gecə 10-15, gündüz 18-23 dərəcə isti olacaq.

*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Hikmət Osmanov Quba Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tarıyel İbrahimova həyat yoldaşı

**NARGİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Əlibala Məhərrəmzadə, Laçın Səfərəliyev və Ramiz Qusarçaylı Quba Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tarıyel İbrahimova həyat yoldaşı

**NARGİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhərindən İlqar Abbasov Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Vüsal Nəsirliyə əzizi

**İKRAM HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Kənd Təsərrüfatı Nazirliyi Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru İlham Qaraqurbanlı və institutun kollektivi Quba Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Tarıyel İbrahimova həyat yoldaşı

**NARGİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin əməkdaşı Nazim Məmmədova anası

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Agentliyin əməkdaşı Nilufər Nəsibliyə anası

**AFƏR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3416
SİFARİŞ 1515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV
Çapa imzalanmışdır 00:00